RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 34 (10054) 21 fevral 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Dünya diplomatiyasında yeni səhifə - Sülh Şurası



Sülh Şurası konsepsiyasının praktik tətbiqi Şarm əl-Şeyx şəhərində keçirilən sammitlə başlanıb. Həmin toplantıya Prezident İlham Əliyevin dəvət olunması isə Azərbaycanın beynəlxalq sülh təşəbbüslərində artan rolunun göstəricisidir. Sammit çərçivəsində Qəzza zolağında hərbi əməliyyatların dayandırılması və qan tökülməsinin qarşısının alınması təmin olunub, humanitar sahədə isə əsir və girovların qaytarılması prosesi həyata keçirilib. Onu da qeyd edək ki, təşəbbüs beynəlxalq gündəmdə geniş rezonans doğurub və birmənalı qarşılanmayıb. Bir sıra dövlətlər və siyasi dairələr bu yeni platformanı ehtiyatla izləyir, onun mövcud beynəlxalq institutların roluna, qərarvermə balansına və qlobal təhlükəsizlik sisteminə təsir göstərə biləcəyinə şübhə edirlər. Xüsusilə, Avropa qrupu və Çin tərəfindən təşəbbüsün çoxtərəfli diplomatiyanın gələcəyinə mümkün təsirləri ilə bağlı suallar səsləndirilir: Sülh Şurası yalnız Qəzza böhranının idarə olunması üçün yaradılmış situativ mexanizmdir? Onun qlobal miqyasda digər münaqişələrin həllində ənənəvi institutlara alternativ, hətta onları əvəzləyən yeni beynəlxalq təhlükəsizlik platformasına çevriləcəyinə inanmaq olarmı?

Bu kimi suallar, eləcə də bənzər müzakirələr və beynəlxalq maraq fonunda qurumun fəaliyyətinin genişləndirilməsi və yeni üzvlərin cəlb edilməsi təşəbbüsü irəli sürülüb. Sülh Şurasına qoşulmaq üçün dövlətlərə açıq çağırış olunub. Müraciətə cavab olaraq Azərbaycan quruma yaradıcı üzv statusu ilə qoşulub. Ölkəmizin Sülh Şurasının təsisçilərindən biri kimi iştirakı beynəlxalq münasibətlər sistemində artan siyasi çəkisini və qlobal proseslərdə etibarlı tərəfdaş kimi qəbul edilməsini nümayiş etdirir. Azərbaycan Sülh Şurasına qoşularaq onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz gələcək qurulması kimi nəcib missiyanı paylaşacaq.

Sülh Şurasında təsisçi kimi təmsil olunması, təbii ki, ölkəmizin qlobal təhlükəsizlik və diplomatiya proseslərində etibarlı tərəfdaş olmasından irəli gəlir. Bu addım göstərir ki, Azərbaycan artıq yalnız regional təşəbbüslərlə kifayətlənmir, qlobal sülhün tənzimlənməsində söz sahibi olan ölkələr sırasında yer alır. Şurada təmsilçilik Bakıya beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşmasında daha fəal iştirak imkanı verir və ölkəmizin ədalətli mövqeyə, beynəlxalq hüquqa və suverenliyə əsaslanan siyasətinin qəbul olunduğunu nümayiş etdirir. Münaqişədən sonrakı dövrdə sülh təşəbbüslərini prioritet edən qarşıdurma yox, əməkdaşlıq xəttini seçən Azərbaycan üçün bu üzvlük yeni siyasi mərhələnin başlanğıcıdır və ölkəmizin qlobal sülh və təhlükəsizlik proseslərində aparıcı tərəflərdən birinə çevrilməsini sürətləndirir.

8

# Dövlətə sədaqət, insanlara sevgi, milli dəyərlərə hörmət



Doqquz il əvvəl Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilənə qədər də Mehriban xanım müstəqil Azərbaycanın ictimai-siyasi həyatında bir sıra yeniliklərin təşəbbüskarı kimi tanınırdı. O, postsovet məkanında formal çərçivədən kənara çıxaraq Birinci xanım institutuna məzmun, sosial məsuliyyət və beynəlxalq təqdimat baxımından yeni model qazandırmışdı. 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondu vasitəsilə həyata keçirdiyi genişmiqyaslı humanitar, mədəni və sosial layihələrlə bu fəaliyyətin institusional əsasını formalaşdırmışdı. Bu illər ərzində fondun fəaliyyəti yalnız xeyriyyəçiliklə məhdudlaşmamış, o, Heydər Əliyev irsinin müasir dövrdə dəyərlər sisteminə çevrilməsi, milli kimlik və sosial həmrəylik anlayışlarının möhkəmləndirilməsi istiqamətində sistemli platforma kimi qərarlaşmışdı. Beynəlxalq səviyyədə qazandığı nüfuz, müxtəlif dövlət və təşkilatların ali mükafat və titulları Mehriban xanımın fəaliyyətini qlobal humanitar diplomatiyanın bir parçasına çevirmişdi.

Mehriban Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması isə institusional baxımdan 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsinin nəticələrinin davamı idi. Əsas Qanunumuza edilən dəyişikliklə yaradılmış bu institut daha əvvəl ölkəmizin idarəetmə modelində mövcud deyildi. Yeni mexanizm dövlət idarəçiliyində funksional bölgünü dərinləşdirmək, qərar qəbuletmə prosesini çevikləşdirmək, strateji koordinasiyanı gücləndirmək məqsədi daşıyırdı.

6

# Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri fevralın 19-da başa çatıb.

# Azərbaycan səfirliyi Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı baş verən insidentlə bağlı bəyanat yayıb



Azərbaycan Prezidenti İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində fevralın 19-da bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törədib. Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən, etirazçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd ediblər və Prezident avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər. Bu qrup, həmçinin Azərbaycan rəhbərliyinə qarşı nalayiq ifadələr işlədib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın ABŞ-dəki səfirliyinin yaydığı bəyanatda qeyd edilib.

Bəyanatda həmçinin bildirilib: "Dövlət başçısının mühafizə edilən nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığını nəzərə alan Prezidentin Təhlükəsizlik Xidmətinin dərhal müdaxilə etməkdən başqa seçimi qalmayıb. Təhlükəsizlik tədbirləri standart əməliyyat prosedurlarına uyğun olaraq, yalnız təhlükəsizlik və mühafizənin təmin edilməsinə yönəlib.

Bundan əlavə, ABŞ-nin Gizli Xidməti tərəfindən bəyan olunduğu kimi, mehmanxana ərazisi rəsmi təhlükəsizlik perimetrinə daxil olub.

Beləliklə, ölkənin liderinə və mühafizə olunan kortejə qarşı yönəlmiş hərəkətlərə cavab olaraq həyata keçirilmiş təhlükəsizlik tədbirlərinin yanlış təqdim edilməsi və ya əsaslandırılmamış iddialar yayılması cəhdlərini qətiyyətlə rədd edirik.

Azərbaycanın təhlükəsizlik əməkdaşları hər zaman ev sahibi ölkə ilə sıx koordinasiya şəraitində fəaliyyət göstərir".

Səfirlik xəbərləri yayarkən məsuliyyətli davranmağa və təsdiqlənməmiş iddialara əsaslanaraq nəticə çıxarmaqdan çəkinməyə çağırış edib.

# Ötən otuzillik dövr ərzində əməkdaşlığımız davamlı inkişaf etmişdir

## Sloveniya Respublikasının Prezidenti zati-aliləri xanım Nataşa Pirts Musara

Hörmətli xanım Prezident!

Azərbaycan Respublikası ilə Sloveniya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

Ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və əməkdaşlıq münasibətləri bizim üçün əhəmiyyətlidir. Sevindirici haldır ki, ötən otuzillik dövr ərzində ikitərəfli əlaqələrimiz möhkəmlənmiş, müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımız davamlı inkişaf etmişdir.

İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq Azərbaycan-Sloveniya dostluq və tərəfdaşlıq münasibətlərinin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı və genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Sloveniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2026-cı il*

# Sabitliyin və sülhün təşviqi üçün beynəlxalq təşkilatlar çərçivəsində birlikdə işləməyə davam edəcəyik

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Sloveniya Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar səmimi təbriklərimi, Azərbaycan xalqına davamlı uğurlar, xoşbəxtlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

Son üç onillikdə Sloveniya və Azərbaycan arasında həm ikitərəfli, həm də çoxtərəfli formatlarda qarşılıqlı hörmətə, etimada və əməkdaşlıqla bağlı ortaq öhdəliyə əsaslanan dostluq münasibətlərinin və konstruktiv əlaqələrin inkişaf etdiyini bildirməkdən böyük məmnunluq duyuram. Əminəm ki, ölkələrimizin əlaqələri qarşılıqlı maraq doğuran sahələrdə, xüsusilə də iqtisadiyyat, enerji təhlükəsizliyi, yeni texnologiyaların inkişafı istiqamətlərində uğurla dərinləşəcək və genişlənəcək, xalqlarımız arasında dostluq münasibətləri möhkəmlənəcəkdir.

Beynəlxalq sülhü və təhlükəsizliyi təşviq etmək, davamlı inkişafı dəstəkləmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq istiqamətlərində birgə səylərimiz qlobal problemlərin kollektiv fəaliyyətlə həllinə sadiq olduğumuzu nümayiş etdirir. Biz qarşılıqlı anlaşmanın, sabitliyin və sülhün təşviqi üçün beynəlxalq təşkilatlar çərçivəsində birlikdə işləməyə davam edəcəyik.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

# "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 55 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 8, maddə 933) aşağıdakı məzmunda 21-ci maddə əlavə edilsin:

"21. Asbest və tərkibində asbest olan materiallar.".

**Maddə 2**. Bu Qanun 2027-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2026-cı il*

# Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2006-cı il iyunun 15-də Cenevrə şəhərində qəbul edilmiş Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyası təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 320, № 7, maddə 628; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) 14.8-1-ci maddəsinin birinci abzasına "şəxslərin" sözündən sonra "Azərbaycan Respublikasının" sözləri, ikinci halda "təhsil" sözündən sonra "(əlavə təhsil istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2026-cı il*

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra - Agentlik) tabeliyində aşağıdakı qurumlar yenidən təşkil edilsin:

1.1. "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs Agentliyin tabeliyində "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə;

1.2. "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxs Agentliyin tabeliyində "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə.

2. Müəyyən edilsin ki:

2.1. "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

2.2. "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

2.3. bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan qapalı səhmdar cəmiyyətləri (bundan sonra - Cəmiyyətlər) həmin hissədə qeyd olunan publik hüquqi şəxslərin hüquqi varisidir və həmin publik hüquqi şəxslərin hüquq və öhdəlikləri, habelə əmlakı müvafiq olaraq Cəmiyyətlərə keçir;

2.4. Cəmiyyətlərin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.5. Cəmiyyətlərin fəaliyyətinə cari rəhbərliyi Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən icraçı direktor həyata keçirir;

2.6. Cəmiyyətlərin nizamnamə kapitalı bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan müvafiq publik hüquqi şəxslərin əmlakı hesabına formalaşır;

2.7. Cəmiyyətlər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslər fəaliyyətini davam etdirir.

3.Cəmiyyətlərin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. yenidən təşkili və ləğvi;

3.1.2. icra orqanının yaradılması;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən olunması, onlarda dəyişiklik edilməsi;

3.3. Agentliyə:

3.3.1. xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edilməsi;

3.3.2. Müşahidə Şurası sədrinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.3.3. Müşahidə Şurasının digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.4. Müşahidə Şurasına:

3.4.1. bu Fərmanın 3.1-3.3-cü bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Cəmiyyətlərin nizamnamələrini iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Agentlik:

5.1. Cəmiyyətlər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin balansında olan əmlakın müvafiq olaraq Cəmiyyətlərin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görülməsini təmin etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, Cəmiyyətlərin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

# "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, media, sosial tədqiqatlar, multikulturalizm və beynəlxalq münasibətlərin təhlili sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1.Aşağıdakı publik hüquqi şəxslər yenidən təşkil edilsin:

1.1. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs "Sosial Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin ona qoşulması yolu ilə;

1.2. "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxs Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ona qoşulması yolu ilə "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs qismində.

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs (bundan sonra - Agentlik) medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində fəaliyyət göstərən, habelə ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına (qurumlarına) təqdim edən publik hüquqi şəxsdir;

2.2. "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs (bundan sonra - Mərkəz) dünyada və regionda baş verən proseslərin təhlili, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparılması, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılması, Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) elmi-təhlili materiallarla təmin edilməsi sahəsində fəaliyyət göstərən, habelə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdan və mövcud multikultural modelləri tədqiq və təşviq edən publik hüquqi şəxsdir;

2.3. "Sosial Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin hüquqları və öhdəlikləri, habelə əmlakı müvafiq olaraq Agentliyə və Mərkəzə keçir.

3. Agentliyin təsisçisi səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.1.3. Agentliyin ləğvi və yenidən təşkili;

3.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

3.1.5. Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

3.2. Agentliyə:

3.2.1. bu Fərmanın 7-ci hissəsi nəzərə alınmaqla, Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi;

3.2.2. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Mərkəzin təsisçisi səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Mərkəzin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.3. Mərkəzin ləğvi və yenidən təşkili;

4.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Mərkəzin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Mərkəzin illik maliyyə hesabatlarının təsdiq edilməsi;

4.2.2. Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

4.2.3. Mərkəzin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına razılıq verilməsi;

4.3. Mərkəzə:

4.3.1. inkişaf istiqamətlərinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirilməsi;

4.3.2. bu Fərmanın 7-ci hissəsi nəzərə alınmaqla, Mərkəzin strukturunun,əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. bu Fərmanın 1-civə 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Agentliyin və Mərkəzin yeni nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Agentlik və Mərkəz:

6.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin və Mərkəzin yenidən təşkilinin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsinlər;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, Agentliyin və Mərkəzin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sisteminin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

# Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Aşağıdakı büdcə təşkilatları yaradılsın:

1.1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"və "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxslərin, habelə Dövlət Geoloji İnformasiya Fondunun əsasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi";

1.2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi";

1.3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar İnnovasiya Mərkəzinin və "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi";

1.4. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" və "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxslərin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu".

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun, Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun, Baytarlıq Elmi-Tədqiqat İnstitutunun, Heyvandarlıq və Balıqçılıq Elmi-Tədqiqat İnstitutunun, "Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu" publik hüquqi şəxsin, habelə Azərbaycan Dövlət Aqrar Universitetinin tabeliyində Aqromexanika Elmi-Tədqiqat İnstitutunun əsasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində büdcə təşkilatı qismində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun və "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun yaradılmasını təmin etsin.

3. Müəyyən edilsin ki:

3.1. bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan qurumların hüquq və öhdəlikləri, habelə əmlakı onların əsasında yaradılan büdcə təşkilatlarına keçir;

3.2. bu Fərmanın 4.2-ci və 4.3-cü bəndlərində göstərilən məhdud məsuliyyətli cəmiyyətlərin nizamnamə kapitalı həmin bəndlərdə nəzərdə tutulan publik hüquqi şəxslərin əmlakı hesabına formalaşır;

3.3. bu Fərmanın 1-ci və 2-ci hissələrinə əsasən yaradılan büdcə təşkilatlarının əsasnamələri (nizamnamələri), strukturu və əməyin ödənilməsi sistemi müəyyən edilənədək həmin hissələrdə nəzərdə tutulan qurumlar fəaliyyətini davam etdirir;

3.4. bu Fərmanın 4.2-ci, 4.3-cü və 5.1-ci bəndlərində qeyd olunan qurumlar "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək həmin bəndlərdə nəzərdə tutulan publik hüquqi şəxslər fəaliyyətini davam etdirir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

4.1. bu Fərmanın 1-ci, 2-ci və 5-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslərin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat və Dendrologiya Bağı" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkilini təmin etsin;

4.3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxsin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkilini təmin etsin;

4.4. bu Fərmanın 1-ci və 2-ci hissələrində, 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi və onların maddi-texniki təminatı ilə bağlı tədbirlər görülməsini təmin etsin;

4.5. bu Fərmanın 1-ci və 2-ci hissələrinə əsasən yaradılan büdcə təşkilatlarının strukturunun, işçilərinin say həddinin, əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün;

4.6. bu Fərmanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulan qurumların nizamnamələrinin təsdiq edilməsini təmin etsin;

4.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi:

5.1. tabeliyində olan "Azərbaycan Metrologiya İnstitutu", "Azərbaycan Standartlaşdırma İnstitutu" və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxslərin birləşmə yolu ilə yenidən təşkilini təmin etsin;

5.2. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin balansında olan əmlakın onların əsasında yaradılan yeni publik hüquqi şəxsin balansına verilməsi və həmin qurumun maddi-texniki təminatı ilə bağlı tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi:

6.1. bu Fərmanın 1-ci və 2-ci hissələrinə uyğun olaraq tabeliklərində yaradılmış büdcə təşkilatlarının əsasnamələrinin (nizamnamələrinin) iki ay müddətində təsdiq edilməsini təmin etsinlər;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

7.1. bu Fərmanla yaradılan yeni qurumların fəaliyyətinin maliyyələşdirilməsini cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində təmin etsin;

7.2. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmanla yaradılan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

Milli Məclisin iclasında

# Azərbaycan Avrasiya məkanının təhlükəsizlik arxitekturasında mühüm aktor kimi qəbul edilir

**Fevralın 20-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə 21 fevral Beynəlxalq Ana Dili Günü ilə bağlı fikirlərini bildirib. Spiker qeyd edib ki, Azərbaycan dili dünyanın ən zəngin və gözəl dillərindən biridir. Bizim dilimiz əsrlər boyu xalqımızın milli mənlik şüurunun formalaşmasında və mədəni irsinin qorunmasında mühüm rol oynayıb.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ana dilimizin qorunmasına və inkişafına böyük diqqət yetirdiyini deyən Milli Məclisin Sədri qeyd edib ki, Ulu Öndərin bu sahədə başladığı strateji xətt ardıcıl davam etdirilir. Spiker bildirib ki, ötən ilin noyabr ayında dövlət başçısı Azərbaycan Milli Elmlər Akademiyasında çıxışında Azərbaycan dilinin təmizliyinin qorunmasının və düzgün istifadə edilməsinin vacibliyini qeyd edib. O deyib: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır".

Spiker Sahibə Qafarova bildirib ki, dövlət başçısı tərəfindən bu istiqamətdə həyata keçirilən işlərə Milli Məclis də parlament səviyyəsində dəstək göstərməyə çalışır. O xatırladıb ki, ötən il dekabrın 8-də Milli Məclisdə Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyasına həsr edilən konfrans keçirilib. Spiker Sahibə Qafarova çıxışının sonunda vurğulayıb ki, qanunvericilik orqanı Azərbaycan dilinin inkişafı sahəsində irəli sürülən təşəbbüsləri bundan sonra da dəstəkləyəcəkdir.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Parlamentin komitə sədrləri Şahin İsmayılov, Fazil Mustafa, Zahid Oruc, deputatlar Müşfiq Cəfərov, Əli Məsimli, Aydın Mirzəzadə, Sahib Alıyev, Vüqar Bayramov, Azər Badamov, Ceyhun Məmmədov gündəmdə olan məsələlər barədə fikirlərini açıqlayıblar. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq səviyyəli tədbirlərdə fəal iştirakı ölkəmizin qlobal siyasətdə artan nüfuzunun bariz nümunəsidir. Dövlət başçımızın Münxen Təhlükəsizlik Konfransında, Vaşinqtonda Sülh Şurasının ilk iclasında iştirakı, keçirdiyi görüşlər xüsusi əhəmiyyət daşıyır və Azərbaycanın strateji tərəfdaş kimi statusunun möhkəmləndirildiyinin, habelə ölkəmizin Avrasiya məkanının təhlükəsizlik arxitekturasında mühüm aktor kimi qəbul edildiyinin göstəricisidir. Qeyd olunub ki, Sülh Şurasında təmsil olunmaqla Azərbaycan qlobal sülhün formalaşmasına və regional təhlükəsizliyə yüksək səviyyədə töhfə verən dövlət kimi çıxış edir. Prezidentin çıxışları zamanı Azərbaycanın enerji və nəqliyyat təhlükəsizliyi, Orta dəhliz layihəsi və regional sabitliyin təmin edilməsində oynadığı rol ön plana çəkilib.

Diqqətə çatdırılıb ki, postmünaqişə dövründə regionda daimi sülhün təmin olunması, kommunikasiya xətlərinin açılması və əməkdaşlıq mühitinin yaradılması istiqamətində Azərbaycanın təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən maraqla izlənilir. Habelə ABŞ-la müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin ölkəmizə yeni texnologiya və investisiyaların cəlb edilməsi baxımından vacibliyindən bəhs edilib. Prezident İlham Əliyevin Azərbaycanın region və dünya ölkələri ilə konstruktiv əməkdaşlıq münasibətlərinin qurulmasında rolu yüksək qiymətləndirilib.

Çıxışlarda, habelə antimilli ünsürlərin dövlətimizə, dövlət başçımıza qarşı təxribat cəhdləri pislənilib və bunun qarşısının alınması istiqamətində lazımi addımların atıldığı bildirilib. Azərbaycan Prezidentinin xarici səfərləri zamanı millətimizi, dövlətimizi təmsil etdiyi və ona qarşı atılan hər bir təxribatçı addımın təmsil etdiyi xalqa, dövlətə qarşı yönəldiyi, xalqımızın milli birliyinin sarsılmaz olduğu vurğulanıb.

Deputatlar, bununla yanaşı, ana dilimizin dövlət səviyyəsində qorunması, idarəçilik mexanizmlərinin səmərəliliyinin artırılması, həmçinin milli parkların yaradılması istiqamətində görülən işlərin əhəmiyyəti, tikinti sektorunda fəaliyyət göstərən sahibkarların dəstəklənməsi və digər aktual məsələlərdən söhbət açıblar.

Sonra iclasda gündəlikdəki məsələlər müzakirəyə çıxarılıb.

Parlamentin Sədri Sahibə Qafarova ilk məsələnin "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi olduğunu bildirib. O, layihənin beynəlxalq sənədlə bağlı olduğunu və "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov layihə barədə məlumat verib. O, layihənin Prezident tərəfindən Milli Məclisə təqdim edildiyini nəzərə çatdırıb. "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın 25 mart 2015-ci il tarixində Santiaqo-de-Kompostela şəhərində imzalandığını söyləyib. Nizami Səfərov Azərbaycanın bu Konvensiyaya xüsusi bəyanatla qoşulduğunu qeyd edib. Bəyanatda deyilir ki, Konvensiyanın müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər normallaşana qədər Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcək. Bildirilib ki, 33 maddədən ibarət olan Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, bu sahədə müəyyən əməllərin kriminallaşdırılmasının təmin edilməsi, habelə qurbanların hüquqlarının müdafiəsi və tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Konvensiyada insan orqanlarının qanunsuz götürülməsi və bu cür orqanlardan istifadənin qarşısının alınması, habelə qanunsuz götürülmüş orqanların saxlanması, daşınması, ötürülməsi, idxalı və ixracı kimi əməllərlə bağlı cinayət məsuliyyətinin müəyyən edilməsi nəzərdə tutulur. Konvensiyada cinayətlərin istintaqı və təqibi, qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələləri, habelə beynəlxalq əməkdaşlığın təmin edilməsi ilə bağlı müddəalar təsbit edilir. Sənəddə həmçinin zərərçəkmiş şəxslərin hüquqlarının qorunması, onların fiziki, psixoloji və sosial bərpasına yardım göstərilməsi ilə bağlı müddəalar əks olunur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələnin siyasi əhəmiyyətindən danışıb, Azərbaycanın öz öhdəliklərinə sadiq olduğunu, milli maraqlarımıza uyğun olan konvensiyaları qəbul etdiyini bildirib. O, rəhbərlik etdiyi komitənin sənəd barədə müsbət rəy verdiyini diqqətə çatdırıb.

Müzakirələr zamanı komitə sədrləri Siyavuş Novruzov və Hicran Hüseynova məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova növbəti 5 məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu deyib. O, növbəti 2 məsələnin Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, əvvəlcə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihənin birinci oxunuşda müzakirəsi zamanı deputatların səsləndirdiyi məsələlərə münasibət bildirən komitə sədri uşaqların hüquqlarının qorunması üçün müvafiq hüquqi bazanın mövcudluğunun vacibliyindən və icra mexanizmlərindən danışıb, qanun layihəsi ilə bağlı əlavə rəy və təklifin daxil olmadığını deyib.

Qanun layihəsində Azərbaycan Respublikasında uşaqlar barəsində dövlət siyasətinin əsas prinsipləri, onların hüquq və azadlıqları, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatları və dövlət nəzarətinin əsasları müəyyən edilir.

Sonra Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) təqdim edilib. Layihədə "Uşaq hüquqları haqqında" qanun layihəsindən irəli gələrək uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, uşaq hüquqlarının təminatının hüquqi əsaslarının formalaşdırılması məqsədilə bir sıra qanunvericilik aktlarında uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc hər iki qanun layihəsi ilə bağlı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov isə qanunlara edilən dəyişikliklər barədə bu komitələrin rəylərini açıqlayıblar.

Müzakirələr zamanı deputatlar Vüqar Bayramov, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Vüqar İskəndərov, Mehriban Vəliyeva, Tənzilə Rüstəmxanlı, Pərvanə Vəliyeva, Məlahət İbrahimqızı öz fikirlərini, qeyd və təkliflərini açıqlayıblar. Komitə sədri Hicran Hüseynova qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra, qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

"Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu məlumat verib. Qeyd olunub ki, sənədin birinci oxunuşunda dəyişikliklər haqqında ətraflı məlumat verilib və mətn olduğu kimi qalır. Təklif olunan dəyişikliklər kino istehsalı sahəsində hüquqi tənzimləmənin müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, anlayışların dəqiqləşdirilməsinə və dövlət dəstəyinin institusional mexanizmlərinin genişləndirilməsinə və investisiya cəlbediciliyinin artırılmasına xidmət edir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. O bildirib ki, yol hərəkəti qaydalarının təkmilləşdirilməsi məqsədilə hazırlanan qanun layihəsinin birinci oxunuşunda dəyişikliklər barədə ətraflı məlumat verilib və mətn olduğu kimi qalır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov layihə ilə bağlı təmsil etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Daha bir məsələ müzakirəyə çıxarılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Bildirilib ki, layihə strateji əhəmiyyətə malik investisiyaların dövlət mənafeyi və milli maraqlar naminə alınmasının hüquqi əsaslarının müəyyən edilməsini nəzərdə tutur. Komitə sədri layihənin birinci oxunuşunda dəyişikliklərlə bağlı ətraflı məlumat verildiyini deyərək, sənədin müzakirəsində səslənən fikirlərə münasibət bildirib, bəzi məsələlərə aydınlıq gətirib. Qeyd edib ki, təklif edilən dəyişikliklər dövlətin iqtisadi təhlükəsizliyinin gücləndirilməsinə, milli maraqların qorunmasına və bu sahədə hüquqi mexanizmlərin təkmilləşdirilməsinə xidmət edir.

Azər Əmiraslanov layihənin konstitusiyaya uyğunluğu məsələsinə də toxunub. Vurğulanıb ki, təqdim olunan layihə Əsas Qanunumuzla heç bir ziddiyyət təşkil etmir, əksinə, kifayət qədər konstitusion əsaslara söykənir. Komitə sədri bildirib ki, "dövlət ehtiyacları" anlayışı geniş məzmun daşıyır, yalnız infrastruktur və ya təsərrüfat məqsədləri ilə məhdudlaşmır. Beynəlxalq investisiya hüququnun prinsiplərinə uyğun olaraq bu anlayışa dövlət mənafeyinin, milli və ictimai təhlükəsizliyin, sosial-iqtisadi sabitliyin və strateji sektorların qorunması ilə bağlı geniş önləyici tədbirlər də daxildir. Bu baxımdan, dövlət mənafeyi naminə həyata keçirilən ekspropriasiya həm də dövlət ehtiyacları üçün mülkiyyətin alınması kateqoriyasına aiddir və konstitusion əsaslara söykənir.

Qeyd olunub ki, beynəlxalq hüquq da strateji investisiyaların dövlət üçün doğurduğu təhdidləri tanımaqla yanaşı, onların qarşısının alınması üçün hüquqi mexanizmlər təklif edir. Eyni zamanda qeyd edilib ki, Əsas Qanunumuzun 59-cu maddəsinin 2-ci hissəsi dövlətə sahibkarlıq və investisiya fəaliyyəti sahəsində dövlət maraqlarının müdafiəsi məqsədilə tənzimləmə aparmaq səlahiyyəti verir. Həmçinin konstitusiyada mülkiyyət hüququnun qorunması ilə yanaşı, mülkiyyətdən cəmiyyətin və dövlətin mənafeləri əleyhinə istifadə olunmasının yolverilməzliyi də təsbit edilib.

Komitə sədri təklif edilən dəyişikliklərin investisiya mühitinə mümkün təsirləri ilə bağlı səsləndirilən narahatlıqlara münasibət bildirib. Qeyd olunub ki, analoji müddəalar hələ 1992-ci ildə qəbul edilmiş və 30 il ərzində qüvvədə olmuş qanunvericilikdə də yer alıb və bu, ölkəyə xarici sərmayə axınına mane olmayıb. Əksinə, ötən dövrdə ölkəyə iri həcmdə xarici investisiyalar cəlb edilib.

Diqqətə çatdırılıb ki, qanunvericilik çərçivəsində və ədalətli kompensasiya şərti ilə həyata keçirilən ekspropriasiya beynəlxalq praktikada investor hüquqlarının pozulması kimi qiymətləndirilmir. Vurğulanıb ki, Azərbaycan Konstitusiyası və qanunvericilik sistemi həm mülkiyyət hüququnu qoruyur, həm də investor hüquqlarına təminat verir.

Sonda vurğulanıb ki, təklif edilən dəyişikliklər konstitusion əsaslara malik olmaqla, beynəlxalq hüquq normalarına və dünya təcrübəsinə uyğundur, milli maraqların qorunmasına və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Müzakirələrdə Milli Məclis Sədrinin müavini Musa Qasımlının, komitə sədri Tahir Rzayevin fikirləri dinlənildikdən sonra, qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov məlumat verib. Diqqətə çatdırılıb ki, layihə müvafiq qanunla elektron siqaretlərin və ya onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və ya pərakəndə satışı və ya istifadəsinin qadağan edilməsindən irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb. Sənəddə İnzibati Xətalar Məcəlləsində elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılmasına görə inzibati məsuliyyətin müəyyən edilməsi təklif olunur.

Kamran Bayramov qanunla qadağan edilmiş müvafiq əməllərə görə nəzərdə tutulan inzibati məsuliyyət növlərini diqqətə çatdırıb. Deputat qanun layihəsinin ictimai maraqlara cavab verdiyini, xüsusilə də gənclərimizin sağlamlığının qorunmasına xidmət etdiyini vurğulayıb, həmkarlarından onu dəstəkləmələrini xahiş edib.

Layihə barədə deputat Vasif Qafarovun fikirləri dinlənildikdən sonra sənəd birinci oxunuşda qəbul olunub.

Sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Komitə sədri bildirib ki, təqdim edilən qanun layihəsinin əsas məqsədi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadın hərbi qulluqçuların xidmətə uyğunlaşma prosesinin daha səmərəli təşkili və bu sahədə mövcud praktiki çətinliklərin aradan qaldırılmasıdır. Diqqətə çatdırılıb ki, qüvvədə olan "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.2-ci maddəsinə əsasən, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün ilkin bağlaşma müddəti müddətli həqiqi hərbi xidmətdən, ehtiyatdan daxil olanlar və qadınlar üçün 3 il müəyyən edilib. Həmin müddəa "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 12-ci maddəsinin "b" bəndində də nəzərdə tutulub.

Praktikada kişi vətəndaşlar müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmazdan əvvəl müddətli həqiqi hərbi xidmət keçdiklərinə görə hərbi xidmətə uyğunlaşma mərhələsini artıq başa vurmuş olurlar. Qadınlar isə müddətli həqiqi hərbi xidmət keçmədən birbaşa müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edildiklərinə görə ilkin mərhələdə hərbi xidmət şəraitinə uyğunlaşmada çətinliklərlə üzləşirlər. Qadınlarla dərhal 3 illik ilkin bağlaşmanın bağlanması onların uyğunlaşma dövrünü keçmədən uzunmüddətli öhdəlik götürməsinə səbəb olur ki, bu da sonradan əsasən ailə vəziyyəti və digər obyektiv səbəblərlə hərbi xidmətdən vaxtından əvvəl ehtiyata buraxılmaları ilə nəticələnir və kadr sabitliyinə mənfi təsir göstərir.

Qeyd olunanları nəzərə alaraq, qanun layihəsində qadınlarla bağlanan ilkin bağlaşma müddətinin 3 ildən 6 ayadək azaldılması təklif olunub. Arzu Nağıyev vurğulayıb ki, dəyişiklik qadın hərbi qulluqçuların hərbi xidmətə uyğunlaşma imkanlarının artırılmasına, hərbi xidmətin təşkilinin səmərəliliyinin yüksəldilməsinə xidmət edəcək.

Layihənin müzakirəsində Milli Məclisin Sədr müavini Ziyafət Əsgərov, komitə sədrləri Siyavuş Novruzov və Hicran Hüseynova, deputatlar Vüqar Bayramov, Kamal Cəfərov və Səyyad Aran bəzi qeydlərini səsləndiriblər. Sonra qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Heç bir təxribat Azərbaycanı öz yolundan döndərə bilməz



**Azərbaycan müstəqil, təhlükəsiz, daim inkişaf edən, region və dünya üçün sülh və rifah təşəbbüsləri ilə çıxış edən bir dövlətə çevrilib. Məlumdur ki, bir çox qüvvə dövlətimizin güclü, müstəqil, suveren olmasını istəmir. Bunun üçün onlar Azərbaycana qarşı qarayaxma kampaniyaları aparırlar, özü də bir qrup manqurtun vasitəsilə. Bununla yanaşı, ölkəni daxildən parçalamaq, onu zəiflətmək üçün planlar qururlar.**

Əfsuslar olsun ki, onlar daxildə xəyanətkar insanlar da tapırlar. Belələrinin vasitəsilə, öz çirkin əməllərini reallaşdırmağa cəhd edirlər. Heç bir nəticə əldə etməyəndə, təsir dairələri getdikcə azalanda isə daha qatı şəkildə və bizim heç bir dəyərimizə, eyni zamanda nə milli, nə də beynəlxalq qanunvericiliyə uyğun olmayan ailə və şəxsi həyata təsir edən metodlardan istifadə edirlər. Bu bir qrup manqurt dəstəsi üçün nə şəxsi toxunulmazlıq, nə ailə dəyərləri, nə də dövlətçilik anlayışı yoxdur. Amma həmin dairələr anlamırlar ki, xalq öz Prezidentinə inanır, onun ətrafında sıx birləşib. İnsanlar yaxşı dərk edirlər ki, 20 Yanvar günündə, Anım Günündə etiraz aksiyası keçirmək istəyən bir dəstə dövlətinə, xalqına, onun azadlıq və bütövlük ideyalarına, şəhidinə hörmət qoymayıb. Onların əsas məqsədi hakimiyyəti gözdən salmaqdır. Lakin anlamırlar ki xalqımız Prezident İlham Əliyevin ətrafında birləşib, onun siyasi iradəsinə və müdrik idarəetmə bacarığına bələddir.

Bu gün Azərbaycan dünyanın ən güclü dövlətləri ilə bir sırada dayanır. Dünyada sülh və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir. Buna sevinmək, fəxr etmək əvəzinə, bir qrup xəyanətkar ölkə rəhbərinə qarşı təxribat törətməyə cəhd edir. Bu günlərdə Vaşinqtonda öz Vətənini yad maraqlar naminə satan və özlərini "müxalifət" adı altında gizlədən bir qrup manqurt, Azərbaycan Prezidenti İlham Əliyevin qaldığı hotelə doğru irəliləməyə cəhd göstərib. Onlar bu çirkin hərəkətlərini Azərbaycanın rəhbərliyinə qarşı nalayiq şüarlar və təhqirlərlə göstəriblər. Amma tez bir zamanda dövlət başçısının mühafizə xidmətinin operativ müdaxiləsi ilə təxribatın qarşısı alınıb. ABŞ-də söz azadlığı demokratların, lobbi qruplarının, o cümlədən erməni lobbilərinin əlində bir alətə çevrilib. Onlar Azərbaycana və Prezidentin mühafizə xidmətinə qarşı qarayaxma kampaniyasına ilk qoşulanlar sırasında olublar. Təsadüfi deyil ki, bu aqressiv və mənəviyyatsız təxribatı ilk dəstəkləyənlərdən biri Amerikanın Erməni Milli Komitəsi (ANCA) və onun nümayəndələri olublar. Bu hadisədə ən absurd fikirlər səsləndirən isə Frank Pallonedir. Bakıda susan bu şəxs indi "muzdlu quldurların etirazçılara hücum etdiyini" iddia edir və ABŞ hakimiyyətini Azərbaycan nümayəndə heyətinə qarşı tədbir görməyə çağırır.

Açıq-aydın görürük ki, təxribatçılar, dövlətimizə qarşı fəaliyyət göstərən dairələr və erməni lobbi strukturları koordinasiyalı şəkildə fəaliyyət göstərirlər. Onların məqsədi qalmaqal yaratmaq, sabitliyi pozmaq və Azərbaycanı gözdən salmaqdır. Münxendə heç bir nəticə əldə etməyən bəzi dairələr, bu dəfə Amerikada təxribata əl atdılar. Lakin yenə də heç nəyə nail ola bilmədilər.

Baş vermiş hadisə bir daha onların əsl satqın simasını üzə çıxardı. Öz dövlətinə, xalqına qarşı xəyanət edənlər layiqli cəzalarını alacaqlar. Hansı mövqedə olmağından asılı olmayaraq, cinayətkarlar mütləq öz cəzasına çatacaqlar.

*Hicran HÜSEYNOVA,*
*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor*

# Parlamentin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmiz əleyhinə aparılan hibrid hücumlara dair açıqlama yayıb

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası son dövrlərdə rəqəmsal platformalarda və müxtəlif media kanallarında ölkəmiz əleyhinə aparılan dezinformasiya kampaniyasının kökündə duran bir sıra məqamları öz səlahiyyətləri çərçivəsində araşdırıb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizə qarşı aparılan bu qeyri-dost hərəkətlərin təhlili və qiymətləndirilməsi nəticəsində aşağıdakı hallar müəyyən edilib:

- Həmin fəaliyyətlər vahid mərkəzdən idarə olunur;
- Bir ildən çox davam edən hibrid hücumlar çoxsəviyyəli təzyiq strategiyasının bir hissəsidir;
- Bu anti-Azərbaycan strategiya ictimai rəyi çaşdırmağa, cəmiyyətdə qütbləşmə yaratmağa, dövlətə və onun institutlarına inamı sarsıtmağa hesablanmış informasiya manipulyasiyalarından ibarətdir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam bərpası, suverenlik iradəsinin güclənməsi, eyni zamanda ölkəmizin qlobal enerji təhlükəsizliyinə verdiyi töhfə, nəqliyyat dəhlizlərinin yaradılması və regional inkişaf məsələlərində müstəqil qərarların qəbul edilməsi, beynəlxalq tərəfdaşlıqların daha da gücləndirilməsi onun hədəflənmiş kampaniyaya, əsassız ittihamlar ehtiva edən məqsədyönlü dezinformasiyaya məruz qalmasına səbəb olub.

Azərbaycan Respublikası hər cür hibrid təhdidə və informasiya məkanının pozulmasına qarşı öz hüquqlarını qorumaqda qətiyyətini dəyişməyəcək.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya davam edən dezinformasiya kampaniyası fonunda vətəndaşlarımızı yalnız Azərbaycanın dövlət qurumları və rəsmiləri tərəfindən verilən məlumatlara istinad etməyə və inanmağa çağırır.

# Xalqın rəğbətini qazanan missiya



**2017-ci il fevralın 21-də Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması ölkəmizin idarəçilik sisteminə yeni bir nəfəs gətirdi. Ötən 9 ildə baş verən mühüm tarixi hadisələrə, görülən genişmiqyaslı işlərə, həyata keçirilən nəhəng layihələrə nəzər yetirsək, Mehriban xanım Əliyeva tərəfindən bu ali missiyada milli təəssübkeşliyin və humanist dəyərlərin möhtəşəm nümunələrini görmək mümkündür.**

Qısa zaman kəsiyində Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən sosial islahatlar təkcə idarəçilik mexanizmlərini təkmilləşdirməyib, həm də dövlətin vətəndaşa olan qayğısını hər bir ailənin ünvanına çatdırıb. Birinci vitse-prezident üçün dövlətçilik təkcə rəqəmlər və qərarlardan ibarət deyil, ilk növbədə vətəndaşın rifahı, sevinci və təbəssümüdür. Çünki Mehriban xanım Əliyevanın fəaliyyətinin mərkəzində hər zaman insan amili dayanır.

Birinci vitse-prezidentlik institutu dövlət idarəçilik sisteminin ən ali məqamlarından biridir. Həmin məsuliyyətli postda xalqı təmsil edən şəxsiyyətin fundamental biliklərə, müstəsna idarəçilik qabiliyyətinə və milli-mənəvi dəyərlərə sahib olması həlledici şərtdir. Bu ali missiyanın daşıyıcısı həm də cəmiyyətin mütləq etimadını və rəğbətini qazanmış bir sima olmalıdır. Bu prizmadan yanaşdıqda hələ Prezident İlham Əliyevin sərəncamı ilə bu vəzifəyə təyin olunmazdan öncə Mehriban xanım Əliyevanın çoxşaxəli və xeyirxah fəaliyyəti təsdiqləyirdi ki, qeyd olunan bütün ali insani və mənəvi keyfiyyətlər, eləcə də dövlətçilik təfəkkürü Mehriban xanımın şəxsiyyətində və xarakterində tam bir vəhdət təşkil edir.

Birinci vitse-prezident kimi çoxşaxəli fəaliyyəti sübut edir ki, Mehriban xanım Əliyeva intellektual və mənəvi potensialını daha geniş müstəvidə səfərbər edərək, dövlətə və xalqa xidmətin bənzərsiz bir modelini yaradıb. O, özünəməxsus yüksək işgüzarlıq, dərin təşkilatçılıq istedadı və müdrik idarəçilik qabiliyyəti ilə bu ali postun məsuliyyətini şərəflə daşımaqdadır. Mehriban xanımın rəhbərliyi altında həyata keçirilən hər bir layihə, atılan hər bir addım dövlətimizin qüdrətlənməsinə, xalqımızın rifahına və milli həmrəyliyimizin daha da möhkəmlənməsinə xidmət edən əzmkar bir fəaliyyətin təzahürüdür.

Mehriban xanım Əliyevanın Azərbaycan naminə xidmətləri ötən əsrin 90-cı illərinin mürəkkəb və sınaqlarla dolu dönəmlərindən başlayıb. Dövlət müstəqilliyimizin ilk kövrək addımları atıldığı zamanda Mehriban xanımın rəhbərliyi ilə təsis edilən Azərbaycan Mədəniyyət Fondu milli mənəviyyatımızın dünyada eşidilən ilk güclü səsinə çevrildi. O, Azərbaycanın qədim irsini unutdurmağa çalışanlara meydan vermədi, mədəniyyətimizi qlobal arenada öz layiq olduğu yerə ucaltdı. Bu missiya illər keçdikcə daha geniş miqyas alaraq, milli dəyərlərimizin beynəlxalq miqyasda qorunması və təbliği yolunda misilsiz bir strateji hərəkata çevrildi.

2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu bu gün Mehriban xanım Əliyevanın rəhbərliyi altında ən möhtəşəm mənəviyyat mərkəzi və insanların güvən yeridir. Fondun prezidenti kimi Mehriban xanımın imza atdığı hər bir layihə həm Azərbaycan, həm də dünya mədəniyyəti üçün silinməz izlər qoymaqdadır. Mehriban xanım Əliyevanın strateji uzaqgörənliyi ilə ərsəyə gələn bu işlər Azərbaycanın milli-mənəvi simasını beynəlxalq arenada ən ali səviyyədə təcəssüm etdirir. O, mərhəmət sahibi kimi xalqın qəlbində özünəməxsus taxt qurub.

2005-ci, 2010-cu və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilən Mehriban xanım Əliyeva bu fəaliyyəti ilə ölkəmizdə parlamentarizm mədəniyyətinin ən parlaq nümunələrindən birini yaratdı. Mehriban xanım təmsil etdiyi seçicilərin təkcə səsini ucaltmadı, həm də onların gündəlik qayğılarını, sosial ehtiyaclarını öz fəaliyyətinin mərkəzinə qoyaraq insanların dərin rəğbət və etimadını qazandı. Mehriban xanımın qanunvericilik təşəbbüsləri Azərbaycan hüquq sisteminin təkmilləşməsinə müstəsna töhfələr verdi. Birinci xanımın parlament fəaliyyətinin ən yaddaqalan və mənəvi baxımdan ən uca məqamı ədalət, mərhəmət və insanpərvərlik ideallarından güc alan silsilə təşəbbüsləri idi. Mehriban xanımın irəli sürdüyü amnistiya aktları dövlətin vətəndaşına olan şəfqətinin bariz təzahürü idi. Parlamentdə yekdilliklə dəstəklənən bu nəcib təşəbbüslər on minlərlə insanın taleyində yeni səhifə açdı. Bu amnistiya aktları, sadəcə, hüquqi sənədlər yox, dövlət-xalq birliyini sarsılmaz edən humanizm manifestləri idi.

Birinci vitse-prezident kimi fəaliyyətə başladığı ilk gündən Mehriban xanım Əliyeva öz diqqətini dövlət siyasətinin ən həssas və mühüm sahəsinə - sosial sektora yönəldib. Ötən 9 il ərzində onun sonsuz enerjisi və təşəbbüskarlığı ilə gerçəkləşən layihələr Azərbaycan cəmiyyətində dərin məmnunluq və minnətdarlıq hissi doğurub. Vətən müharibəsi qəhrəmanlarının, şəhid ailələrinin və qazilərin sosial qayğılarının operativ həlli, eləcə də vaxtilə doğma yurdundan didərgin düşmüş soydaşlarımızın müasir mənzil şəraiti ilə təmin olunması onun fəaliyyətinin ana xəttini təşkil edir. Şəhid ailələrinin göz yaşını silən, qazilərimizin yaralarına məlhəm olan, kimsəsiz uşaqlara ailə şəfqəti bəxş edən layihələr məhz Mehriban xanımın fəaliyyətinin ən kövrək və ən güclü təməlidir. Mehriban xanım hər bir azərbaycanlının çətin anında arxalanacağı güvən yeridir.

Mehriban xanımın rəhbərliyi ilə Azərbaycanın evsahibliyi etdiyi qlobal tədbirlərin yüksək səviyyədə təşkili ölkəmizin beynəlxalq nüfuzunu sarsılmaz etdi. Eyni zamanda təhsil və mədəniyyət ocaqlarının, orta məktəblərin, uşaq bağçalarının və tarixi abidələrin əsaslı təmiri gələcəyimizə olan ən böyük sərmayədir. Xüsusilə çətin sınaq dövrlərində, o cümlədən qlobal pandemiya zamanı əhalinin aztəminatlı təbəqəsinə göstərilən davamlı və səmimi dəstək dövlətin hər bir vətəndaşın yanında olduğunun ən bariz sübutu idi. Heydər Əliyev Fondunun xətti ilə inşa edilən müasir Autizm Mərkəzi və bu qəbildən olan çoxsaylı inklüziv layihələr isə Mehriban xanım Əliyevanın fəaliyyətinin fəlsəfəsini - "heç kim diqqətdən kənarda qalmamalıdır" prinsipini bir daha təsdiq edir.

Mehriban xanım Əliyeva öz zəngin fəaliyyəti sayəsində Azərbaycanı dünyada təkcə bir dövlət kimi deyil, zəngin bir mədəniyyət beşiyi kimi tanıtdı. UNESCO və ICESCO səviyyəsində həyata keçirilən layihələr nəticəsində Azərbaycanın muğamı, xalçası və tarixi abidələri bəşəriyyətin ortaq mirasına çevrildi. O, Azərbaycan qadınının intellektual, müasir, eyni zamanda milli dəyərlərinə bağlı obrazını bütün dünyaya sevdirdi. Bu gün Şuşada ucalan azan səsləri, Vaqif Poeziya Günlərinin dirçəlişi, "Xarıbülbül" festivalının möhtəşəmliyi Mehriban xanımın milli kimliyimizə olan sadiqliyinin bariz nümunələridir. Birinci vitse-prezident dağıdılmış məscidlərimizi, viran qalmış abidələrimizi yenidən qurmaqla Azərbaycanın mədəniyyət xəritəsini bərpa etdi.

44 günlük Vətən müharibəsi günlərində Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın timsalında dövləti və xalqı sevməyin, vətənpərvərliyin nümunəsini gördü. Müharibə günlərində Mehriban xanım yaralı hərbçilərimizin müalicəsini şəxsi nəzarətinə götürdü, Heydər Əliyev Fondunun xətti ilə onların bir qismi Türkiyəyə müalicəyə göndərildi. Eyni zamanda məhz Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun xətti ilə Qarabağın və Şərqi Zəngəzurun tarixi abidələrinin bərpası layihələri həyata keçirilməyə başlandı. Xüsusən Şuşada aparılan bərpa işlərində Heydər Əliyev Fondunun gördüyü işlər misilsizdir və bütün bunlar ilk növbədə Mehriban Əliyevanın vətənpərvərliyinin göstəricisidir.

Vətən müharibəsindən sonra azad edilmiş torpaqlarımıza ayaq basdığı ilk gündən Mehriban xanım Əliyeva həmin ərazilərin həm fiziki, həm də mənəvi bərpasının əsas ilhamvericisi oldu. Azərbaycan Prezidenti İlham Əliyevlə işğaldan azad edilmiş ərazilərə ilk səfərləri zamanı Mehriban xanımın avtomobildən çəkdiyi və dünyaya səs salan videokadrları 30 illik həsrətin sonu və ən əsası erməni vəhşiliyinin vizual görüntüsü idi. Rəsmi xəbər bülletenlərindən fərqli olaraq, Mehriban xanımın telefonla çəkdiyi videolar hadisələrə daha səmimi və real bir baxış bucağı qazandırdı. Heç bir montaj və bəzək olmadan dağıdılmış evləri, viran qoyulmuş məscidləri və talan edilmiş meşələri dünyaya göstərdi. Mehriban xanımın videolarda səsləndirdiyi fikirlər xalqın duyğularına xitab edirdi. Xüsusilə Şuşaya ilk gediş zamanı çəkilən görüntülərdəki sevinc və qürur hissi hər bir azərbaycanlının qəlbinə toxunurdu.

İctimai-sosial həyatımızın elə bir sahəsi yoxdur ki, Mehriban xanımın nəzərindən kənarda qalsın. Xalqın sosial-mədəni həyatında, səhiyyənin, təhsilin, idmanın inkişafında Birinci vitse-prezidentin xidmətləri misilsizdir. Mehriban Əliyeva bu illərdə çox titullara, təltiflərə, mükafatlara layiq görülüb. Birinci xanımın beynəlxalq aləmdəki nüfuzu, aldığı mükafatlar təbii ki, ölkəmizin, xalqımızın adına başucalığı gətirir.

2017-ci ildə Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunması ölkə vətəndaşlarının böyük razılıqla qarşıladıqları bir siyasi hadisə oldu. Bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni bir tarixi reallığın başlanğıcını qoydu. Bu reallığın xarakterini və Azərbaycanın gələcəyi üçün yaratdığı möhtəşəm perspektivləri isə təbii ki, Birinci vitse-prezident Mehriban Əliyevanın mənəvi keyfiyyətləri, xalqa və dövlətə olan sevgisi, indiyə qədər daşıdığı bütün vəzifələrdə cəmiyyətimizə və ümumən bəşəriyyətə qazandırdığı nailiyyətlər təyin edir. Bütün bunların nəticəsi olaraq 9 ildir ki, Mehriban Əliyeva həm də Azərbaycanın Birinci vitse-prezidenti kimi öz potensialını daha geniş şəkildə səfərbər edərək, dövlətimizə xidmət etməyin yeni bir örnəyini ortaya qoyur. Özünəxas yüksək işgüzar və mənəvi keyfiyyətlər, dərin təşkilatçılıq və idarəçilik qabiliyyəti ilə Mehriban xanım Əliyeva bu müddətdə ona etimad göstərilən bu ali postu layiqincə daşıyıb, həvalə olunan vəzifələri əzmlə yerinə yetirib və yetirməkdədir.

Şübhəsiz, bu tarixi dönəmin ən böyük hesabatı rəqəmlərdə deyil, xalqın qəlbində qazanılan sarsılmaz etimad, şəhid analarının təsəllisi və Vətən torpaqlarının dirçəlişindən doğan sonsuz qürur hissidir. Xeyirxahlıqdan quruculuğa, mərhəmətdən dövlət idarəçiliyinə qədər uzanan misilsiz yol Mehriban xanım Əliyevanın Azərbaycan xalqı qarşısındakı 9 illik Birinci vitse-prezidentlik hesabatının qızıl hərflərlə yazılmış səhifələridir. Bu gün Azərbaycanın Birinci vitse-prezidenti həm ölkə daxilindəki nəhəng bərpa işlərinin iştirakçısı, həm də beynəlxalq aləmdə dövlətimizin zərif, lakin qüdrətli səsidir. Onun fəaliyyəti xalqa xidmətin ən ali və ən səmimi nümunəsidir.

*Asif ƏSGƏROV,*
*Milli Məclisin deputatı*

# Prezidentlə çiyin-çiyinə

**Bəşəri dəyərlərin, humanist idealların və nəcib amalların daşıyıcıları öz şərəfli ömür yolları ilə mənsub olduqları xalqa daim başucalığı gətirir, cəmiyyətin sonsuz rəğbətini qazanırlar. Zəngin fəaliyyəti, bənzərsiz siyasi-ictimai missiyası və yüksək insani keyfiyyətləri ilə nəinki ölkəmizdə, beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Birinci vitse-prezident Mehriban xanım Əliyeva da məhz bu cür şəxsiyyətlərdəndir.**

Azərbaycan qadınının ən ali xüsusiyyətlərini öz simasında birləşdirən, humanizm missiyasını ləyaqətlə icra edən Mehriban xanımın dövlətin ictimai-siyasi və mədəni intibahındakı xidmətləri əvəzsizdir. Onun çoxşaxəli fəaliyyəti cəmiyyət həyatının bütün sferalarını dərindən əhatə edir. Mehriban xanımın fəaliyyətinin strateji ana xəttini dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasi kursun tam dəstəklənməsi, milli hədəflərin reallaşdırılması və Azərbaycanın hər bir sahədə qazandığı nailiyyətlərin möhkəmləndirilməsi təşkil edir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin ən məsuliyyətli və strateji mərhələlərindən birini 2017-ci il fevralın 21-dən etibarən icra etməyə başladığı Birinci vitse-prezidentlik missiyası təşkil edir. Bu ali dövlət vəzifəsi ölkənin idarəetmə sistemində yeni bir inkişaf dinamikasının əsasını qoydu. Azərbaycanın dövlət idarəçiliyində müasir və peşəkar bir idarəetmə modelinin formalaşmasını şərtləndirdi. Məhz bu yüksək təyinatdan sonra həyata keçirilən layihələr cəmiyyətin həyatında həlledici rol oynamağa başladı.

Birinci vitse-prezidentin ictimai-siyasi fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi strateji xəttin ən güclü dəstəkçisidir. Müzəffər Ali Baş Komandanla çiyin-çiyinə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işləri, Şuşanın tarixi simasının dirçəldilməsi Mehriban xanımın milli quruculuq prosesindəki müstəsna xidmətidir. Mehriban xanım dövlət başçısının ən yaxın məsləkdaşı olaraq, Azərbaycanın müasirləşməsi, xalqımızın və milli birliyinin daha da möhkəmlənməsi yolunda tükənməz enerji ilə çalışmaqdadır.

Mehriban xanımın fəaliyyəti xalqımızın rifahına və ölkəmizin tərəqqisinə xidmət edir. Onun fəaliyyət fəlsəfəsinin mərkəzində mərhəmət və insan amili dayanır, nəcib təşəbbüsləri cəmiyyətin ən müxtəlif zümrələrində dərin ehtiramla qarşılanır. Şəhid ailələrinə və qazilərə göstərilən xüsusi diqqət, yaralı hərbçilərimizin yüksəktexnologiyalı reabilitasiya vasitələri ilə təmini Birinci vitse-prezidentin vətənpərvərlik ruhunun bariz təzahürüdür. Heydər Əliyev Fondunun xətti ilə aztəminatlı ailələrin və həssas qrupların problemlərinin həlli bu insanların sosial müdafiəsinin etibarlı təminatına çevrilib. 44 günlük müharibədən sonra şəhid ailələrinin sosial-məişət qayğıları, uşaqlarının təhsili və reabilitasiya prosesləri birbaşa Heydər Əliyev Fondunun və dövlət proqramlarının koordinasiyası ilə idarə olunur.

Mehriban xanımın Birinci vitse-prezident kimi ilk rəsmi müşavirəsini məhz keçmiş qaçqın və məcburi köçkünlərin problemlərinə həsr etməsi bu sahəyə verdiyi önəmin bariz göstəricisi idi. Mehriban xanım üçün həssas təbəqələrə diqqət və qayğı, sadəcə, dövlət vəzifəsi deyil, mənəvi bir missiya, səmimiyyət və sevgidən irəli gələn davranışdır.

30 illik işğala son qoyan tarixi zəfərimizdən sonra Mehriban xanım Əliyevanın fəaliyyətində yeni, əzəmətli bir dövr başlandı. Müzəffər Ali Baş Komandanla çiyin-çiyinə azad edilmiş ərazilərə edilən səfərlər, dağıdılmış şəhərlərin sürətli bərpası və Şuşanın mədəniyyət paytaxtı statusunun dirçəldilməsi onun fədakar əməyinin nəticəsidir. Bu gün Qarabağda aparılan genişmiqyaslı tikinti-quruculuq işləri təkcə fiziki bərpa deyil, həm də milli ruhun o torpaqlara qayıdışıdır. Qarabağın tarixi və dini abidələrinin, Şuşanın mədəni irsinin bərpası, Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən quruculuğun həm də mənəvi təcəssümüdür.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə səhiyyədə "ölüm hökmü" kimi görünən bir çox diaqnoz artıq Azərbaycan üçün keçmişdə qalıb. Regionda analoqu olmayan Talassemiya Mərkəzi yüzlərlə uşağın həyata tutunmasına vəsilə olub. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası və müalicəsi üçün yaradılan mərkəzlər birbaşa Birinci vitse-prezidentin himayəsindədir. COVID-19 ilə mübarizədə modul tipli xəstəxanaların qısa müddətdə qurulması və vaksinasiya prosesinin təşkilində də Mehriban xanımın idarəçilik qabiliyyəti həlledici rol oynadı.

Mehriban Əliyeva həm də Azərbaycanın zəngin mədəni irsini bəşəriyyətin ehtiram göstərdiyi dəyər səviyyəsinə yüksəldən mədəniyyət elçisidir. Parisdən Moskvaya, Vatikandan Berlinə qədər uzanan mədəniyyət günləri Azərbaycanın "yumşaq güc" strategiyasının möhtəşəm uğurudur. Milli musiqi irsimizin qorunması, beynəlxalq festivallar və Muğam Mərkəzinin fəaliyyəti tariximizin gələcək nəsillərə ötürülməsində misilsiz rol oynayır. "Mədəniyyət xalqları birləşdirən, ən çətin anlarda körpü salan yeganə qüvvədir" fəlsəfəsi Mehriban xanımın bütün beynəlxalq fəaliyyətinin qayəsini təşkil edir.

Azərbaycanın Birinci vitse-prezidentinin ictimai-siyasi və sosial-mədəni fəaliyyət arealı o qədər zəngin və miqyaslıdır ki, bu missiyanı bir neçə istiqamətlə məhdudlaşdırmaq qeyri-mümkündür. Beynəlxalq birlik və Azərbaycan cəmiyyəti Mehriban Əliyevanı həm də ali humanizm dəyərlərinin daşıyıcısı və xeyirxahlıq mücəssiməsi kimi qəbul edir. Çünki xalqa layiqli xidmət prinsipi Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsidir. Onun diqqət mərkəzində hər zaman cəmiyyətin ən ehtiyaclı təbəqələri, valideyn himayəsindən məhrum körpələr və ahıllar dayanır. Ölkənin hər bir guşəsində ucalan müasir təhsil və səhiyyə ocaqları, tarixi-dini abidələrin restavrasiyası onun milli genofondun qorunmasına yönəlmiş strateji vətəndaşlıq missiyasının əyani sübutudur.

Ötən illərin reallığı göstərir ki, Mehriban xanımın hər bir addımı Prezident İlham Əliyevin yürütdüyü siyasi kursun uğuruna və müstəqil Azərbaycanın parlaq gələcəyinə xidmət edir. O, Ümummilli Lider Heydər Əliyevin ideyalarını yaşadan və Azərbaycanın zəfər dolu salnaməsinə öz imzasını atan nəciblik simvoludur. Mehriban xanım Əliyeva həm bir dövlət xadimi, həm də bir xeyriyyəçi kimi müasir Azərbaycan qadınının ən parlaq örnəyidir. Onun fəaliyyəti vətənə sevgi və insana hörmətin mükəmməl vəhdətidir. Birinci vitse-prezidentin nümayiş etdirdiyi yüksək peşəkarlıq və qətiyyət ölkəmizin dinamik yüksəlişinə fundamental töhfələr verməklə yanaşı, bu təyinatın nə qədər uğurlu olmasını və Mehriban xanım Əliyevanın mükəmməl idarəçilik fəaliyyətinin əzəmətini də sübuta yetirir. Mehriban xanım Əliyevanın fəaliyyətinin ən ali qiyməti isə insanların ona olan səmimi inamı və dərin rəğbətidir.

*Nəsib MƏHƏMMƏLİYEV,*
*Milli Məclisin deputatı*

# Milli amallara söykənən fəaliyyət

**2016-cı il Konstitusiya islahatları nəticəsində təsis edilən Birinci vitse-prezidentlik institutu Azərbaycanın dövlət idarəçiliyində demokratik islahatların keyfiyyətcə yeni mərhələsi oldu. Bu islahat təkcə struktur dəyişikliyi deyil, həm də dövlət idarəçiliyinin səmərəliliyini və çevikliyini yüksəldən strateji nümunə idi. 2017-ci il fevralın 21-də Mehriban xanım Əliyevanın bu ali vəzifəyə təyin edilməsi Azərbaycanın müasir siyasi tarixinə mühüm və uğurlu bir səhifə kimi həkk olundu.**

Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edərkən ona böyük etimad göstərdiyini vurğulayaraq birinci xanımın çoxvektorlu fəaliyyətinə, dövlət və xalq qarşısında misilsiz xidmətlərinə diqqət çəkmiş, məhz bunları əsas götürərək böyük bir məsuliyyəti Mehriban xanıma əmanət etdiyini söyləmişdi: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır". Dövlətimizin başçısı Mehriban xanım Əliyevanın deputat kimi də çox böyük işlər gördüyünü, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində mühüm addımlar atdığını qeyd etmişdi. Həmçinin birinci xanımın çox geniş beynəlxalq fəaliyyətinə diqqət yönəltmişdi: "Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb. Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var".

Cənab Prezidentin dəqiqliklə ifadə etdiyi kimi, Mehriban xanım Əliyeva uzun illərdir ölkənin ictimai-siyasi və mədəni həyatında ölçüyəgəlməz miqyasda böyük işlər görüb, nəhəng layihələr reallaşdırıb, tariximizə yazılmış beynəlxalq tədbirlərin birbaşa təşkilatçılığını həyata keçirib, xalqımızın hər fərdinin qəlbində sevgi və rəğbət oyandıran fəaliyyət sərgiləyib. Heydər Əliyev Fondunun prezidenti kimi Ulu Öndərin dövlətçilik fəlsəfəsinə sadiqlik nümayiş etdirən Mehriban xanım Əliyeva Birinci vitse-prezident statusunda da 9 ildir ki, xalqımıza və dövlətimizə fədakarlıqla xidmət edir. Birinci vitse-prezidentin çoxvektorlu fəaliyyəti, sadəcə, siyasi status daşımır, bu, humanizm, inkişaf və milli dəyərlərin qorunmasına xidmət edən çox genişmiqyaslı bir missiyadır.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsindən ötən 9 illik fəaliyyətinin sırasında böyük əmək və fədakarlıq, qarşıya çıxan problemlərə yeni yanaşmalar, qazanılan çoxsaylı əzəmətli uğurlarla müşayiət olunan zəngin irs var. Mehriban xanımın rəhbərliyi ilə Birinci vitse-prezidentlik institutu qısa müddətdə dövlət aparatına peşəkarlıq və müasirlik meyarları gətirdi. Mehriban xanımın fəaliyyətinin ən dəqiq qiyməti öz ifadəsini, heç şübhəsiz, insanların ona olan böyük hörmət və etimadında tapır. Bütün bu keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhət isə müstəqil Azərbaycan dövlətinin yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında Prezident İlham Əliyevin ən böyük silahdaşı olmasıdır.

"Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam" deyirdi Mehriban xanım Əliyeva. Tam qətiyyətlə vurğulamaq olar ki, Birinci vitse-prezidentlik təsisatı çevik siyasi struktur kimi özünü və cənab İlham Əliyevin etimadını doğrulddub. Mehriban xanım Əliyevanın bu vəzifədəki fəaliyyəti dövlət idarəçiliyinə yeni trendlər gətirərək, peşəkarlıq meyarlarının önəmini daha da gücləndirib. Onun şəxsində Azərbaycan qadınının cəmiyyətdəki yeri həm fəal ictimai-siyasi vətəndaş, həm də yüksəkixtisaslı dövlət xadimi səviyyəsində yenidən müəyyənləşib. Birinci vitse-prezident qismində Mehriban xanım Əliyeva öz dərin təcrübəsi, ali humanizm prinsipləri və strateji təfəkkürü ilə yeni mərhələnin əsasını qoyub, xanımların idarəetmə sferasında daha geniş təmsil olunmasına zəmin yaradıb. Özünün humanizm prinsipləri ilə qadınların ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakı üçün güclü bir motivasiya mənbəyinə çevrilib. "Gündəlik fəaliyyətimizdə insanpərvərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr qazanmaq, ən uca zirvələrə qalxmaq olar" deyən Mehriban Əliyeva müasir Azərbaycan qadınının həm ailə dəyərlərini qoruyan, həm də qlobal miqyasda ölkəsini təmsil edən lider obrazını tam formalaşdırdı. Onun fəaliyyəti təkcə vəzifə icrası deyil, həm də dövlət idarəçiliyində humanizm, şəffaflıq və peşəkarlığın vəhdətidir.

Mehriban xanım Əliyevanın cəmiyyətin dərin rəğbətini qazanmış fəaliyyəti olduqca geniş və əhatəlidir. O, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi siyasi proseslərdə aktiv rol almaqla yanaşı, 2005-2017-ci illər ərzində Azərbaycan Respublikası Milli Məclisinin deputatı qismində qanunvericilik fəaliyyətinə mühüm töhfələr verib. Heydər Əliyev Fonduna və Azərbaycan Mədəniyyət Fonduna rəhbərlik edərək milli-mənəvi dəyərlərin qorunması missiyasını öz üzərinə götürən Mehriban xanım eyni zamanda Azərbaycan Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü kimi ölkəmizdə idman hərəkatının və sağlam nəslin yetişdirilməsi strategiyasının əsas hərəkətverici qüvvələrindən biri olub. Mehriban Əliyeva Heydər Əliyev Fondunun prezidenti kimi irimiqyaslı layihələrlə cəmiyyətin ən müxtəlif təbəqələrinə birbaşa dəstək göstərib. Azərbaycanın zəngin mədəni irsinin, muğam sənətinin və xalçaçılığın qlobal müstəvidə tanınmasında müstəsna rol oynayıb. Onun rəhbərliyi altında dövlət orqanlarının fəaliyyətində çeviklik, şəffaflıq və innovativ yanaşmaların tətbiqi genişlənib. Bu, idarəetmə sisteminin müasirləşməsinə və qərarların qəbulu prosesində peşəkarlığın artmasına ciddi təkan verib.

Mehriban xanım Əliyeva öz fəaliyyətində cəmiyyətin həssas təbəqələrinin qayğılarını hər zaman diqqət mərkəzində saxlayır, onların çətinliklərinin aradan qaldırılması istiqamətində ardıcıl addımlar atır. Birinci vitse-prezident kimi fəaliyyətinin mərkəzində hər zaman qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin və onların ailə üzvlərinin sosial müdafiəsi dayanır. Dövlətin və millətin tərəqqisində strateji əhəmiyyət kəsb edən təhsil, səhiyyə və mədəniyyət kimi sahələrin inkişafına fundamental töhfələr verməklə bərabər, milli-mədəni irsimizin beynəlxalq arenada tanıdılması üçün müstəsna layihələr həyata keçirir. Birinci vitse-prezidentin bu sahədəki səyləri həm milli tərəqqiyə xidmət edir, həm də xalqın mənəvi dəyərlərinin qorunmasında misilsiz rol oynayır.

Birinci vitse-prezident kimi ilk rəsmi müşavirəsini qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına həsr etməsi onun fəaliyyətində insan amilinin və sosial ədalətin prioritet olduğunu nümayiş etdirdi. Xüsusilə Lökbatan və Qobu qəsəbələrində yeni yaşayış komplekslərinin salınması bu istiqamətdə atılan ən böyük addımlardan idi. Sosial xidmətlərin rəqəmsallaşması və şəffaflaşması prosesində Birinci vitse-prezidentin rəhbərlik etdiyi layihələr mühüm rol oynadı. 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi və Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin siyahıya salınması da onun beynəlxalq nüfuzunun göstəricisi idi.

Ötən 9 il Azərbaycanın müasir tarixində olduqca mühüm hadisələrlə zəngindir. Bu illərin ən böyük hadisəsi, əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpasıdır. Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və qətiyyəti ilə 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olundu. Hələ 44 günlük müharibə zamanı döyüş əməliyyatlarının davam etdiyi günlərdə xalqımız Mehriban xanım Əliyevanın necə yüksək vətən sevgisinə malik olduğuna şahidlik etdi. Azərbaycanın Birinci vitse-prezidentinin rəsmi "İnstaqram" səhifəsində etdiyi paylaşımlar, kənd və şəhərlərimiz azad olunduqca ünvanladığı təbriklər cəmiyyətimizdəki qələbə əzmini daha da gücləndirdi.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti daha sonra postmünaqişə dövründə xalqın mənəvi dayaq nöqtələrindən birinə çevrildi. Müharibədən sonrakı dövrdə qazilərin yüksəktexnologiyalı protezlərlə təmin edilməsi və onların reabilitasiyası birbaşa Mehriban xanım Əliyevanın nəzarəti ilə həyata keçirilir. Bu protezlər qazilərin hərəkət məhdudiyyətini minimuma endirir. Ağır yaralanmış qazilərin dünyanın ən qabaqcıl texnologiyalarına çıxışı Mehriban Əliyevanın təşəbbüsü ilə təmin edildi. Heydər Əliyev Fondu tərəfindən müasir avadanlıqlarla təchiz olunmuş bərpa mərkəzlərində qazilər həm fiziki, həm də psixoloji dəstək alırlar. Şəhid ailələrinin sosial qayğı ilə əhatə olunması və onların problemlərinin operativ həlli sistemli xarakter alıb. Mehriban xanımın sayəsində bu fəaliyyət, sadəcə, birdəfəlik yardımlarla bitmir, davamlı və institusional xarakter daşıyır. Mehriban xanım Əliyevanın fəaliyyətində empatiya faktoru çox güclüdür. Onun şəhid anaları və qazilərlə görüşləri, onların problemlərini bir ana, bir qadın həssaslığı ilə dinləməsi cəmiyyətdə böyük rəğbətlə qarşılanır.

İşğaldan azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində və Böyük qayıdış prosesində Mehriban xanım Əliyevanın xidmətləri mühüm əhəmiyyət daşıyır. Heydər Əliyev Fondu hazırda Qarabağ və Şərqi Zəngəzurda tarixi və dini abidələrin bərpa olunmasında yaxından iştirak edir, bütövlükdə azad olunmuş torpaqlarımızın yenidən qurulmasına öz töhfələrini verir. Bu fəaliyyət təkcə fiziki bərpa deyil, həm də mənəviyyatımızın və mədəniyyətimizin öz evinə qayıdışıdır. Şuşanın işğaldan azad olunmasından qısa müddət sonra "Xarıbülbül" Musiqi Festivalının və Vaqif Poeziya Günlərinin yenidən keçirilməsi dünyaya Azərbaycanın öz mədəniyyətinə sahib çıxması ismarışını verdi. Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa və "Saatlı" məscidlərinin əsaslı bərpası, eləcə də Ağdam Cümə məscidində aparılan işlər dini və tarixi dəyərlərimizə verilən yüksək önəmin göstəricisidir. Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin möhtəşəm bərpası və Şuşada rəsm qalereyalarının yaradılması şəhərin tarixi simasını özünə qaytardı.

Birinci vitse-prezident statusunda həyata keçirilən beynəlxalq səfərlər və yüksəksəviyyəli görüşlər Azərbaycanın milli maraqlarının dünyada daha effektiv müdafiəsinə xidmət edib. Bu səfərlər, sadəcə, rəsmi protokol görüşləri deyil, ölkəmizin milli maraqlarının strateji səviyyədə təşviqi kimi xarakterizə olunur. Birinci vitse-prezidentin hər bir səfəri Azərbaycanın qlobal səviyyədə mövqelərinin daha da möhkəmləndirilməsi işində müstəsna rol oynayıb. Bu səfərlər respublikamızın həm iqtisadi, həm də mədəni tərəfdaş kimi nüfuzunu daha da möhkəmləndirib.

Mehriban Əliyeva tərəfindən Azərbaycanın zəngin mədəniyyətinin, tolerantlıq ənənələrinin və multikultural dəyərlərinin dünyada tanıdılması birbaşa dövlət nüfuzuna xidmət edir. ICESCO ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr Azərbaycanı dünyada sivilizasiyalararası dialoq mərkəzi kimi tanıdıb. Luvr muzeyindən tutmuş Versal sarayına qədər mühüm tarixi abidələrin bərpasında Azərbaycanın iştirakı ölkəmizin humanitar donor statusunu möhkəmləndirdi. Səfərlər zamanı keçirilən biznes-forumlar və görüşlər qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, Azərbaycanın təkcə enerji resursları ilə deyil, həm də intellektual və mədəni potensialı ilə cəlbedici tərəfdaş olduğunu sübuta yetirir. Bütün bunlar həm də onu göstərir ki, Birinci vitse-prezident institutunun fəaliyyəti Azərbaycanın beynəlxalq arenada daha müasir, dinamik və sülhsevər dövlət obrazının formalaşmasında həlledici rol oynadı.

COVID-19 pandemiyası zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirlər dövlət idarəçiliyinin operativliyini nümayiş etdirməklə yanaşı, cəmiyyətdə sosial həmrəyliyi gücləndirdi. Pandemiyanın ən kritik dövrlərində xəstəxanaların yüklənməsini azaltmaq üçün tətbiq edilən modul tipli xəstəxana modeli Azərbaycanın bu böhrandan ən az itki ilə çıxmasına şərait yaratdı. Bu xəstəxanalar cəmi bir neçə həftə ərzində qurularaq tam təchiz olunmuş vəziyyətdə istifadəyə verildi. Birinci vitse-prezident bu müəssisələrin açılışlarında şəxsən iştirak edərək, həm tibbi təchizatı, həm də həkimlərin iş şəraitini diqqətdə saxladı. Heydər Əliyev Fondunun təşəbbüsü ilə başladılan bu hərəkat ölkənin hər bir bölgəsini əhatə edən genişmiqyaslı bir xeyriyyə missiyasına çevrildi. Yalnız ərzaq paketləri deyil, həm də xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün lazımi dərman preparatlarının paylanması təmin edildi. Mehriban xanımın çağırışı ilə minlərlə gənc könüllü bu aksiyaya qoşularaq yardımların ünvanlara çatdırılmasında fəal iştirak etdi. Fond həm də müxtəlif özəl şirkətləri və xeyriyyəçiləri bir araya gətirərək milli birliyin simvolu oldu. Bundan əlavə, Mehriban xanım Əliyevanın beynəlxalq nüfuzu sayəsində Azərbaycan pandemiyaya qarşı qlobal mübarizəyə də töhfələr verdi. Bura Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə sıx əməkdaşlıq və ehtiyacı olan ölkələrə humanitar yardımların göndərilməsi daxildir.

Elm, təhsil və idman sahələri məhz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli prioritetlərdən qlobal uğur hekayələrinə dönüb. "Təhsil millətin gələcəyidir" devizi ilə hərəkət edən Mehriban xanım bu sahədə köklü dəyişikliklərin təşəbbüskarıdır. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkənin ən ucqar kəndlərində belə müasir standartlara cavab verən məktəblər tikilib. Bağçaların əsaslı təmiri və uşaqların erkən yaşdan inkişafı üçün yaradılan şərait də Mehriban xanımın xüsusi diqqət mərkəzindədir. Eyni zamanda valideyn himayəsindən məhrum uşaqların təhsili və onların cəmiyyətə yararlı fərdlər kimi yetişməsi üçün xüsusi proqramlar həyata keçirilir. Elmin inkişafı Mehriban xanımın fəaliyyətində yüksək texnologiyalar və intellektual gəncliyin dəstəklənməsi ilə də xarakterizə olunur.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat komitələrinin fəaliyyəti Azərbaycanı dünya idman xəritəsində mərkəzi nöqtəyə çevirib. 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları zamanı paytaxtda Olimpiya standartlarına uyğun infrastrukturun qurulması və oyunların möhtəşəm keçirilməsi məzh Mehriban xanımın yüksək idarəçilik məharətinin sübutu idi. 2017-ci ildə təşkil olunmuş İslam Həmrəyliyi Oyunları Azərbaycanın həm də müxtəlif sivilizasiyalar arasında dostluq körpüsü olduğunu dünyaya nümayiş etdirdi. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım bu idman növünü ölkədə kütləvi hala gətirib və Azərbaycanı dünya gimnastikasının liderlərindən birinə çevirib. Mehriban xanım Əliyevanın təhsil və idman sahəsindəki fəaliyyəti "sağlam bədəndə sağlam ruh" prinsipinə əsaslanır. Birinci vitse-prezident gənc nəslin həm intellektual, həm də fiziki cəhətdən güclü olmasını dövlətin sarsılmaz gələcəyinin təminatı kimi görür.

Mehriban xanım Əliyevanın Azərbaycanda idarəçiliyin yeni institutlarından olan Birinci vitse-prezident vəzifəsində Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi dövlətimizə və xalqımıza uğurla xidmət göstərəcəyi, respublikamızın yüksəlişinə layiqli töhfələr verəcəyi, hər zaman insanların yanında olacağı məlum idi. Mehriban xanım Əliyevanın bu vəzifədə fəaliyyətinin ilk həftələrindən bütün bu deyilənlər özünü tam şəkildə doğruldub.

Göründüyü kimi, Mehriban xanım Əliyevanın zəngin fəaliyyəti və gərgin əməyi dövlətimizin daha da güclənməsinə və xalqımızın rifah səviyyəsinin yüksəlməsinə xidmət edir. Onun Birinci vitse-prezidentlik fəaliyyəti dövlətçilik ənənələri ilə müasir liderlik keyfiyyətlərinin, humanizm və peşəkarlığın vəhdətidir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr təkcə dövlət idarəçiliyini müasirləşdirmir, həm də xalqın milli-mənəvi dəyərlərini qlobal müstəvidə ucaldır. Tam əminliklə demək olar ki, Mehriban xanım bu vəzifəni təkcə siyasi bir funksiya kimi deyil, həm də xalqa birbaşa xidmət və mənəvi məsuliyyət platforması kimi həyata keçirir. Bu fəaliyyət güclü dövlətçilik ənənələrinə sadiqliyin və xalqa fədakar xidmətin parlaq nümunəsidir.

*Səttar MÖHBALIYEV,*
*Milli Məclisin deputatı*



# Nəcib əməllər sahibi

**2016-cı ildə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklərlə təsis olunan Birinci vitse-prezidentlik institutu respublikamızın demokratik inkişafının göstəricisi və idarəçilikdə həyata keçirilən uğurlu islahatlardan biridir. Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təyin olunması əlamətdar siyasi hadisə olmaqla ölkə ictimaiyyəti tərəfindən razılıq və rəğbətlə qarşılandı.**

Çünki Azərbaycan ictimaiyyəti buna qədər Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin, dövlətə və xalqa xidmətinin nümunələrini görmüşdü. Mehriban Əliyeva daşıdığı bütün vəzifələrdə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursa layiqli dəstək vermişdi. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Sədr müavini, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi vəzifələri uğurla daşıyan Mehriban Əliyevanı ölkə ictimaiyyəti hələ Birinci vitse-prezident təyin olunana qədər vətən üçün çalışan siyasi-ictimai xadim, nəcib əməllər sahibi, qayğıkeş insan, böyük xeyriyyəçi, mədəniyyətimizin hamisi və Azərbaycan həqiqətlərinin fədakar təbliğatçısı kimi tanımışdı.

Bəli, Mehriban Əliyeva hər zaman respublikamızın yüksəlişinə xidmət etmiş, köməyə ehtiyacı olan insanların yanında olmuş, həvalə edilmiş bütün məsul vəzifələrdə Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə böyük töhfələr vermişdir. "Avroviziya" Mahnı Müsabiqəsinin, I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil olunması da məhz Mehriban Əliyevanın dövlətimiz qarşısındakı layiqli xidmətlərinin nəticələri kimi tariximizə həkk olunub. Bu mənada 2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi idi.

Prezident İlham Əliyev 2017-ci il fevralın 21-də keçirilən Təhlükəsizlik Şurasının iclasında Mehriban Əliyevanın fəaliyyəti ilə bağlı demişdi: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının Sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda Mehriban xanımın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir".

Prezident İlham Əliyevin bu fikirləri həm də onu deməyə əsas verirdi ki, Mehriban Əliyeva ona həvalə olunan yeni missiyanı da uğurla həyata keçirəcək. Bu baxımdan ötən 9 ilin mənzərəsi göstərir ki, Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi bütün vəzifələri qətiyyətlə, əzmlə reallaşdırır.

Qeyd etmək lazımdır ki, ötən 9 ildə respublikamız olduqca möhtəşəm uğurlara nail olub. Bu dövrdə dövlətimiz Prezident İlham Əliyevin qətiyyətli siyasi kursunun nəticəsi olaraq həm də bütün sınaqlardan alnıaçıq, başıuca çıxıb. Və bu illər ərzində Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi hər bir sahədə dövlət siyasətinin uğurla həyata keçirilməsində yaxından iştirak edib, öz yeni missiyası ilə sosial sahədə ölkə ictimaiyyətinin böyük razılıqla qarşıladığı işlər görüb, dövlətimizin beynəlxalq əlaqələrinin inkişafına böyük töhfələr verib. Birinci vitse-prezidentin keçmiş məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması, Aprel döyüşlərində sağlamlığını itirmiş hərbçilərimizin yüksəkkeyfiyyətli protezlərlə təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, koronavirusla mübarizə işinə verdiyi töhfələr hər zaman böyük minnətdarlıqla xatırlanır.

Ötən 9 ilin ən böyük uğuru ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Torpaqlarını işğaldan azad edən, Qarabağdakı erməni separatizminə son qoyan Azərbaycan bu gün müasir dövlətçilik və müstəqillik tarixinin şərəfli dövrünü yaşayır. Azərbaycana zəfərlər bəxş edən Prezident İlham Əliyev özünün qətiyyətli və prinsipial siyasəti ilə həm də regionda sülhü təmin edir.

Bu gün dövlətimizin qarşısındakı əsas vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və bərpasıdır. Prezident İlham Əliyevin xüsusi diqqəti və nəzarəti altında Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur, "Böyük qayıdış" proqramı uğurla həyata keçirilir. Bu prosesdə də Müzəffər Ali Baş Komandanın ən yaxın silahdaşı Mehriban xanım Əliyevadır. Heydər Əliyev Fondunun işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq layihələri bir daha Mehriban Əliyevanın milli təəssübkeşliyindən, vətənpərvərliyindən, yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Şuşada, Ağdamda və işğaldan azad edilmiş şəhərlərimizdə mədəni, tarixi və mənəvi irsimizin bərpası istiqamətində həyata keçirilən layihələr həm də Mehriban Əliyevanın fəal vətəndaşlıq mövqeyini göstərir.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

# Dövlətə sədaqət, insanlara sevgi, milli dəyərlərə hörmət



**Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsindən 9 il ötür. 21 fevral 2017-ci ildə verilmiş bu mühüm qərar dövlətçilik tariximizdə bir ilk olmaqla milli inkişaf salnaməmizdə parlaq bir səhifə açdı. Bununla Azərbaycanın siyasi idarəetmə tarixində yeni mərhələ başlandı və dövlət idarəçiliyinin strukturunda mühüm keyfiyyət dəyişikliyi baş verdi.**

Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə böyük rəğbət doğuran fəaliyyəti, nəcib əməlləri Azərbaycan qadınının ictimai statusunun, ümumən müasir dünyamızda qadın liderliyinin mükəmməl təcəssümüdür. Bu obraz yalnız xalqımıza xas ailə dəyərləri, xeyirxahlıq, mərhəmət, insanlara sevgi, fərqli mədəniyyətlərə hörmət duyğusu ilə deyil, yüksək peşəkarlıq, təşkilatçılıq bacarığı, strateji düşüncə və dövlətə sədaqətli xidmət anlayışı ilə də assosiasiya olunur. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadını həm milli-mənəvi dayaqlara söykənən, həm də qlobal miqyasda örnəyə çevrilən, müasir idarəçilik təcrübəsinə malik bir sima kimi təqdim edilir. Onun qlobal imici zərifliklə prinsipiallığın, humanizmlə qətiyyətin, milli kimliklə açıq dünyagörüşün vəhdətinə əsaslanır.

Mehriban xanımı xarakterizə edərkən xüsusi vurğulanmalı məqam onun fəaliyyət fəlsəfəsində ənənə ilə yeniliyin üzvi şəkildə birləşməsidir. O, tarixi köklərə və milli-mənəvi irsə sədaqəti qorumaqla yanaşı, müasir dünyanın tələblərinə uyğun düşüncə və idarəetmə modeli nümayiş etdirir. Məhz bu balans - kökə bağlılıq və dünyəvilik arasında qurulan harmonik xətt onun şəxsiyyətini və fəaliyyət istiqamətini müəyyən edən əsas prinsipdir.

## Sistemli islahatların davamı

Doqquz il əvvəl Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilənə qədər də Mehriban xanım müstəqil Azərbaycanın ictimai-siyasi həyatında bir sıra yeniliklərin təşəbbüskarı kimi tanınırdı. O, postsovet məkanında formal çərçivədən kənara çıxaraq Birinci xanım institutuna məzmun, sosial məsuliyyət və beynəlxalq təqdimat baxımından yeni model qazandırmışdı. 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondu vasitəsilə həyata keçirdiyi genişmiqyaslı humanitar, mədəni və sosial layihələrlə bu fəaliyyətin institusional əsasını formalaşdırmışdı. Bu illər ərzində fondun fəaliyyəti yalnız xeyriyyəçiliklə məhdudlaşmamış, o, Heydər Əliyev irsinin müasir dövrdə dəyərlər sisteminə çevrilməsi, milli kimlik və sosial həmrəylik anlayışlarının möhkəmləndirilməsi istiqamətində sistemli platforma kimi qərarlaşmışdı. Beynəlxalq səviyyədə qazandığı nüfuz, müxtəlif dövlət və təşkilatların ali mükafat və titulları Mehriban xanımın fəaliyyətini qlobal humanitar diplomatiyanın bir parçasına çevirmişdi.

Mehriban Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması isə institusional baxımdan 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsinin nəticələrinin davamı idi. Əsas Qanunumuza edilən dəyişikliklə yaradılmış bu institut daha əvvəl ölkəmizin idarəetmə modelində mövcud deyildi. Yeni mexanizm dövlət idarəçiliyində funksional bölgünü dərinləşdirmək, qərar qəbuletmə prosesini çevikləşdirmək, strateji koordinasiyanı gücləndirmək məqsədi daşıyırdı.

Vitse-prezidentlik institutu sistemli islahatların davamı kimi idarəetmədə operativliyi artırmaq, dövlət başçısının fəaliyyətinə institusional dəstək mexanizmi formalaşdırmaq məqsədilə yaradılmışdı. Daxili və xarici siyasətdə qərarların icrasına nəzarətin gücləndirilməsi, dövlət proqramlarının monitorinqi, iqtisadi və sosial layihələrin koordinasiyası belə bir institutun köməyi ilə daha effektiv həyata keçirilməli idi.

Beləliklə, Birinci vitse-prezident postunun yaradılması təkcə yeni vəzifənin təsis edilməsi olmayıb, idarəetmə fəlsəfəsindəki yenilik ab-havasından gəlirdi. 2016-cı il referendumundan sonra ölkəmizdə bu model məsuliyyətin bölüşdürülməsini, strateji hədəflərin daha sistemli və nəticəyönümlü şəkildə reallaşdırılmasını təmin edən müasir dövlətçilik mexanizmi kimi formalaşdı.

## Azərbaycana layiqli xidmət

Hər hansı vəzifənin mövcudluğunda və ya yeni təsis olunmasında şəxsiyyət amili əhəmiyyətli rol oynamasa da, etiraf edək ki, istənilən vəzifənin effektivliyi onu yerinə yetirən insanın fərdi keyfiyyətlərindən, yəni insan amilindən birbaşa asılıdır. Bu mənada əgər Azərbaycanın dövlət idarəçiliyi sistemində vitse-prezidentlik institutunun yaranması ümumxalq səsverməsində belə bir yeniliyə səs vermiş vətəndaşlarımızın istəyi, bu istəyi nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi qərarıdırsa, ölkəmizdə belə bir institutun uğur qazanması birbaşa Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Azərbaycan Prezidenti bu vəzifəyə məhz Mehriban xanımı təqdim etməklə, cəmiyyətin sosial sifarişini yerinə yetirdi, xalqın ürəyindən xəbər verdi.

Yeni yaradılmış belə bir dövlət təsisatından gözləntilər böyük idi. Vətəndaş olaraq hər birimiz yaxşı bilirdik ki, milli dövlətçilik sistemimiz üçün bir ilk sayılan Birinci vitse-prezidentlik institutunun strukturunun qurulması, fəaliyyət prinsiplərinin müəyyənləşdirilməsi və real nəticələr verməsi üçün həm təşkilatçılıq təcrübəsi, həm sosial həssaslıq, həm də strateji baxış tələb olunur.

Mehriban xanım isə hələ ötən əsrin 90-cı illərinin ortalarından ictimai-siyasi müstəvidə apardığı ardıcıl fəaliyyətlə bu etimadı qazanmışdı. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun layihələri, parlamentdə deputat kimi təşəbbüsləri, humanitar və mədəni diplomatiya sahəsində gördüyü işlər cəmiyyətdə peşəkar və məsuliyyətli dövlət xadimi obrazını möhkəmləndirmişdi. Heydər Əliyev Fonduna rəhbərliklə yanaşı, Yeni Azərbaycan Partiyası sədrinin müavini, Milli Məclisin deputatı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi fəaliyyəti, Avroviziya Beynəlxalq Mahnı Müsabiqəsi (2012), I Avropa Oyunları (2015), IV İslam Həmrəyliyi Oyunları (2017) kimi mötəbər beynəlxalq tədbirlərin təşkilat komitələrinə uğurla rəhbərliyi onun geniş idarəçilik bacarığını nümayiş etdirmiş, Mehriban xanıma həm ölkədə, həm də qlobal məkanda böyük rəğbət qazandırmışdı. Bütün bunlar Azərbaycanın Birinci vitse-prezidenti kimi böyük ümid və gözləntiləri, bir o qədər də məsuliyyət doğuran ali vəzifəyə məhz Mehriban xanım kimi təcrübəli, nüfuzlu ictimai xadimin təyin olunmasını şərtləndirirdi. Çünki söhbət təkcə yeni bir postdan deyil, dövlət idarəçiliyində yüksək məsuliyyət və sistemli fəaliyyət tələb edən strateji mövqedən gedirdi. Mehriban xanım Əliyeva şəxsiyyətinə uzun illər ərzində formalaşmış ictimai etimad, onun uğurlu təşkilati təcrübəsinə inam Azərbaycan Prezidentinin bu qərarının əsasını təşkil etdi.

Onun ölkəmizin Birinci vitse-prezidenti kimi təqdimat mərasimində də Azərbaycan Prezidenti İlham Əliyev Mehriban xanımın çoxşaxəli fəaliyyət yolunu xüsusi vurğuladı: "Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Mehriban xanım isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi ilk çıxışında dedi: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar... Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

Ötən 9 il Mehriban xanım Əliyevanın öz sözlərinə necə sadiq olduğunu, Azərbaycan dövlətinə xidmətini layiqincə davam etdirdiyini bir daha təsdiqlədi.

## İnsan və insanlıq naminə

Bu ali dövlət vəzifəsində Mehriban xanımın fəaliyyətinin mühüm bir hissəsi ölkəmizin sosial siyasətinin həyata keçirilməsi ilə bağlıdır. Azərbaycanın Birinci vitse-prezidenti bu siyasətin müasir zamanın çağırışlarına uyğun yüksək məsuliyyətlə həyata keçirilməsində və öz məqsədlərinə çatmasında müstəsna rol oynayır. Onun rəhbərlik etdiyi bir çox sosial layihə və təşəbbüs Azərbaycan cəmiyyətinin rifahını artırmağa, xüsusən sosial müdafiəyə ehtiyacı olan təbəqələrin, uşaqların, qadınların və digər ehtiyaclı qrupların həyat şəraitini yaxşılaşdırmağa yönəlib. Birinci xanımın sosial sahəyə verdiyi töhfələr onun insan hüquqları, sosial ədalət və bərabərlik prinsiplərinə olan dərin bağlılığını nümayiş etdirir.

Mehriban xanım Əliyeva uzun illər Heydər Əliyev Fondunun prezidenti kimi uşaqların təhsili, sağlamlığı və ümumi rifahı üçün ölkəmizdə və Azərbaycan hüdudlarından kənarda müxtəlif layihələrə uğurla rəhbərlik edib. Respublikanın uşaqlar üçün təhsil və sosial dəstək proqramları Mehriban xanımın şəxsən dəstəklədiyi və təşviq etdiyi təşəbbüslərdir. Əlillər və xüsusi ehtiyacları olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş bir çox layihənin uğuru da birbaşa Mehriban xanımın adı ilə bağlıdır. Birinci vitse-prezidentin diqqət və qayğısı sayəsində əlillərin bir çox sosial problemi öz həllini tapıb, bu kateqoriyadan olan şəxslərin təhsil imkanlarının artırılması, onların iş tapmaları üçün müvafiq proqramların hazırlanması və fiziki mühitin əlillərə uyğunlaşdırılması məsələləri aktuallaşdırılaraq bu istiqamətlərdə mühüm nəticələr əldə olunub.

Mehriban xanım həmçinin qadınların sosial və iqtisadi həyatda fəal iştirakını təşviq edən bir çox təşəbbüsün müəllifidir. O, qadınların təhsili, ictimai həyata fəal inteqrasiyası və sosial müdafiəsi, qadınlara qarşı məişət zorakılığı hallarının qarşısının alınması sahələrində çox mühüm addımlar atıb. Azərbaycanın Birinci vitse-prezidentinin özünün ictimai-siyasi obrazı, təlqin etdiyi dəyərlər də cəmiyyətimizdə qadın fəallığı ənənələrinin güclənməsinə mühüm töhfələr verir.

Mehriban xanımın rəhbərliyi altında yaşlılara, kimsəsiz uşaqlara sosial qayğı, onların rifahının təmin olunması məqsədilə müxtəlif proqramlar həyata keçirilməkdədir. Azərbaycanın yaşlı əhalisi üçün sağlamlıq xidmətlərinin keyfiyyətinin artırılması, onların yaşayış şəraitinin yaxşılaşdırılması və sosial aktivliyi Mehriban xanımın fəaliyyətinin əsas prioritetlərindəndir. Azərbaycanın Birinci vitse-prezidentinin təşəbbüsü ilə ölkəmizin müxtəlif regionlarında inşa olunmuş "Məzun Evi"ndə yüzlərlə kimsəsiz gənc məskunlaşıb, ev-eşik sahibi olub, işlə təmin olunaraq gündəlik güzəranını təmin edib.

Birinci Qarabağ müharibəsində və tarixi Zəfərimizlə, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunması ilə nəticələnmiş Vətən müharibəsində, antiterror əməliyyatında həlak olmuş şəhidlərimizin ailələri, sağlamlığını itirmiş qazilərimizin müalicəsi, onların ən müasir protezlərlə, mənzillərlə, avtomobillərlə təmin edilməsi və s. kimi sosial qayğılar da daim Mehriban xanımın diqqətindədir.

Əhalinin sosial müdafiəsi sahəsində ədalət prinsiplərinin tətbiqi, sosial xidmətlərdən faydalanmaq istəyən hər bir şəxs üçün bərabər imkanların yaradılması, şəffaflıq və hesabatlılığın təmin olunması, proseslərin rəqəmsal vasitələrlə optimallaşdırılması və müəyyən dövrlərdə sosial müdafiə sahəsindəki mənfi tendensiyaların aradan qaldırılması Mehriban xanımın rəhbərliyi və daimi nəzarəti ilə bu sahədə əldə olunmuş uğurlu nümunələrdəndir.

## Xalqın xoşbəxt gələcəyi naminə

Birinci vitse-prezidentin təhsil sahəsindəki çoxşaxəli fəaliyyəti, Azərbaycanda yeni nəslin inkişafına, mənəvi tərbiyəsinə, layiqli vətəndaşlar kimi öz yerlərini tutmalarına böyük töhfə vermişdir. O, təhsil müəssisələrinin infrastrukturlarının modernləşdirilməsi və təhsil keyfiyyətinin yüksəldilməsi məqsədilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və s. kimi bir sıra möhtəşəm proqramların müəllifidir. Mehriban xanım uşaqların sosial inkişafı, onların müxtəlif bacarıqlarının artırılması, gənc nəsildə mənəvi dəyərlərin aşılanması məqsədilə də çoxsaylı humanitar layihələr həyata keçirib və yenə keçirməkdir. Bu fəaliyyətlər təhsilin yalnız akademik tərəfi ilə deyil, uşaqların mənəvi və sosial tərbiyəsi baxımından da yüksək əhəmiyyət kəsb edir.

Birinci vitse-prezidentin təşəbbüsü ilə müxtəlif ölkələrin şəhər və qəsəbələrində inşa edilmiş və yenidən qurulmuş təhsil müəssisələri Azərbaycanın dünyadakı dostlarının sayını artırır. Eyni zamanda təhsilin universal bir dəyər olduğunu, hər bir insanın bu sahənin inkişafına, hamı üçün əlçatanlığına dəstək missiyasını xatırladır.

Bu gün Azərbaycan bütün dünyada tolerantlıq, miltikulturalizm məkanı kimi tanınır, fərqli mədəniyyətlərin qovuşduğu körpü kimi böyük rəğbət doğurur. Azərbaycanın bu imicinin formalaşmasında Mehriban xanım Əliyevanın xidmətləri müstəsnadır. Ölkəmizin evsahibliyi və Birinci vitse-prezidentin fəal iştirakı ilə hələ 2008-ci ildən böyük uğurla həyata keçirilən "Bakı prosesi" bütün dünyada mədəniyyətlər arasında dialoq nümunəsi kimi sülhə, insanların xoşbəxtliyinə xidmət edir.

## Zəfərdən dirçəlişə

Azərbaycanın mədəni irsini qoruyaraq illərdir dünyada təbliğ edən Mehriban xanım Əliyevanın fəaliyyətinin mühüm bir istiqaməti də bu gün Qarabağın, Şərqi Zəngəzurun dirçəlişi ilə bağlıdır. Şuşa şəhərindəki Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, "Çöl qala", "Mamayı", "Saatlı" məscidlərinin, Ağdam və Zəngilan şəhərlərindəki cümə məscidlərinin təmir-bərpası, Şuşada, Hadrutda, Daşaltıda yeni məscidlərin inşasında Mehriban xanım Əliyevanın böyük xidmətləri var.

Birinci xanımın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə görkəmli şairimiz Vaqifin Şuşa şəhərindəki muzey-məqbərə kompleksi və büstü əvvəlki görkəmində bərpa olunub. Mir Möhsün Nəvvabın Cıdır düzündə yerləşən qəbirüstü abidəsi yenidən həyata qaytarılıb. Üzeyir bəy Hacıbəylinin Şuşada heykəli ucaldılıb. Şuşanın tarixi yaddaşında xüsusi yer tutan məşhur tarzən və bəstəkar Sadıqcanın evində, Mehmandarovların malikanə kompleksində, "Şirin su hamamı"nda bərpa-quruculuq işləri görülüb. Şuşada tarixi görkəmində bərpa olunan yaradıcılıq mərkəzi, Milli Xalça Muzeyinin Şuşa filialı, "Yasəmən" hoteli və başqa belə məkanlar Mehriban xanım Əliyevanın azad torpaqlarımızın dirçəlişinə mühüm töhfələridir. Bütün bunlar onun azad Qarabağda, Zəngəzurda milli-tarixi yaddaşın bərpası məramı ilə gördüyü işlərin hələ yalnız müəyyən bir hissəsidir. Hər keçən ay həyata qaytarılan tarixi məkanlar sırasına yenilərini əlavə edir.

Azərbaycanın Birinci vitse-prezidentinin dəstəyi ilə hər il Şuşada "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri və digər bu kimi mədəniyyət tədbirləri keçirilir. Əzəli yurdlarımız dünyaya mədəniyyət işığında yenidən təqdim olunur.

## Yeni siyasi mədəniyyətin təmsilçisi

Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi həyatında yeni bir mədəniyyətin təmsilçisidir. Onun malik olduğu dəyərlər, məsələlərə yanaşma tərzi, şəxsiyyətinə olan ictimai rəğbət cəmiyyətimizdə fərqli bir siyasi mədəniyyət formalaşdırır, xalq-iqtidar birliyini daha da möhkəmləndirir, vətəndaş cəmiyyətinin tərəqqisinə töhfə verir, münasibətlərdə mənəvi-əxlaqi amilləri önə çəkir.

Münxen Təhlükəsizlik Konfransında iştirak zamanı xarici bədxahlarımızın təhriki ilə Azərbaycan dövlətinə qarşı təxribatçı davranışlar sərgiləyən ünsürlərin bu cəhdlərinə Mehriban xanımın təmkinli, sərrast reaksiyası onun necə kamil bir şəxsiyyət olduğunu, dövlət idarəçiliyindəki səriştəsini, onun timsalında dövlətimizin o ünsürlərdən də, onları Azərbaycanın üzərinə qısqırdan bədxahlarımızdan da çox ucada dayandığını, güclü olduğunu bir daha nümayiş etdirdi.

Xalqların milli dövlətçilik tarixinin hüdudlarından baxsaq, 9 il o qədər də böyük zaman deyil. Ümumən tarix prizmasında hər hansı zamanın miqyasını böyüdən, onu mühüm mərhələyə çevirən əsas şərt ona sığmış hadisələrin məzmunu, mündəricəsidir. Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edildiyi 2017-ci ilin 21 fevralından keçən zamanda da bu dövrdə baş vermiş hadisələrin mahiyyəti etibarilə milli dövlətçilik tariximizin çox böyük bir salnaməsi əks olunur.

Bu qürur dolu hadisələrin hər birində Mehriban xanım Əliyevanın adı, ali əməlləri, nəcib nişanələri var.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# Bəşəri dəyərlərə həsr olunmuş nəcib missiya

**Müasir dünyada sürətlə dəyişən proseslər, münaqişələr, sosial bərabərsizliklər və humanitar çağırışlar fonunda insanpərvərlik və mərhəmət anlayışları ön plana çıxır. Məhz belə bir mürəkkəb dövrdə insanı, onun ləyaqətini və həyatını ali dəyər kimi qəbul edən liderlərin fəaliyyəti xüsusi önəm daşıyır. Humanizmə söykənən bu yanaşma yalnız sözdə deyil, ardıcıl əməllərdə təsdiqini tapanda cəmiyyət üçün real dayaq və ümid mənbəyinə çevrilir.**

Humanizmi və xeyirxahlığı həyat amalına çevirən, insanlara dayaq olmağı ali məqsədi sayan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva da belə seçilmiş şəxsiyyətlərdəndir. Mehriban xanımın özünün də dəfələrlə vurğuladığı kimi, onun həyat fəlsəfəsinin əsasında insanpərvərlik dayanır. Və bu fəlsəfə fərdi xeyirxahlıq anlayışından çıxaraq dövlətçilik düşüncəsi ilə uzlaşan, bəşəri dəyərlərə xidmət edən genişmiqyaslı bir missiyaya çevrilib.

Azərbaycan dövlətinin və xalqının rifahı, sosial ədalətin təmin olunması və davamlı inkişaf naminə yorulmaz fəaliyyət göstərən Mehriban Əliyevanın təşəbbüsləri təkcə ölkə daxilində deyil, beynəlxalq miqyasda humanitar əhəmiyyət daşıyır. Azərbaycanın birinci xanımının rəhbərliyi ilə həyata keçirilən layihələr insanların taleyində böyük rol oynayır, cəmiyyətin həssas təbəqələrinə ümid verir və mərhəmətin əsl gücünü nümayiş etdirir.

## Vətən naminə

Çoxşaxəli fəaliyyətində sosial sahəni əsas prioritet kimi müəyyən edən Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycandakı bütün kimsəsiz uşaqların doğma hamisi, mənəvi dayağıdır. Daun sindromu, autizm, talassemiya, əqli və fiziki məhdudiyyətlər, onkoloji və digər ağır xəstəliklərlə mübarizə aparan uşaqlara göstərilən xüsusi diqqət və qayğı bu humanist yanaşmanın bariz nümunəsidir. Mehriban xanımın təşəbbüsü ilə ölkəmizdə 18 yaşadək uşaqların, eləcə də əlilliyi olan şəxslərin tibbi müalicə və reabilitasiyası üçün müasir standartlara cavab verən ixtisaslaşmış mərkəzlər yaradılıb. Şəhid ailələri və qazilərə göstərilən diqqət Mehriban xanım Əliyevanın fəaliyyətində xüsusi yer tutur. Onların müalicəsi, sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, iş və mənzil təminatı istiqamətində həyata keçirilən tədbirlər ardıcıl və sistemli xarakter daşıyır.

Aprel döyüşləri zamanı da, Vətən müharibəsinin ən ağır və taleyüklü günlərində də Mehriban xanım daim xalqın yanında oldu, mənəvi dayaq nümayiş etdirdi. Qələbə sevincini də, şəhid və yaralıların ağrısını da xalqla birlikdə bölüşən Birinci vitse-prezident 2020-ci il dekabrın 4-də etdiyi paylaşımında şəhid ailələrinin kədərinə şərik olduğunu bu duyğulu sözlərlə ifadə etmişdi: "Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm".

Həm Aprel döyüşlərində, həm də Vətən müharibəsində şəhid olmuş və yaralanmış qəhrəmanlarımızın ailələrinə Heydər Əliyev Fondu tərəfindən hərtərəfli dəstək göstərilir. Yaralılar yüksəktexnologiyalı protezlərlə təmin olunur, dünyanın aparıcı tibb müəssisələrində müalicə almaları üçün imkanlar yaradılır. Bu kateqoriyaya aid vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır.

Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi prosesində də mühüm rol oynayır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bölgəyə hər səfəri yeni həyatın, bərpanın və quruculuğun rəmzinə çevrilir. Kənd və şəhərlərin bünövrəsinin qoyulması, infrastruktur layihələrinin icrası, mədəni tədbirlərin, musiqi və poeziya bayramlarının təşkili, bərpa edilmiş məscidlərdə edilən dualar bu torpaqların tarixi, mədəni və mənəvi ruhunun yenidən canlandığını əyani şəkildə nümayiş etdirir.

"...Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm...", - deyə, Mehriban Əliyeva Vətən müharibəsindən qısa zaman sonra, 2020-ci il dekabrın 8-də Azərbaycan xalqına bu sevindirici müjdəni vermişdi.

Mehriban xanım bəyan etmişdi ki, həyata keçiriləcək layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır.

Ötən müddətdə Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurda yerləşən tarixi, mədəni və dini abidələrin bərpasını uğurla həyata keçirir.

## Peşəkar idarəçilik, yüksək təşkilatçılıq

"Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir" deyən Mehriban xanım Əliyevanın fəaliyyət istiqamətində təhsil sahəsi ilk yerlərdə qərarlaşır. Fondun bütün ölkədə böyük rəğbətlə qarşılanan və uğurla reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi layihələri buna misaldır.

Azərbaycanın hərtərəfli inkişafına və beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsinə mühüm töhfələr verən Mehriban xanım Əliyeva üzərinə götürdüyü vəzifələri yüksək məsuliyyət və fədakarlıqla icra edir. Mehriban xanımın ardıcıl fəaliyyəti nəticəsində Azərbaycan dövləti dünyanın diqqət mərkəzində olan çoxsaylı mötəbər beynəlxalq tədbirlərə layiqincə evsahibliyi edib.

"Avroviziya" Mahnı Müsabiqəsi, I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının təşkili buna nümunədir. Mehriban xanım Əliyevanın rəhbərliyi altında yaradılan Təşkilat Komitəsi bu tədbirlərin keçirilməsində peşəkar idarəçilik və yüksək təşkilatçılıq bacarığını aydın şəkildə nümayiş etdirib. Bu tədbirlər Azərbaycanın təşkilati imkanlarını və müasir dövlət kimi potensialını bir daha dünya ictimaiyyətinə təqdim edib.

Mehriban Əliyevanın birbaşa diqqəti sayəsində ölkəmizdə idman sahəsində mühüm nailiyyətlərin əldə olunması da danılmaz reallıqdır.

## Dəyərlərin yaşadılması

Dünyada multikultural dəyərlərin təşviqi, tolerantlıq mühitinin qorunub saxlanması, sivilizasiyalararası dialoqun inkişafı istiqamətində həyata keçirilən beynəlxalq fəaliyyət Mehriban xanım Əliyevanın humanist baxışlarının davamıdır. Bu xoşməramlı missiya insanlığın və həyatın davamlılığına xidmət edən ali məqsədlərə yönəlib.

2023-cü il fevralın 6-da qardaş Türkiyədə baş vermiş və böyük insan itkisinə səbəb olmuş dağıdıcı zəlzələdən sonra Azərbaycanın birinci xanımının ilk gündən zərərçəkənlərə göstərdiyi dəstək də bu xeyirxah fəaliyyətə nümunədir. Mehriban xanımın, "Türkiyə xalqının kədəri bizim kədərimizdir" ifadəsi yalnız sözdə deyil, konkret humanitar addımlarla təsdiqləndi. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə göndərilən yardımlar həm maddi, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıdı və qardaş ölkədə yüksək minnətdarlıqla qarşılandı. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində bu kimi nümunələr çoxdur və bu istiqamətdə atılan xoşməramlı addımlar "dünyanı birlikdə qoruyaq" kimi qlobal missiyaya xidmət edir.

2005-ci ildə Pakistanda baş verən dəhşətli zəlzələ zamanı Azərbaycanın yardım göstərən ilk ölkələrdən biri olması da bu humanist siyasətin göstəricisidir. 2007-ci ildə Müzəffərabad şəhərində dağıdılmış məktəbin yerində Heydər Əliyev Fondu tərəfindən müasir təhsil ocağının inşa edilməsi, 2012-ci ildə isə Mehriban Əliyeva adına qızlar məktəbinin açılması Pakistan xalqı tərəfindən böyük rəğbətlə qarşılanmışdı.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkili, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı, Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin, Müqəddəs Sebastian katakombalarının bərpası və sair kimi xeyli sayda həyata keçirilən mədəni əməkdaşlıq layihələri bəşəri irsə verilən yüksək dəyərin təzahürüdür.

Təsadüfi deyil ki, Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülüb.

Birinci vitse-prezident Mehriban Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Ötən il oktyabrın 16-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri ölkəmizin humanitar diplomatiyasının növbəti mərhələsini təşkil etdi. Birinci vitse-prezident Mehriban Əliyevanın səfər zamanı Vatikanda dövlət xadimləri ilə səmərəli görüşləri Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrinin inkişafı baxımından mühüm hadisə kimi dəyərləndirildi.

Həmin səfər zamanı Roma Papası XIV Leo ilə görüşərkən Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb.

Öz növbəsində Roma Papası XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

## Sülhün, dostluğun və qarşılıqlı anlayışın möhkəmlənməsi

Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Azərbaycanın multikultural dəyərlərə sadiq, müxtəlif din və mədəniyyətlərə hörmətlə yanaşan ölkə kimi mövqeyini daha da möhkəmləndirir.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və ardıcıl humanitar fəaliyyəti bəşəri dəyərlərin yaşadılmasına, dünyada sülhün, dostluğun və qarşılıqlı anlayışın möhkəmlənməsinə xidmət edən ali missiyadır.

Bu fəaliyyət həm sosial ədalətin təmininə, həm müharibə və fəlakətlərdən zərər çəkmiş insanların yaralarının sarınmasına, həm də tarixi-mədəni irsin qorunaraq gələcək nəsillərə ötürülməsinə xidmət edir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun reallaşdırdığı layihələr göstərir ki, humanizm sərhəd tanımır və bəşəri dəyərlər ümumbəşəri məsuliyyət tələb edir.

Dünyada sülhün, tolerantlığın və qarşılıqlı anlaşmanın getdikcə daha çox ehtiyac duyulduğu bir dövrdə bu xoşməramlı missiya xalqlar və mədəniyyətlər arasında körpülər yaradır, dialoqu təşviq edir və Azərbaycanın humanitar diplomatiyasının gücünü nümayiş etdirir. Məhz bu yanaşma ölkəmizin beynəlxalq nüfuzunun artmasına, multikultural dəyərlərə sadiq dövlət kimi tanınmasına mühüm töhfə verir.

Bütün bunlar bir daha təsdiqləyir ki, Mehriban xanım Əliyevanın fəaliyyəti bəşəri dəyərlərin qorunması və yaşadılması naminə atılan ardıcıl addımların, sülhə, xeyirxahlığa və insanlığa xidmət edən nəcib yolun bariz nümunəsidir. Bu yol yalnız bu günün deyil, gələcək nəsillərin də mənəvi dayağına çevriləcək ümumbəşəri bir missiyadır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Baş Prokurorluqda media nümayəndələri üçün treninq təşkil edilib

Prokurorluq orqanları ilə media və qeyri-hökumət təşkilatları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi, fəaliyyət istiqamətləri üzrə keyfiyyət və səmərəliliyin daha da artırılması, məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl olunması, eləcə də istintaq sirri təşkil edə biləcək məlumatların ictimailəşdirilməsinin qarşısının alınması məqsədilə fevralın 20-də jurnalistlər üçün "İstintaq sirri və media: İctimaiyyətin düzgün məlumatlandırılması prinsipləri" mövzusunda treninq təşkil olunub.



Tədbirdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli çıxış edərək media nümayəndələrinin istintaq sirri, informasiya təhlükəsizliyi və ictimaiyyətlə düzgün kommunikasiya sahəsində biliklərinin artırılmasının, həmçinin hüquqi çərçivədə əməkdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Treninqdə Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarının media ilə əməkdaşlığının cəmiyyətin düzgün və operativ məlumatlandırılması baxımından əhəmiyyətindən danışaraq, bu istiqamətdə qarşılıqlı etimad və məsuliyyətli yanaşmanın vacibliyini vurğulayıb.

Daha sonra Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuroru Əyyub Bəşirov istintaq sirri təşkil edən məlumatların mahiyyəti, bu məlumatların vaxtından əvvəl və ya qanunsuz yayılmasının yaratdığı hüquqi və ictimai fəsadlar barədə çıxış edib.

Tədbir çərçivəsində "Real" Televiziyasının baş direktoru Mirşahin Ağayev "Azərbaycan informasiya sahəsində milli maraqlar və media" mövzusunda çıxış edərək informasiya mühitində milli maraqların qorunması, ictimai rəyin formalaşmasında medianın rolu və bu sahədə mövcud çağırışlara toxunub.

Eyni zamanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə əlaqədar olaraq Azərbaycan Memarlıq və İnşaat Universitetinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nicat Abdullayev "2026-cı il 'Şəhərsalma və Memarlıq İli' kontekstində ictimai kommunikasiya və media savadlılığı" mövzusunda təqdimatla çıxış edərək, müasir kommunikasiya mədəniyyətinin formalaşmasında media savadlılığının rolunu qeyd edib.

Bundan əlavə, "Sosial məsələlərin həllinə dəstək" İctimai Birliyinin sədri Nərmin Daşdəmirbəyli media, dövlət və vətəndaş cəmiyyəti münasibətləri, ictimai faydalı təşəbbüslərin təşviqində informasiya platformalarının rolu və sosial məsuliyyət prinsipləri barədə çıxış edib.

Treninq interaktiv formada keçib, mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazov Quba Rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Energetika Nazirliyindən bildirilib ki, vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, küçə işıqlandırılması, qeyri-yaşayış obyektinin qazlaşdırılması, elektrik dirəklərinin yerinin dəyişdirilməsi, mühafizə zonaları, sayğacların quraşdırılması, elektrik təsərrüfatının yenilənməsi, elektrik enerjisi və qazdan istifadəyə görə borcun yaranması, elektrik enerjisinin keyfiyyəti, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib.

Qaldırılan məsələlərin mövcud qanunvericiliyə uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Quba, Qusar və Xaçmaz rayonlarından olan 43 vətəndaş iştirak edib.

* * *

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov fevralın 20-də Ucar Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Ucar, Ağdaş, Göyçay, Kürdəmir, Yevlax, Mingəçevir və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciətləri əsasən işlə təmin edilmə, subsidiyaların verilməsi, aqrar sığorta, pambıq tədarükçüləri ilə bağlı məsələlər, torpaqların icarəyə verilməsi, suvarma suyu ilə təminat və digər məsələlərlə bağlı olub.

Məcnun Məmmədov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Bərdədə vətəndaşların müraciətlərini dinləyib.

Görüş zamanı Bərdə və Tərtər rayon sakinlərinin müraciətləri dinlənilib. Müraciətlər arasında alimentin ödənilməsi, hüquqi yardım, övladının müalicəsi, ailədaxili münasibətlər, uşaqla ünsiyyət, məişət zorakılığı, sosial müavinət və digər məsələlər yer alıb.

Hər bir müraciət dinlənilib, qaldırılan məsələlərin qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Həlli araşdırma tələb edən müraciətlər qeydiyyata alınaraq nəzarətə götürülüb.

***AZƏRTAC***

# Azərbaycan-Türkiyə strateji müttəfiqliyi Orta dəhlizin inkişafında həlledici amildir

**"Azərbaycanın Cənubi Qafqazda nəqliyyat imkanlarını sistemli şəkildə genişləndirməsi regionun geoiqtisadi xəritəsini dəyişir və yeni əməkdaşlıq mərhələsinin əsasını qoyur".**

Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli siyasi ekspert Cafer Dal bildirib.

Onun sözlərinə görə, Azərbaycan son illərdə həyata keçirdiyi infrastruktur layihələri ilə "Şərq-Qərb" və "Şimal-Cənub" istiqamətlərində etibarlı tranzit mərkəzinə çevrilib. Xüsusilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti regionun logistika imkanlarını keyfiyyətcə yeni mərhələyə daşıyıb.



"Ələt limanı Xəzər hövzəsində multimodal daşımaların əsas qovşağına çevrilib. Bu, Orta dəhliz üzrə yüklərin daha sürətli və təhlükəsiz daşınmasını təmin edir. Bakı-Tbilisi-Qars xətti isə Asiya ilə Avropa arasında alternativ və sabit marşrut kimi strateji əhəmiyyət qazanıb. Orta dəhlizin güclənməsi təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün yeni iqtisadi imkanlar yaradır. Türkiyə bu prosesdə həm coğrafi, həm də siyasi baxımdan əsas tərəfdaşdır. Türkiyə Avropaya açılan əsas qapıdır. Azərbaycanın təşəbbüsləri Türkiyənin inkişaf etmiş liman infrastrukturu və dəmir yolu şəbəkəsi ilə birləşərək Avrasiya məkanında alternativ və rəqabətqabiliyyətli nəqliyyat xətti formalaşdırır. Bu, qlobal təchizat zəncirlərində yaranan dəyişikliklər fonunda xüsusilə aktuallaşıb", - deyə ekspert bildirib.

Cafer Dalın sözlərinə görə, Azərbaycan ilə Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi strateji tərəfdaşlığı daha da möhkəmləndirib, nəqliyyat, logistika və infrastruktur sahələrində əməkdaşlığı institusional çərçivəyə salıb: "Şuşa Bəyannaməsi iki qardaş ölkənin münasibətlərini müttəfiqlik səviyyəsinə yüksəldib. Bu sənəd regionda uzunmüddətli sabitlik və iqtisadi inteqrasiya üçün mühüm zəmin yaradır. Nəqliyyat əlaqələrinin genişlənməsi isə sülh gündəliyinə real iqtisadi məzmun verir. Azərbaycanın nəqliyyat imkanlarının genişləndirilməsi qeyri-neft sektorunun inkişafına, sənaye zonalarının və logistika mərkəzlərinin formalaşmasına, eləcə də xarici investisiyaların artmasına təkan verir. Türkiyə ilə koordinasiyalı fəaliyyət isə bu layihələrin dayanıqlığını təmin edir və beynəlxalq tərəfdaşların etimadını gücləndirir. Azərbaycan-Türkiyə tandemi Cənubi Qafqazı qlobal logistika sistemində mühüm halqaya çevirir. Bu əməkdaşlıq modeli yalnız iki ölkənin deyil, bütövlükdə Avrasiya məkanının iqtisadi sabitliyinə və inteqrasiyasına xidmət edir".

# Azərbaycanın xarici siyasətinin uğurları




## Azərbaycan-ABŞ: siyasi və iqtisadi münasibətlər strateji səviyyəyə çatıb

**Məlum olduğu kimi, bu il fevralın 19-da Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Sülh Şurasının ilk iclası keçirilib. Ölkəmizin Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampın dəvəti ilə həmin iclasda iştirak edib.Bu hadisənin özü də Azərbaycanın və dövlətimizin başçısının dünyada sayılıb-seçildiyindən, hörmət və söz sahibi olduğundan xəbər verir.**

Son dövrdə Azərbaycan-ABŞ münasibətləri öz dinamik inkişafı baxımından diqqət mərkəzindədir. Doğrudur, ABŞ Azərbaycanın müstəqilliyini 1991-ci ildən tanıyıb və həmin vaxtdan ölkələrimiz arasında diplomatik münasibətlər qurulub. Ötən illərdə əlaqələr siyasi, iqtisadi, enerji, təhlükəsizlik və humanitar sahələri əhatə edən çoxşaxəli əməkdaşlığa çevrilib. Konkret olaraq iqtisadi münasibətlərə gəldikdə, ABŞ Azərbaycanın mühüm tərəfdaşlarından biri hesab olunur. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi təxminən 1,56 milyard dollar təşkil edib.

ABŞ və Azərbaycan arasında iqtisadi əlaqələr, əsasən, enerji, investisiya və ticarət sahələrini əhatə edən strateji tərəfdaşlıq səviyyəsindədir. ABŞ ölkəmizin ən böyük xarici investorlarından biri və Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Bu ölkə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndən üzübəri neft-qaz sektoruna, həmçinin Orta dəhliz, rəqəmsallaşma və bərpaolunan enerji layihələrinə dəstək verir.

Belə ki, ABŞ "Azəri-Çıraq-Günəşli" və "Cənub qaz dəhlizi" layihələrində yaxından iştirak edərək Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm rolunu dəstəkləyir. Bu ölkənin şirkətləri Azərbaycanda 250-dən çox layihədə, xüsusən neft-qaz və qeyri-neft sektorlarında fəal investor kimi çıxış edirlər. İmzalanan "Strateji Tərəfdaşlıq Xartiyası" iqtisadiyyat, investisiya, texnologiya, süni intellekt, nəqliyyat və logistika sahələrində əməkdaşlığı yeni mərhələyə qaldırıb. İkitərəfli ticarət dövriyyəsinin genişləndirilməsi və Orta dəhliz çərçivəsində nəqliyyat-logistika əlaqələrinin inkişafı əsas prioritetlərdir.

Xatırladaq ki, keçən il avqustun 7-də Prezident İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "ExxonMobil" arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Bu, iki ölkə arasında enerji əməkdaşlığının inkişaf perspektivlərindən xəbər verir.

Onu da qeyd edək ki, ABŞ-nin "ExxonMobil" şirkəti ölkəmizdə xeyli vaxtdır yaxşı tanınır. Bu şirkət Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsinin iştirakçısıdır. Başqa sözlə, o, "Əsrin müqaviləsi"nin irəliyə doğru addımladığı, nailiyyətlər əldə etdiyi illərdə Azərbaycanda olub.

"ExxonMobil" bu gün də AÇG-nin səkkiz iştirakçısından biridir və layihədə sanballı, yəni 6,79 faizlik paya malikdir. Bu şirkət eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin səhmdarlarından biridir və burada 2,5 faizlik payla iştirak edir. Əslində, bunlar şərhə ehtiyacı olmayan faktlardır. Çünki istər AÇG, istərsə də BTC ölkəmizin yaratdığı etibarlı əməkdaşlıq və tərəfdaşlıq sayəsində gerçəkləşdirilən önəmli layihələrdir.

Bu yaxınlarda Azərbaycana səfər ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində ölkəmizlə sıx əməkdaşlıq qurmuş dünyaşöhrətli şirkətlərin rəhbər şəxsləri də vardı. Onlar enerji, texnologiya, qida məhsulları, nəqliyyat və digər sahələri təmsil edirdilər. Ümumilikdə, Azərbaycana səfərə 31 şirkətdən 60 nəfər nümayəndə gəlmişdi. Nümayəndə heyətinə Palatanın Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel, həmçinin "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes" "Boeing Global", "Honeywell", "J.P.Morgan" və digər şirkətlərin rəhbər şəxsləri daxil idi.

Sözügedən nümayəndə heyətini qəbul edərkən dövlətimizin başçısının dedikləri əməkdaşlığın böyük perspektivlərindən xəbər verir: "Keçən ilin avqust ayında Vaşinqtonda mənim Prezident Trampla görüşümdən qaynaqlanan ABŞ-Azərbaycan münasibətlərinin fəal inkişaf etdiyi bu mərhələdə əməkdaşlıq etdiyimiz sahələrin diapazonunu genişləndirəcəyimiz də təbiidir. Keçən ilin avqust ayında biz Prezident Trampla Azərbaycan və ABŞ arasında "Strateji Tərəfdaşlıq Xartiyası"nın hazırlanması üzrə sənədi imzaladıq və burada xüsusi bəndlər var. O vaxtdan bəri mən ticarət, iqtisadiyyat, investisiyalar, enerji, süni intellekt, müdafiə sənayesində əməkdaşlıq və digər sahələri müzakirə etmək üçün Vaşinqtona hökuməti təmsil edən dörd nümayəndə heyətini göndərdim. Hökumət rəsmiləri arasında çoxsaylı təmaslar olmuşdur .Beləliklə, enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var və yeri gəlmişkən, siz bizim hökuməti təmsil edən nümayəndə heyətlərinin birinin səfəri zamanı bu barədə qeydlərinizi bildirdiniz. Rabitə, süni intellekt, data mərkəzlərinin yaradılması sahəsində fəaliyyət göstərən şirkətlərlə geniş bir görüş oldu. İndi bu, bizim üçün prioritet məsələlərdən biridir".

ABŞ-Azərbaycan iqtisadi əməkdaşlığı getdikcə daha çox sahəni və daha çox şirkəti əhatə edir. Məsələn, "Visa" şirkətinin baş vitse-prezidenti, MDB və Cənubi və Şərqi Avropa regionu üzrə meneceri Kristina Doros artıq 30 ildir ki yerli banklarla səmərəli əməkdaşlıq həyata keçirdiklərini bildirib. O vurğulayıb ki, təmsil etdiyi şirkət Azərbaycanda qabaqcıl, təhlükəsiz və inklüziv ödəniş sisteminin inkişafı ilə bağlı layihələr həyata keçirir. Kristina Doros "Azərbaycan 2030" Strategiyası çərçivəsində milli prioritetlər üzərində işlə bağlı Azərbaycan hökuməti ilə əməkdaşlıq və tərəfdaşlığa görə minnətdarlığını ifadə edib.

ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin Bakıda dövlətimizin başçısı ilə görüş zamanı dediyi bu sözlər də iqtisadi əməkdaşlığın daha yüksək səviyyəyə çatacağına inam yaradır: "Adətən biznes əlaqələri siyasi əlaqələrdən daha sürətli inkişaf edir. Ancaq burada bir az qeyri-adi olan odur ki, siyasi münasibətlər iqtisadi əlaqələri üstələyir. Buna baxmayaraq, şirkətlər sürətlə hərəkət edir və biz tezliklə lazımi səviyyəyə çıxacağıq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## İlham Əliyevin sülh formulunun ABŞ tərəfindən dəstəklənməsi tarixi-siyasi hadisədir

**Prezident İlham Əliyevin Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Prezident Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfəri mühüm əhəmiyyət kəsb edir. Sülh Şurasının ilk iclasında Donald Tramp tərəfindən Azərbaycan Prezidentinin Cənubi Qafqazda nail olduğu reallığın bir daha gündəmə gətirilməsi və İlham Əliyevin sülh formulunun dünyanın birnömrəli güc mərkəzi tərəfindən dəstəklənməsi tarixi-siyasi hadisədir. Konseptual təhlil etsək, bu, ilk növbədə Azərbaycanın yaratdığı hərbi-siyasi reallığın özünü doğrultması deməkdir.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, xüsusən Əfqanıstan, İraq, Liviya və Suriyaya müdaxilə təcrübəsi hərbi yolla sülh əldə edilə bilməyəcəyi konseptini ortaya qoymuşdu: "Lakin cənab İlham Əliyev qlobal məzmunda bu gedişatı dəyişdi və mütləq hərbi-siyasi qələbə ilə dayanıqlı sülh üçün elə bir zəmin formalaşdırdı ki, bu, digər coğrafiyalar üçün də nümunəyə çevrildi. Əminliklə deyə bilərik ki, Prezident Tramp da beynəlxalq sülh quruculuğu prosesində məhz Azərbaycandan ilhamlanıb. Ümumiyyətlə, hazırkı mərhələdə ABŞ-Azərbaycan münasibətləri azad, praqmatizmə və qarşılıqlı maraqlara söykənən dinamik inkişaf xətti ilə xarakterizə olunur ki, bu da Azərbaycan Respublikasının xarici siyasət prioritetlərinə tam cavab verir".

Deputat qeyd edib ki, Azərbaycanın Konstitusiyası qəbul edilərkən xalqımız özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq və ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı özünün ali niyyətlərindən biri kimi bəyan edib. Başqa dövlətlərlə münasibətlərin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında qurulmasını konstitusion qaydada təsbit edən Azərbaycanın xarici siyasəti beynəlxalq hüququn bütün subyektləri ilə bərabərhüquqlu və faydalı əlaqələr qurmaq məqsədi daşıyır. Bu əlaqələr həm ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də iqtisadiyyat, elm və mədəniyyəti inkişaf etdirmək üçün səmərəli istifadə edilir. Konstitusiyanın 9-cu maddəsinə əsasən, müharibəni beynəlxalq münaqişələrin həlli üsulu kimi rədd edən Azərbaycanın sülhsevər siyasəti, ilk növbədə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edir. "29 dekabr 2000-ci ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciətində deyib: "Amerika Birləşmiş Ştatları kimi iri dövlətlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir". Məhz bu ideya rəhbər tutularaq, Azərbaycan ABŞ ilə milli maraqların təmini və qarşılıqlı faydalı tərəfdaşlıq formatında münasibətlərin qurulmasında maraqlı olub", - deyə o bildirib.

B.Məhərrəmov vurğulayıb ki, ABŞ Prezidentinin Sülh Şurasının iclasında Azərbaycan və Ermənistan liderlərinə regionda yaranan sülhə görə təşəkkür etməsi Bakı və Vaşinqton arasındakı münasibətlərin ən uğurlu dövrünə qədəm qoyduğunu göstərir: "Xüsusən ötən ilin avqustunda Prezident İlham Əliyevin Donald Tramp tərəfindən Vaşinqtona dəvət olunması, avqustun 8-də imzalanan ikitərəfli Bəyanat və strateji müttəfiqlik iradəsi ABŞ-Azərbaycan əlaqələrində tam yeni bir səhifədir. Demokratların hakimiyyəti dövründə, cənab İlham Əliyevin də ifadə etdiyi kimi, münasibətlər demək olar ki, sıfırlanmışdı. Bayden-Blinken administrasiyasının regiona erməni lobbisinin prizmasından baxması ABŞ-nin Cənubi Qafqazdakı mövqeyinə mənfi təsir göstərmişdi. Lakin cənab Trampın gəlişi ilə vəziyyət müsbət istiqamətdə dəyişdi. Vaşinqton artıq anladı ki, bu bölgədə maraqlarını yalnız Azərbaycanla bərabərhüquqlu tərəfdaşlıq vasitəsilə təmin edə bilər".

Deputat bildirib ki, Sülh Şurası iclasından sonra bir qrup antimilli ünsürün təxribat cəhdi və Frenk Pallone kimi şəxslərin bu prosesə cəlb olunması Azərbaycanın inkişafından narahat olan qüvvələrin acizliyini göstərir. Prezident İlham Əliyevin simasında milli iradənin hakim olduğu Azərbaycana kənardan diktə etməyin mümkün olmadığını görən bu qüvvələr çarəni cılız gedişlərdə görürlər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Dünya diplomatiyasında yeni səhifə - Sülh Şurası

### Azərbaycanın Sülh Şurasında təsisçi dövlət kimi təmsil olunması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir

**Dünyada cərəyan edən proseslər göstərir ki, artıq Birləşmiş Millətlər Təşkilatı (BMT) münaqişələrin qarşısının alınması və onların effektiv həlli istiqamətində gözlənilən siyasi iradəni və təsir imkanlarını tam şəkildə ortaya qoya bilmir. İllərlə uzanan müharibələr, dərinləşən humanitar böhranlar və nəticəsiz diplomatik müzakirələr beynəlxalq ictimaiyyətdə narazılığı gücləndirib. Bu gün dünyada 60-dan artıq aktiv münaqişə ocağının mövcudluğu, o cümlədən Qəzza zolağı ətrafında baş verən hadisələr və Rusiya-Ukrayna müharibəsinin davam etməsi beynəlxalq təhlükəsizlik mexanizmlərinin effektivliyinin ciddi suallar doğurduğunu göstərir və mövcud sistemin qlobal çağırışlara adekvat cavab verməkdə çətinlik çəkdiyini ortaya qoyur.**

Məhz bu reallıqlar fonunda Donald Tramp administrasiyası tərəfindən alternativ sülh mexanizmi kimi Sülh Şurası təşəbbüsü irəli sürüldü. 2026-cı il yanvarın 15-də ABŞ Prezidentinin təşəbbüsü və təklifi ilə təsis edilən bu qurum mövcud mexanizmlərin səmərəsizliyi fonunda daha operativ və siyasi iradəyə əsaslanan platforma kimi təqdim olunur. Bu, beynəlxalq siyasətdə yeni bir səhifənin açılması deməkdir. Dövlətlərarası münaqişələrin həllində ənənəvi qurumlara alternativ olaraq yaradılan Sülh Şurası dünya səviyyəsində sabitliyin təmin edilməsi, qanuni və etibarlı idarəetmənin bərpası, münaqişələrdən zərər çəkmiş bölgələrdə dayanıqlı sülh proseslərinin dəstəklənməsi məqsədilə fəaliyyət göstərən beynəlxalq təşkilatdır.

Təşəbbüsün müəlliflərinə görə, ənənəvi çoxtərəfli institutların mürəkkəb prosedurları böhranlara tez və təsirli cavab verməyə mane olur. Sülh Şurası isə özünü münaqişələrin yalnız diplomatik bəyanatlarla deyil, konkret siyasi, yaradıcı və praktiki addımlarla həllinə yönəlmiş mexanizm kimi təqdim edir. Xüsusilə uzunmüddətli regional münaqişələrin həllində diplomatik proseslərin ləngiməsi, veto mexanizmlərinin qərarların qəbuluna təsiri və bəzi hallarda siyasi maraqların humanitar prioritetləri üstələməsi yeni təşəbbüsə zəmin yaradıb. Bu baxımdan şuraya daha çevik, siyasi iradəyə əsaslanan və birbaşa icra mexanizmləri ilə işləyən alternativ institut demək olar.

Sülh Şurası konsepsiyasının praktik tətbiqi Şarm əl-Şeyx şəhərində keçirilən sammitlə başlanıb. Həmin toplantıya Prezident İlham Əliyevin dəvət olunması isə Azərbaycanın beynəlxalq sülh təşəbbüslərində artan rolunun göstəricisidir. Sammit çərçivəsində Qəzza zolağında hərbi əməliyyatların dayandırılması və qan tökülməsinin qarşısının alınması təmin olunub, humanitar sahədə isə əsir və girovların qaytarılması prosesi həyata keçirilib. Onu da qeyd edək ki, təşəbbüs beynəlxalq gündəmdə geniş rezonans doğurub və birmənalı qarşılanmayıb. Bir sıra dövlətlər və siyasi dairələr bu yeni platformanı ehtiyatla izləyir, onun mövcud beynəlxalq institutların roluna, qərarvermə balansına və qlobal təhlükəsizlik sisteminə təsir göstərə biləcəyinə şübhə edirlər. Xüsusilə Avropa qrupu və Çin tərəfindən təşəbbüsün çoxtərəfli diplomatiyanın gələcəyinə mümkün təsirləri ilə bağlı suallar səsləndirilir: Sülh Şurası yalnız Qəzza böhranının idarə olunması üçün yaradılmış situativ mexanizmdir? Onun qlobal miqyasda digər münaqişələrin həllində ənənəvi institutlara alternativ, hətta onları əvəzləyən yeni beynəlxalq təhlükəsizlik platformasına çevriləcəyinə inanmaq olarmı?

Bu kimi suallar, eləcə də bənzər müzakirələr və beynəlxalq maraq fonunda qurumun fəaliyyətinin genişləndirilməsi və yeni üzvlərin cəlb edilməsi təşəbbüsü irəli sürülüb. Sülh Şurasına qoşulmaq üçün dövlətlərə açıq çağırış olunub. Müraciətə cavab olaraq Azərbaycan quruma yaradıcı üzv statusu ilə qoşulub. Ölkəmizin Sülh Şurasının təsisçilərindən biri kimi iştirakı beynəlxalq münasibətlər sistemində artan siyasi çəkisini və qlobal proseslərdə etibarlı tərəfdaş kimi qəbul edilməsini nümayiş etdirir. Azərbaycan Sülh Şurasına qoşularaq onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz gələcək qurulması kimi nəcib missiyanı paylaşacaq.

Sülh Şurasında təsisçi kimi təmsil olunması təbii ki, ölkəmizin qlobal təhlükəsizlik və diplomatiya proseslərində etibarlı tərəfdaş olmasından irəli gəlir. Bu addım göstərir ki, Azərbaycan artıq yalnız regional təşəbbüslərlə kifayətlənmir, qlobal sülhün tənzimlənməsində söz sahibi olan ölkələr sırasında yer alır. Şurada təmsilçilik Bakıya beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşmasında daha fəal iştirak imkanı verir və ölkəmizin ədalətli mövqeyə, beynəlxalq hüquqa və suverenliyə əsaslanan siyasətinin qəbul olunduğunu nümayiş etdirir. Münaqişədən sonrakı dövrdə sülh təşəbbüslərini prioritet edən qarşıdurma yox, əməkdaşlıq xəttini seçən Azərbaycan üçün bu üzvlük yeni siyasi mərhələnin başlanğıcıdır və ölkəmizin qlobal sülh və təhlükəsizlik proseslərində aparıcı tərəflərdən birinə çevrilməsini sürətləndirir.

Ölkəmizin Sülh Şurası çərçivəsində önə çıxmasının əsas səbəblərindən biri Ermənistanla sülh gündəliyinin irəli aparılması sahəsində ortaya qoyduğu nümunəvi modeldir. Bu modelin regionda uzun illər davam edən münaqişənin Prezident İlham Əliyevin liderliyi ilə həllində önəmli rolu olub. Qlobal səviyyədə isə bu təcrübə dövlətin öz suverenliyi və beynəlxalq hüquq çərçivəsində sülhə nail olmasının nadir və nümunəvi hallarından biri kimi qiymətləndirilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# 21 Fevral Beynəlxalq Ana Dili Günüdür

# Siyasət dili, dil siyasəti

**Cəmiyyətin nəsildən-nəslə ötürdüyü inanc, bilik və təcrübələr olan mədəniyyət insanların aşkar etdiyi və içində öz varlığını davam etdirdiyi bütün reallıqları göstərir. Mədəniyyətin bir millətin sahib olduğu maddi və mənəvi dəyərlərdən ibarət bir bütöv olduğunu düşünsək, deyə bilərik ki, cəmiyyətdəki hər cür biliklər, maraqlar, vərdişlər, dəyər mühakimələri, ümumi münasibətlər sistemi, fikirlər, düşüncələr, davranış kodeksləri və formaları mədəniyyəti təşkil edən elementlərdir.**

Bu elementlərin başında, əlbəttə ki, cəmiyyətin ümumi ünsiyyətinə xidmət edən dil dayanır. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda milli ideoloji siyasətin, sosial-hüquqi tənzimləmənin və ictimai şüurun formalaşmasının ən canlı, dinamik mexanizmidir: kommunikativ olaraq dil fərdlər və sosial qruplar arasında informasiya mübadiləsini təmin edir, ictimai münasibətlərin koordinasiyasına xidmət göstərir və sosial zümrələrin, qurumların fəaliyyətini yönləndirir. Bu funksiya təbii olaraq dilin normativliyini, anlaşıqlılığını və funksional çevikliyini önə çıxarır. Bu prizmadan yanaşdıqda deyə bilərik ki, ideoloji baxımdan dil həm də cəmiyyətin dəyərlər sistemini, siyasi prioritetlərini və milli kimlik şüurunu, identiklik təsəvvürlərini kodlaşdıran əsas faktordur. Hakim ideyalar, siyasi baxışlar və mədəni-sosial modellər dil vasitəsilə formalaşır, legitimləşir və nəsildən-nəslə ötürülür. Bununla da dil kommunikativ funksiyası ilə cəmiyyətin struktur bütövlüyünü təmin edir, ideoloji funksiyası ilə sosial-mənəvi yüksəlişə zəmin yaradır, millətin, xalqın mental şüurunu yönləndirir.

Sovetləşmədən əvvəl də, sonra da, elə sovetlər birliyinin qılıncının ən kəskin vaxtlarında da Azərbaycan dili siyasi elitanın və cəmiyyətin toxunulmazı, müqəddəsi olmuşdur. Tarixboyu müxtəlif dövlətlər quran Azərbaycan xalqı üçün dil həmişə mübarizənin və ideologiyanın mərkəz xətti, birləşdirici faktoruna çevrilmişdir. Sovet İttifaqının "çiçək"ləndiyi, artıq öz siyasi xəttini bütün regionda bərqərar etdiyi "ən gözəl vaxtlarında" da Azərbaycan ictimaiyyəti üçün dil məsələsi xüsusi məsələ olmuşdur. 1960-cı illərdə respublika rəhbərliyində baş verən dəyişikliklər, milli-mənəvi dəyərləri siyasi fəaliyyətinin mərkəzinə qoyan fenomen şəxsin hakim mövqeyə keçməsi Azərbaycan dilinin ictimai-siyasi statusunda çox böyük və mütərəqqi bir keyfiyyət dönüşü yaratdı. 1969-1978-ci illər Azərbaycan siyasi tarixində Heydər Əliyevin siyasət maneralarının ən aydın şəkildə müşahidə olunduğu mərhələdir, o mərhələ ki siyasətin dili ilə ən yüksək səviyyədə dil siyasəti yürüdülürdü. Bu dövr SSRİ-nin mərkəzləşdirilmiş idarəetmə mexanizminin sərt ideoloji nəzarəti altında keçsə də, respublika daxilində milli-mənəvi maraqların qorunması məhz özünəməxsus siyasət dili ilə mümkün olmuşdur. Heydər Əliyevin siyasi davranış modeli bu mərhələdə açıq konfrontasiyadan uzaq, lakin məqsədyönlü və ardıcıl milli strategiya üzərində qurulmuşdur. Hətta 1970-ci illərin əvvəllərində respublikada kadr siyasətində aparılan dəyişikliklər də bu siyasətin praktik təzahürü idi.



Milli kadrların irəli çəkilməsi "milliləşdirmə" şüarı altında deyil, "peşəkarlıq", "təsərrüfatçılıq", "yerli xüsusiyyətlərin nəzərə alınması" kimi neytral yanaşmaya əsaslandırılırdı. Və belə bir dövrdə Azərbaycan dili tədricən rəsmi nitqin, siyasi diskursun mühüm elementinə, dövlətin siyasətinin dilinə çevrilirdi. Bu siyasi dillə bir çox mətləb Ümummilli Lider Heydər Əliyevin - birinci şəxsin dilindən ən yuxarı kürsülərdə ifadə olunurdu. Dövlət başçısının siyasət dili siyasi səriştə, uzaqgörənlik və "harada nəyi necə demək lazımdır" düsturu kontekstindəki bacarığı ilə ifadə oluna bilər. Burada "siyasət dili" anlayışı klassik mənada yalnız siyasi ritorika və ya rəsmi nitq üslubu kimi deyil, siyasi manevr qabiliyyətinə əsaslanan diskurs strategiyası kimi başa düşülməlidir. Çünki söhbət sərt ideoloji və inzibati təzyiq mühiti şəraitində dövlətin milli-mənəvi maraqlarının qorunmasına xidmət edən, açıq qarşıdurmaya girmədən məqsədyönlü nəticə əldə etməyə imkan verən siyasi davranış modelindən gedir ki, bu cəhət bütün tərəfləri ilə Ümummilli Liderin fəaliyyətinin tablosudur. Heydər Əliyevin siyasətində dil açıq mübarizə vasitəsi deyil, siyasi çeviklik və strateji susma-danışma balansının ifadəsi kimi çıxış edirdi. Dahi Liderin siyasət dili birbaşa müqavimət və ya açıq etiraz formasında deyil, xüsusi diskurs, simvolik jestlər, seçilmiş xüsusi leksik vahidlər və situativ mətn vasitəsilə özünü büruzə verirdi. Yəni milli maraqların müdafiəsi ölkə başçısının siyasi dili ilə təmin edilirdi: bir tərəfdən mərkəzi hakimiyyətə balanslı münasibət nümayiş etdirilir, digər tərəfdən isə milli-mənəvi dəyərlər rəsmi diskurs daxilində semantik kodlarla qorunurdu. Bu yanaşma, təbii ki, Ümummilli Liderin siyasi kompromisi yox, strateji davranış forması idi və dövlətçilik düşüncəsinin gələcək mərhələləri üçün ideoloji zəmin yaradırdı.

Beləliklə, xalqın milli ruhu, estetik dünyagörüşü və etnopsixoloji təfəkkürü dil vasitəsilə rejimin sərt ideoloji qəlibləri daxilində ciddiyyətlə, ehtiramla qorunur və gələcəyə ötürülürdü. Bu mərhələdə formalaşan siyasi dil açıq siyasi müstəqillik iddiası irəli sürməsə də, gələcək müstəqil dövlətçilik konsepsiyasının şüuraltı əsaslarını hazırlayırdı. Ana dilində qurulan rəsmi-siyasi diskurs milli özünüdərk prosesini dərinləşdirir, dilin yalnız mədəni deyil, həm də siyasi kapital olduğunu nümayiş etdirirdi. Məhz bu kontekstdə 1975-1978-ci illərdə Heydər Əliyevin siyasət dili artıq daha açıq simvolik məna kəsb etməyə başladı. Azərbaycan dili sistemli şəkildə siyasi idarəetmənin legitim, hüquqi dili statusunu qazanmış, formal-şablon siyasi dil xarakterindən çıxaraq, milli məzmun daşıyan ideoloji silaha çevrilmişdi. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddə redaktə olunmuş və Ulu Öndərin təşəbbüsü ilə 27 aprel 1978-ci il tarixdə Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsi əlavə olunmuşdur. Bu addım emosional ritorika və ya kəskin siyasi tələb şəklində irəli sürülməmişdi. Əksinə, çox böyük siyasi məharətlə "sosialist xalqlarının bərabərliyi", "milli mədəniyyətlərin inkişafı" kimi ümumittifaq ideologiyası çərçivəsində təqdim olunmuşdu. Lakin bu addım təbii ki, mərkəzin də anladığı kimi rejimin dil siyasətinin ciddi ideoloji korrektəsi idi. Nəticə etibarilə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi yalnız hüquqi akt deyil, siyasi xarakterli strateji qələbə kimi qiymətləndirilməlidir.

Ulu Öndərin siyasət dili mədəni-ictimai, əxlaqi-mənəvi dəyərlərin legitimləşdirilməsi baxımından da mühüm rol oynayırdı. Milli tarixə, mədəni irsə, mənəvi ənənələrə istinad edən leksik-semantik vahidlərin rəsmi-siyasi nitqə daxil edilməsi dilin ideoloji funksiyasını gücləndirdi: "Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." "Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngin, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtyatına malikdir" deyən müdrik Liderin istənilən auditoriyada çıxışı, nitqi, müraciətləri bu xəttin aynası idi.

Heydər Əliyevin ikinci hakimiyyəti dövründə də bu siyasət ən yüksək, ən ali səviyyədə davam etdirilmişdir. 1995-ci il oktyabrın 31-də Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən və Azərbaycan dilinin dövlət dili kimi adlandırılması məsələsinə həsr olunmuş geniş müşavirə dil siyasətinin necə incə siyasi balans və manevr tələb edən sahə olduğunu aydın şəkildə nümayiş etdirdi. Müzakirələrdə səslənən dörd fərqli mövqe - "Azərbaycan dili", "Azərbaycan türk dili (Azərbaycan türkcəsi)", "Azərbaycan dili (Azərbaycan türkcəsi)" və "Türk dili" təkcə terminoloji fərqləri deyil, eyni zamanda milli kimlik, tarixi yaddaş və siyasi status arasında cəmiyyətdə mövcud olan gərginliyi və ziddiyyətləri əks etdirirdi. Belə bir həssas məqamda Ulu Öndərin mövqeyi xüsusi əhəmiyyət kəsb edirdi. Məhz dil məsələsinə xüsusi həssaslıqla yanaşan Heydər Əliyev müşavirədə bütün çıxışlara, mülahizə və fikirlərə, əsaslandırmalara diqqətlə qulaq asaraq son nöqtəni məntiqi, tarixi və bütün zamanlar üçün qəbul ediləcək bir şəkildə qoydu. Heydər Əliyev problemi emosional və ya ideoloji kəskinlik müstəvisinə daşımadan, onu rasional və milli dövlətçilik çərçivəsində ümumiləşdirdi. Onun vurğuladığı əsas prinsiplər: ana dilinin adının müasir ictimai şüur üçün aydın olması; ölkə-xalq-dil adları arasında məntiqi bağlılığın qorunması; milli müstəqilliklə milli mənlik qürurunun zədələnməməsi kimi prinsiplər dil məsələsinin təkcə mədəniyyət hadisəsi kimi deyil, strateji siyasi məsələ kimi dərk edilməli olduğunu göstərirdi. 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman isə Heydər Əliyevin həyata keçirdiyi dil siyasətinin konseptual yekunu və sistemli nəticəsi idi.

Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan bu siyasət modeli bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən sədaqət və ehtiramla, qloballaşma və multikultural şəraitə uyğun şəkildə davam etdirilir. 2003-cü ildən sonra siyasət dili yeni bir hüquqi şəraitdə fərqli məzmun kəsb edir. Prezident İlham Əliyevin siyasi maneralarında rasional arqumentasiya, hüquqi əsaslandırma və diplomatik diskurs üstünlük təşkil edir. Prezident və Ali Baş Komandan olaraq nitqlərində siyasi dil həm milli identiklik rəmzi, həm Ali Baş Komandan-ordu xitabət dili, həm müharibə ölkəsinin rəhbərinin diskursu, həm də beynəlxalq auditoriya üçün anlaşıqlı siyasi mesajların daşıyıcısı kimi çıxış edir. Bu xüsus daxili idarəetmədə effektivlik yaratmaqla bərabər, beynəlxalq müstəvidə dövlətin legitim haqqını ifadə edir. Beləliklə, siyasi maneralar vasitəsilə beynəlxalq tərəfdaşlarla ortaq diskurs yaradılır, daxildə isə dövlət idarəçiliyinin ideoloji və hüquqi əsasları möhkəmləndirilir.

İlham Əliyevin prezidentliyi dövründə qəbul olunan qanunlar, imzalanan sərəncamlar, fərmanlar və təsdiqlənən proqramlar Azərbaycan dilinə münasibətin ardıcıl, sistemli və strateji xarakter daşıdığını aydın şəkildə nümayiş etdirir. Qəbul edilən bu dövlət sənədləri göstərir ki, dil siyasəti təkcə mədəni-humanitar sahə kimi deyil, dövlətçiliyin mühüm dayağı, milli təhlükəsizlik və suverenliyin əsas komponentidir.

2004-cü ildən etibarən qəbul edilən sənədlər dövlət dilinin tətbiqinin praktik mexanizmlərini genişləndirməyə yönəlmişdir. Dil siyasətinin praktik mərhələsi 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və 13 yanvar tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" sərəncamlar daha geniş vüsət aldı. Sonrakı illərdə qəbul edilmiş "Dünya ədəbiyyatı kitabxanası", "Dünya uşaq ədəbiyyatı kitabxanası" və "Azərbaycan ədəbiyyatı kitabxanası" layihələri dövlət dilinin mədəni və intellektual mühitdə tətbiq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Xüsusilə vurğulanması lazım olan məqam 2012-ci il 23 may tarixli dövlət proqramıdır. Bu dövrdən başlayaraq dil siyasətində yeni - həm konseptual, həm də elmi-nəzəri, praktik dönəm başlayır. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə dair Dövlət Proqramı"nda dilin tarixi əsaslarının elmi cəhətdən araşdırılması, milli dövlətçilik və qloballaşma mühitində ideoloji olaraq uyğun olmayan konsepsiyalara son qoyulması, dilin söz xəzinəsinin, xüsusi qat olan terminlərin sistemləşdirilməsi və dilçiliyin inkişafı əsas prioritetlər kimi təsbit olunur. Həmin proqram çərçivəsində Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının fəaliyyəti gücləndirilir.

2013-2018-ci illər ərzində qəbul edilən sərəncamlar isə bir növ dövlətin dil siyasətində artıq nəzarət, tənzimləmə və mühafizə mərhələsinə keçdiyini göstərir. Belə ki, dövlətin dil siyasətində nəzarət və mühafizə mexanizmlərinin tətbiqi 9 aprel 2013-cü il tarixli dövlət proqramı, 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi haqqında" sərəncam və 1 noyabr 2018-ci il tarixli "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadəsinin daha da təkmilləşdirilməsi haqqında" fərmanla təsbit edilir. Xüsusilə KİV-də, reklam məkanında, elektron mühitdə ədəbi dil normalarının qorunması, bu məqsədlə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması dövlətin dilin saflığına münasibətini, müdaxiləsini inzibati və hüquqi mexanizmlərlə də təmin etdiyini göstərir.

2018-ci ildən bu günə qədər dilin istifadəsi və elektron məkanda tətbiqi ilə bağlı qəbul edilən qərarlar Azərbaycan dilinin qloballaşma şəraitində beynəlxalq kommunikasiya vasitəsinə çevrilməsi istiqamətində həm dövlətin iradəsini əks etdirir, həm də bu məsələyə nə qədər həssaslıqla yanaşdığını ortaya qoyur. "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsi dil siyasətinin xarici siyasət, təhsil diplomatiyası və dünyaya mədəni inteqrasiyası ilə vəhdətdə aparıldığını göstərir.

Prezident İlham Əliyevin dövründə aparılan siyasətdən aydın olur ki, dil yalnız qorunma mərhələsini deyil, həm də strateji-ideoloji təqdimat mərhələsini yaşayır. Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış siyasi dil - dil siyasəti konseptiv-ideoloji model Ali Baş Komandan İlham Əliyevin dövründə yeni beynəlxalq və geosiyasi reallıqlara uyğun şəkildə funksionallaşmışdır. Prezident İlham Əliyevin dünyanın ən ali, yüksək kürsülərindən tutmuş ən sadə xalq izdihamları qarşısında etdiyi bütün çıxışlarında, müxtəlif auditoriyalarda, fərqli konseptlərdə və məzmunlardakı nitqlərində siyasi dil açıq emosional ritorikaya deyil, rasional arqumentlərə, hüquqi əsaslara və faktoloji dəqiqliyə söykənir.

II Qarabağ müharibəsi dövründə siyasət dili Azərbaycan dövlətçiliyinin həm daxili idarəetmə, həm də beynəlxalq arenada nüfuz və strateji təsir vasitəsi kimi ön plana çıxmışdır desək, əlbəttə, yanılmarıq. "Qarabağ Azərbaycandır!" ifadəsi ilə yeni bir siyasi-hüquqi xəttin təməlini qoyan Müzəffər Ali Baş Komandanın diplomatik görüşləri, ictimai-mədəni tədbirlərdəki çıxışları, media nümayəndələrinə verdiyi müsahibələr yalnız informasiya ötürmə funksiyası daşımır, mövcud situasiyada strateji manevr, siyasi jest və sosial nüfuzun təsirini artıran xüsusi bir vasitə rolunu oynayırdı, Prezident dünya ilə onun dilində danışırdı. Bütün çıxışlar beynəlxalq hüquq normalarına istinad əsasında qurulur, hazırlanan rəsmi bəyanatlar beynəlxalq auditoriyaya aydın və balanslı təqdim edilir, mövcud siyasi və hərbi şəraitdə hər bir nitq strateji manevri əks etdirir, beynəlxalq ictimaiyyət üçün Azərbaycanın haqlı mövqeyini inandırıcı edirdi. Hər bir söz, jest və nitq həm daxili auditoriyada həmrəylik və motivasiya yaradır, həm də beynəlxalq arenaya strateji mesajın aydın və balanslı çatdırılmasını təmin edirdi. Beləliklə, 44 günlük Vətən müharibəsi Azərbaycan üçün yalnız hərbi qələbə deyil, həm də diplomatik müstəvidə və beynəlxalq münasibətlərin mürəkkəbləşdiyi bir mühitdə qazanılan qələbə kimi siyasi dilin uğurla tətbiqinin nümunəsidir.

Prezident İlham Əliyevin 2021-ci ildə dilin saflığı və onun qorunması ilə bağlı səsləndirdiyi fikirlər dövlət sənədlərində formalaşmış dil siyasətinin növbəti mərhələsidir. Ali Baş Komandan İlham Əliyevin həm yerli, həm də beynəlxalq platformalarda (BMT, Avropa Şurası, regional beynəlxalq forumlar) etdiyi çıxışlar artıq postmüharibə dövrünün ab-havasını əks etdirir, yumşaq diplomatik dil, beynəlxalq hüquqi arqumentlər və faktoloji əsaslar üzərində qurulmuşdur. Bu çıxışlarda üç əsas istiqamət qabarıqdır: daxili idarəetmədə qələbə ruhu və motivasiya formalaşdırmaq; xüsusi leksik vahidlər və jestlər döyüş meydanında qazanılan hərbi uğurları, dövlət siyasi xəttinin məqsədyönlülüyünü, vətəndaş-dövlət həmrəyliyini vurğulayır; xüsusi nitq vahidləri ilə birlikdə, intonasiya pauza və vizual jestlər dövlət-dövlət, dövlət-vətəndaş arasında qarşılıqlı etimadı, ünsiyyəti ifadə etməklə yanaşı, postmünaqişə dövründə humanitar aspektlərə diqqət çəkmək, sülh çağırışı ilə yanaşı, strateji-hərbi, regional nüfuz yaratmaq üçün istifadə olunur.

Xüsusilə son illərdə, postmüharibə dövründə, "Böyük qayıdış" proqramı çərçivəsində mühüm işlərin həyata keçirildiyi bir vaxtda, suverenliyin bərpası, Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərinin aparıldığı tarixi bir dönəmdə dövlətin dil siyasətinə yeni baxış formalaşdı və bu baxış "Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə" fikri ilə ən ali səviyyədə möhürləndi. Prezidentin hər çıxışında dil həm strateji amil, həm mənəvi yüksəklik, həm də keçmişimizin və gələcəyimizin vəhdəti kimi təqdim olunur. Prezident dil məsələsinə olan münasibətini həm bir vətəndaş, həm də bir dövlət başçısı kimi aydın şəkildə ifadə edir, bu fikirlərdə həm tövsiyə, çağırış var, həm də tələb: "… Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm..." Bu fikirlər siyasi dillə dil siyasəti haqqında verilən ən ali hökmdür: Dilimizi qorumalıyıq!.. Prezident bu fikirləri dilə gətirərkən, sadəcə, bir ölkənin başçısı olmaqdan daha çox milli kimliyimizin, milli varlığımızın, tarixi köklərimizin və genetik kodumuzun daşıyıcısı olan dilimizi sevən bir vətənpərvər, məsuliyyətli vətəndaş və torpaqlarımızın düşmən caynağından xilaskarı kimi Ana dilimizi də yad ünsürlərdən qoruyan Müzəffər Ali Baş Komandandır. Və dilimizin saflığının qorunması təkcə dövlətin vəzifəsi deyil, cəmiyyətin ümumi məsuliyyəti, vətəndaşlıq borcu, keçmişimizə ehtiram və sədaqətin təcəssümü kimi başa düşülməlidir.

*Qətibə VAQİFQIZI,*
*filologiya elmləri doktoru*

# Ana dilimiz milli varlığımızdır

**"Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".**

**Heydər ƏLİYEV**




**Ana dili hər bir xalqın milli kimliyinin, mənəvi dəyərlərinin, tarixi yaddaşının və mədəni irsinin daşıyıcısıdır. Dil, sadəcə, ünsiyyət vasitəsi deyil, həm də xalqın ruhudur, düşüncə tərzidir. Hər bir millət öz ana dili ilə tanınır, öz söz xəzinəsi ilə tarix yazır, öz dili ilə gələcəyini qurur. Azərbaycan xalqı üçün də ana dili milli varlığımızın ən mühüm sütunlarından biridir.**

Hər il fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Məqsəd dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaqdır. Zəngin və dərin köklərə malik Azərbaycan dilini sonsuz məhəbbətlə sevən Ümummilli Lider Heydər Əliyev hər zaman vurğulayırdı ki, inkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir.

Ulu Öndərin dilimizlə bağlı fəaliyyəti sistemli və uzaqgörən bir strategiyaya əsaslanırdı. Ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq onun xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin öyrənilməsi, ana dilimizin rolunun artırılması, xalqın azadlıq istəyinin təcəssümü kimi ortaya çıxan ədəbi-bədii nümunələrin hücumlardan qorunması istiqamətində apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan vermişdir. Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı ilk vaxtlardan Azərbaycan ədəbi dilinə xüsusi diqqət yetirirdi. Ulu Öndər 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyində doğma dildə çıxış edərkən ana dili haqqında söylədiyi fikirlər Azərbaycan dilinə dövlət səviyyəsində qayğının və milli özünüdərkin parlaq təzahürü kimi tarixə düşmüşdür. Azərbaycan SSR-in 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. Bununla eləcə də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra - 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dilimiz üstün status qazandı. Ardınca dilimizin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndi, dilimizin qarşısında yeni üfüqlər açıldı.

Bu gün Prezident İlham Əliyev tərəfindən ana dilimizin qorunması və inkişafı istiqamətində ardıcıl siyasət həyata keçirilir. Dövlət başçısının imzaladığı sərəncamlar və strateji sənədlər Azərbaycan dilinin həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə nüfuzunun artmasına xidmət edir. Prezidentin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamı və bu istiqamətdə gördüyü digər tədbirlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan mədəniyyəti-2040" Konsepsiyasında da ana dilimizlə bağlı mühüm müddəalar yer almışdır. Sənəd dilimizin qorunması və inkişafı sahəsində dövlət siyasətinin strateji hədəflərini müəyyən etmişdir.

Ana dili yalnız keçmişin mirası deyil, həm də gələcəyin təminatıdır. Bu gün hər bir vətəndaşın borcu ana dilimizi qorumaq, zənginləşdirmək və gələcək nəsillərə ötürməkdir. Çünki ana dilimiz milli varlığımızdır, onu yaşatmaq milləti yaşatmaq deməkdir. Ana dilinə sevgi Vətənə sevgidir, ana dilini yaşatmaq milli kimliyi yaşatmaqdır.

*Dursun ƏLİYEVA,*
*Gəncə şəhər Heydər Əliyev Mərkəzinin kiçik elmi işçisi*

# REGİONLAR

## Şəhid ailəsinin evi təmir ediləcək

**"Arkoz Qazax Sement Zavodu" Azərbaycanın iri sement istehsalçılarından olmaqla yanaşı, həm də xeyirxah əməlləri ilə tanınır. Öz ənənəsinə sadiq qalan zavodun kollektivi şəhid ailələrini, qaziləri daim diqqətdə saxlayır, onlara qayğı göstərərək sosial problemlərinin həllində, məişət şəraitlərinin yaxşılaşdırılmasında yaxından iştirak edir.**

Hər zaman xeyirxah işləri ilə fərqlənən zavod bu il də öz ənənəsinə sadiq qalaraq daha bir şəhid ailəsinin yanında olmuşdur. Zavod rəhbərliyi bu dəfə 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif olunmuş şəhid əsgər Nəsibov Akşin Vasif oğlunun ailəsinə diqqət ayıraraq onun yaşadığı evin təmirini öz üzərinə götürmüşdür.

Bununla bağlı Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və "Arkoz Qazax Sement Zavodu" MMC-nin direktor müavini Nahid Salehov şəhidin doğulub boya-başa çatdığı Canalı kəndindəki ailəsini ziyarət etmişlər. Ziyarət zamanı rayon rəhbəri illər ötsə də, əldə etdiyimiz Zəfərə görə Akşin Nəsibov kimi şəhidlərimizə borclu və minnətdar olduğumuzu bildirmişdir. Sonra nümunəvi təşəbbüsünə görə şəhid ailələri, eləcə də ziyalılar və rayon ictimaiyyəti adından "Arkoz Qazax Sement Zavodu" MMC-nin rəhbərliyinə və kollektivinə təşəkkür edərək, zavod kollektivinin bu addımını Prezident İlham Əliyevin yürütdüyü siyasətin davamı kimi qiymətləndirmişdir.



Şəhid atası Vasif Nəsibov çıxış edərək oğlunun boya-başa çatdığı evin əsaslı təmirini onun ruhuna göstərilən ehtiram kimi dəyərləndirmişdir. Onu da qeyd edək ki, bu gün Qazaxda şəhid Akşin Nəsibovun adına küçə var.

Sonra mütəxəssislər evin vəziyyəti ilə tanış olmuş, görüləcək işlərlə bağlı layihə-smeta sənədləri hazırlamışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvanda əhalinin bank əmanətləri 50 faizdən çox artıb

**Naxçıvan Muxtar Respublikası üzrə əhalinin banklardakı əmanətlərinin məbləği bir il öncəyə nisbətən 50,1 faiz artaraq, 2026-cı il yanvar ayının 1-nə milli valyuta ekvivalentində 38 milyon 279 min 500 manat təşkil edib.**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əmanətlərin 93,1 faizi milli, 6,9 faizi xarici valyutada qoyulub. Milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 48,2 faiz, xarici valyutada qoyulmuş əmanətlərin məbləği isə 82,4 faiz artıb.

## Özü olmasa da, arzuları övladlarının həyatında çin olur

**Cəmi 5 il əvvəl açılan səhərlər Qaynaq kəndinin sakinlərinə gündəlik qayğılarla bərabər, həm də namərd qonşular tərəfindən gözlənilən təhlükə həyəcanı gətirirdi. Düzdür, insanlar daha buna alışmışdılar. Odur ki, adi günlərdəki kimi böyüklər mal-qaraya baxır, əkin-biçinlə məşğul olur, uşaqlar məktəbə gedirdilər.**

Həsən Məmmədovun ailəsində də səhərlər belə açılırdı. İşin-gücün arasında tez-tez eşidilən avtomat səsləri onları qorxutmurdu. Həyatı çox sevirdilər. Kəndlərinə, öz torpaqlarına bağlıydılar.

Həsən hər dəfə uşaqlarına baxanda ürəyi dağa dönürdü. Özü çox əziyyət çəksə də, onları dəblə geyindirir, dərslərinə fikir verir, çalışırdı ki, kənddə heç kimdən geri qalmasınlar. Atasını çox tez itirən Həsən uşaqlarının həyatında öz arzularının çiçəkləndiyini görürdü. Hər axşam nə qədər yorğun olsa da, övladları ilə həyat barədə, gələcək haqqında söhbətlər edirdi.

Ailənin böyük övladı Arzu atasını belə xatırlayır:

- Atam haqqında danışmaq həm kədərli, həm də qürurvericidir. O özü yanımızda olmasa da, varlığını daim hiss edirik. Hər addımımızla şəhid övladı adına layiq olmağa çalışırıq.

Arzu deyir ki, atası sağlığında hər kəsin hörmətini qazanmışdı - zəhmətsevərliyi, səmimiliyi, dürüstlüyü, həyat haqqında düşüncələri ilə. O, ali təhsilli deyildi. Ancaq dünyagörüşü vardı, ən çətin məqamlarda doğru məsləhət verməyi bacarırdı.



- Atam ailəsində söz sahibi olan insan idi, - deyir Arzu. - Onun ürəyində hər kəsə böyük mərhəmət vardı. Bu gün bizim ayaq üstə durmağımızın səbəbi də verdiyi tərbiyədir. Deyirdi ki, həyatda hər zaman inamlı, aydın məqsədli olun. Biz müharibə dövrünün uşaqlarıyıq. Yəni məktəbdə oxuduğumuz illərdə atəşkəs olsa da, kəndimizdə yaşamaq çətin idi. Bununla belə bacım Pərzad, qardaşım Zamiq və mən zəhmətə qatlaşıb oxuduq, hər üçümüz tələbə adını qazandıq. Heyif ki, atam bu günləri görmədi. Ancaq o bizə inanırdı.

Həsən Məmmədov 44 günlük Vətən müharibəsinin başlaması xəbərini çox təmkinlə qarşıladı. İlk mərmi qonşu Qapanlı kəndinə düşdü, sonra bütün cəbhəyanı kəndlər atəşə tutuldu. O isə deyirdi ki, bu dəfə müharibə qələbəmizlə bitəcək, torpaqlarımız işğaldan azad ediləcək. Təhlükəli olsa da, evindən-eşiyindən çıxmadı. Yalnız balalarını qorumağa çalışdı.

Həsən 2020-ci il oktyabrın 6-da Azadqaraqoyunlu kəndinin yaxınlığına düşən artilleriya mərmisi nəticəsində şəhid olub. Tərtərin Xoruzlu kəndində atasının yanında dəfn olunub.

İndi Arzu Xəzər Universitetində tarixi öyrənir, Pərzad həmin universitetin ikinci kurs tələbəsidir, biologiya-kimya ixtisasını seçib. Zamiq isə Ağdamdakı kollecdə aqronomluq üzrə təhsil alır. Deyirlər ki, biz heç zaman özümüzü tək hiss etməmişik: "Atamız bu torpaqda şəhid olub. Ölkəmizin suverenliyi, torpaqlarımızın işğaldan azad edilməsi yolunda qurban gedib. O, bu vətənin övladı idi, dövlətimiz də bizim - onun övladlarının qayğısını çəkir. Heç nədən ehtiyacımız yoxdur. Bizə olan münasibətdə gördüyümüz qayğıkeşlik, diqqət ölkəmizdə şəhidlərin ruhuna olan hörmətin təcəssümüdür. Kənddəki evimiz daim qonaqlı-qaralı olur. Biz yay tətilində olarkən rayon rəhbəri, ictimaiyyət nümayəndələri, Bakıdan gələn qonaqlar qapımızı döyüb vəziyyətimizlə maraqlanırlar. Bunun özü də atamıza görədir, onun daşıdığı yüksək şəhid adına görədir".

Ötən yay Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasov, institutun alimləri və Milli Məclisin deputatı Anar Məmmədov mülki şəhid Həsən Məmmədovun ailəsinin qonağı olublar. Pərzada institutda könüllü kimi fəaliyyət göstərmək, oxuduğu ixtisas üzrə təcrübə qazanmaq təklif olunub, həm də ona elmi müəssisə tərəfindən təqaüd veriləcəyi bildirilib.

Pərzad bu barədə belə deyir:

- Atamın elmə, təhsilə böyük marağı vardı. Bizə deyirdi ki, atasını tez itirdiyindən oxuya bilməyib. Odur ki, bizim təhsil almağımız üçün əlindən gələni etdi. Müharibə ona sonacan bu arzusunu yerinə yetirməyə imkan vermədi. Ancaq yanımızda dövlətimiz, xeyirxah insanlar oldu. İndi universitetdə mühazirələri dinləyərkən, elmi-tədqiqat institutunun laboratoriyasında çalışarkən düşünürəm ki, kaş atam bu günləri görəydi. Yəqin ki, indi onun da ruhu şaddır.

Şəhid övladları yaşadıqları Qaynaq kəndindən də ürəkdolusu danışdılar. Söylədilər ki, müharibədən sonra kəndin özü də, sakinləri də dəyişib. İnsanlar tarlada, həyətə-bacada qorxusuz işlərini görür, axşamlar evlərində rahat dincəlirlər. Kəndin şəraiti isə heç də şəhərdəkindən geri qalmır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



## Torpaq oyanır, bitkilər cana gəlir

**Atalar deyib: "Qışdan bir ay qalmış yazdır". Fevral ayının ortalarından havaların istiləşməsi bu deyimi bir daha təsdiqləyir. Bir həftəyə yaxındır günəş öz hərarəti ilə Muğan torpağını isitməyə başlamışdır. Çillələr ömrünü başa vurduqdan sonra yaranan bu hərarət nəticəsində çöldə-düzdə otların, taxıl əkinlərinin nisbətən yaşıllaşması hiss olunur.**

Bütün bunlar fermerləri yaz qayğılarına kökləyir. İndi onlar taxıl, yonca əkinlərini suvarmaq, yemləmə gübrəsi vermək üçün sahələri gəzib diqqətlə nəzərdən keçirir, təxirəsalınmaz tədbirlər görürlər, o sıradan suvarma kanallarında, arxlarda təmir aparır, digər tədbirlər həyata keçirirlər ki, suvarmanı tez və keyfiyyətlə başa çatdırsınlar. Əkinçilər yaxşı başa düşürlər ki, əkin suyu get-gedə problemə çevrilir. Buna görə aralarında suvarma zamanı müəyyən söz-söhbətlər də yaranır. O üzdən sudan səmərəli istifadə etmək, su itkisinə yol verməmək üçün məsələnin ciddi nəzarətə götürülməsi tələb olunur.

Yanvar və fevral aylarında Cəlilabadda yağan qar fermerlərin və torpaq mülkiyyətçilərinin, sahibkarların üzünü güldürmüşdür. İlin bu aylarında yağan qar bolluqdur, bərəkətdir. Kənd adamlarının belə bir sözü var: "Qar taxılın yorğanıdır". Düzdür, bu "yorğan"ın ömrü cənub zonası rayonlarında, o cümlədən Cəlilabadda çox olmur, lakin güclü qardan sonra göyün üzü açılır, hava boşalır, mülayimləşir, ağ libas geyinən çöllər yenidən öz görkəmini alır. Ancaq ömrü az olan bu qarın xeyri çox olur. Düşən şaxtalar sahələrdəki qurd-quşu məhv edir. Digər tərəfdən qarın torpağın alt qatına süzülən suyu müəyyən su ehtiyatı, nəmişlik yaradır. Bu qar əsasən dəmyə iqlim şəraitində taxıl əkib-becərənlər üçün əvəzsiz bir nemətdir, ulu Tanrının, təbiətin mərhəmət və səxavətidir.

Buna görə də indi cəlilabadlıların üzü gülür. Yeri gəlmişkən, belə bir fikir də var ki, Novruza bir ay qalmış və Novruzdan bir ay keçmiş düşən yağıntıların xeyri çoxdur. Həmin zaman torpaq oyanır, bitkilər torpaqdan baş qaldırır və su içərək inkişaf edir. Novruzdan bir ay keçmiş isə yağan yağışlar taxılın, yoncanın, göy otların boyunu uzadır, eyni zamanda bu vaxt taxıl zəmiləri yenidən su içib canlanır, gələcək məhsulun əsası qoyulur. Mütəxəssislər deyirlər ki, bundan sonra yazda bir-iki dəfə də yağsa, taxıl əvvəlki illərə nisbətən daha çox olur.

Keçən ilin payızında Cəlilabadda 50 min 372 hektarda buğda, 16 min 9 hektarda arpa əkilib. Əkində "Bərəkətli-95", "Qaraqılçıq", "Qobustan" buğda, "Cəlilabad-19", "Şahid", "Qarabağ-22" arpa sortlarından daha çox istifadə edilib. İmkanlı fermerlər əkinlə birlikdə torpağa ammafos gübrəsi veriblər ki, bu da biçin zamanı məhsuldarlıqda özünü mütləq göstərəcək.

Payızda yağışlar nisbətən gecikə də, sonradan düşən yağıntı onu bir növ əvəz etdi. Nəticədə sahələrdə normal çıxış alındı. Bir az əvvəl dediyimiz vəziyyət - düşən qar taxılın muradını verib. Quraqlıq keçən vaxtlarda isə 6 min 978 hektarda ziyanvericilərə qarşı mübarizə tədbirləri görülüb. Birazdan əkinlərə yemləmə gübrəsi verilməsinə başlanacaq. Bununla əlaqədar "Aqrolizinq" və ayrı-ayrı sahibkarlar tərəfindən rayona kifayət qədər müxtəlif növ yemləmə gübrələri gətirilib.

Təbiətin mərhəməti, insanların zəhməti, çoxillik təcrübəsi deməyə əsas verir ki, cəlilabadlılar bu il də öz ənənələrinə sadiq qalaraq yüksək taxıl məhsulu yetişdirəcək, həm öz, həm dövlətin təknəsini çörəksiz qoymayacaqlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Ombudsman Aparatının əməkdaşları Şirvanda "İnformasiya əldə etmək hüququnun müdafiəsi"ndən danışıblar

**İnsan hüquqları üzrə müvəkkilin (ombudsman) təşəbbüsü ilə Şirvan şəhərində "İnformasiya əldə etmək hüququnun müdafiəsi" mövzusunda maarifləndirmə tədbiri keçirilib.**

Tədbirdə şəhər icra hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Ombudsman Aparatının İnformasiya əldə etmək hüququnun müdafiəsi şöbəsinin müdiri Lamiyə Zeynalova, Ombudsman Aparatının əməkdaşları, Şirvanda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri, dövlət qurumlarının nümayəndələri iştirak ediblər. ŞİH başçısının müavini A.Fərzəliyeva çıxış edərək maarifləndirmə tədbirinin əhəmiyyətini qeyd edib. Bildirib ki, informasiya əldə etmək hüququnun təmin olunması demokratik cəmiyyətin mühüm göstəricisidir və bu istiqamətdə həyata keçirilən tədbirlər cəmiyyətdə hüquq mədəniyyətinin formalaşmasında vacib rol oynayır.

Sonra L.Zeynalova və Ombudsman Aparatının digər əməkdaşları təqdimatlarla çıxış edərək "İnformasiya əldə etmək haqqında" qanunun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsinin xüsusiyyətləri barədə məlumat veriblər.

İnformasiya əldə etmək hüququnun təmini və təbliği, bu hüququn pozulması ilə əlaqədar daxil olan müraciətlərin baxılması və cavablandırılması, ombudsmanın protokol tərtib etmək səlahiyyəti, monitorinq və təhlillərin həyata keçirilməsi ilə bağlı məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Həmçinin iştirakçılar informasiya əldə etmək hüququnun tarixi inkişafı və bu hüquqla bağlı beynəlxalq sazişlər haqqında ətraflı məlumatlandırılıb.

Yekunda "İnformasiya əldə etmək hüququnun müdafiəsi" mövzusunda videoçarx nümayiş olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

## Qusarda "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirələr keçirilib

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi, Qusar Rayon İcra Hakimiyyəti və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə Qusar rayonunda "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirələr keçirilib.**

Tədbirdə dövlət qurumlarının, özəl maliyyə təşkilatlarının nümayəndələri yerli fermer və sahibkarlarla kənd təsərrüfatına dövlət dəstəyi mexanizmləri mövzusunda geniş fikir mübadiləsi aparıblar.

Tədbirdə açılış nitqi ilə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov qeyd edib ki, ötən il 14 rayonda, bu il isə 3 rayonda "Aqrar sahədə dövlət dəstək mexanizmləri" mövzusunda panel müzakirələr baş tutub. O, Qusarda keçirilən panel müzakirələrin sayca 4-cü tədbir olduğunu xatırladıb. Keçirilən panel müzakirələri aqrar sahə ilə birbaşa və bilavasitə əlaqəli olan dövlət qurumlarını, maliyyə təşkilatlarını, fermer və sahibkarları bir araya gətirən format kimi dəyərləndirən Anar Cəfərovun sözlərinə görə, bu format bölgələrdə fermer və sahibkarların dövlət dəstəyi mexanizmləri barədə daha dolğun məlumat əldə etməsinə, eyni zamanda dövlət-özəl tərəfdaşlığının gücləndirilməsinə xidmət edir.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov bildirib ki, təmsil etdiyi qurum bölgələrdə fermerləri dövlət qurumlarının nümayəndələri ilə bir araya gətirən bu kimi tədbirlərdə aktiv iştirak edir. Aqrar İnnovasiya Mərkəzi ilə dövlət-özəl tərəfdaşlığı çərçivəsində aqrar sahədə birgə fəaliyyətin genişləndirilməsi, sahibkarların dəstəklənməsi və maliyyə savadlılığının artırılması məqsədilə əməkdaşlığı genişləndirdiyini deyən ASK rəsmisinin sözlərinə görə, regionlarda keçirilən panel müzakirələrə təkcə fermerlərin deyil, həm də yerli sahibkarların aktiv cəlb olunması müsbət haldır.

Azərbaycan Biznesinin İnkişafı Fondunun baş direktorunun müşaviri Namiq Zeynalov çıxışında bildirib ki, fondun dəstək verdiyi subyektlər arasında kənd təsərrüfatı məhsullarının istehsalçıları kifayət qədərdir. Bu səbəbdən fond aqrar sahədə çalışan fermer və sahibkarlarla birbaşa ünsiyyəti təmin edən platformalarda aktiv iştirak edir. Fond tərəfindən təqdim olunan layihələrin maliyyələşdirilməsi mexanizmləri barədə məlumat verən Namiq Zeynalov kreditlə bağlı müraciət prosesinin tam elektron sistemə keçdiyini deyib.

Biznes Mərkəzi Klubunun direktoru Rüfət Nadirli bildirib ki, rəhbərlik etdiyi qurum fermer və sahibkarlara PR, media marketinq istiqamətində geniş dəstək verir. Ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının markalaşdırılması və brendləşdirilməsi istiqamətində məsləhət xidmətləri təklif edən Biznes Mərkəzi Klubu həm də bölgələrdə keçirilən "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda müzakirələrə informasiya dəstəyi verir, fermer və sahibkarları canlı yayımlanan proqramlara qonaq dəvət edir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov çıxışında işğaldan azad olunmuş ərazilərdə aqrar sahəyə dövlət dəstəyi mexanizmləri barədə geniş məlumat verib. O, hazırda azad olunmuş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin elan edildiyini xatırladıb, müsabiqələrin şərtləri barədə geniş məlumat verib.

Panel müzakirələr çərçivəsində tərəfdaş qurumların nümayəndələri tərəfindən subsidiya, kredit, lizinq və sığorta mexanizmlərinə dair təqdimatlar keçirilib. Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Sığorta Fondu, Azərbaycan Biznesinin İnkişafı Fondu, Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, özəl maliyyə qurumlarından "Unibank" və "Aqrar Kredit"in nümayəndələri fermer və sahibkarların suallarını cavablandırıblar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# İtkin şəhidlərimiz Şəhidlər xiyabanında torpağa tapşırılıblar












**Bakı**

Bu gün Birinci Qarabağ müharibəsinin itkin şəhidi Rafiq Hüseyn oğlu Hüseynovun Qaradağ rayonu Lökbatan Şəhidlər xiyabanında dəfn mərasimi keçirilib. Dəfn mərasimində Azərbaycanın Dövlət Himni səsləndirilib.

Hərbi şərəf və ehtiram nişanı olaraq, tabut məzara qoyulduqdan sonra fəxri qarovul tərəfindən havaya üç dəfə yaylım atəşi açılıb.

Daha sonra "Qurani-Kərim"dən ayələr oxunub, şəhidin ruhuna dualar edilib. Şəhidin məzarı üzərinə gül dəstələri düzülüb, ailəsinə başsağlığı verilib.

Şəhidin qardaşı Murad Hüseynov açıqlamasında bildirib ki, Rafiq Hüseynov Gəncə Dövlət Universitetində təhsil alsa da, müharibə başladıqdan sonra könüllü şəkildə Vətənin müdafiəsinə qalxıb. O ərazilərimizin müdafiəsi zamanı 1992-ci ildə itkin düşüb.

Şəhidin döyüş yoldaşı Amil Məmmədov o zaman Ağdam istiqamətində mühasirəyə düşdüklərini deyib: "Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevlə çiyin-çiyinə 836-cı postda döyüşürdük. Rafiq də bizimlə idi, yanımızda mərdliklə döyüşürdü. Şiddətli döyüşlərdən sonra mühasirəyə düşdük, lakin oradan çıxmağa nail olduq. Rafiq və digərləri mühasirəyə düşdükdən sonra itkin düşmüşdü".

Qeyd edək ki, Rafiq Hüseynov 1974-cü il aprelin 16-da Ağdam rayonunun Qiyaslı kəndində anadan olub. 1992-ci il iyunun 15-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində itkin düşüb.

**Sumqayıt**

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Mehriban Arif qızı Qarayevanın nəşinin qalıqları Sumqayıt Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri, Sumqayıt Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid Mehriban Qarayevanın nəşinin qalıqları hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə dəfn olunub.

Qeyd edək ki, Mehriban Qarayeva 1970-ci il martın 27-də Sumqayıt şəhərində anadan olub. 1992-ci ildə könüllü hərbi xidmətə gedib. Elə həmin il Sırxavənd (Ağdərə) kəndində itkin düşüb.

Uzun illər itkin hesab olunan hərbçimizin nəşinin qalıqları müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra Ağdərə rayonundan kütləvi məzarlıqda müəyyən edilərək ailəsinə təhvil verilib.

**Gəncə**

Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən şəhid Nofəl Cahangir oğlu Əsgərov Gəncə Şəhidlər xiyabanında dəfn edilib.

Şəhidlə vida mərasimi keçirilib, cənazə namazı qılınıb, şəhidlərin ruhuna dualar oxunub. Vida mərasimində şəhidin ailə üzvləri, şəhər rəsmiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin nəşinin qalıqları yaylım atəşi altında torpağa tapşırılıb. Tabutun üzərinə örtülmüş Azərbaycan bayrağı şəhidin qızlarına verilib.

Qeyd edək ki, Nofəl Əsgərov 1965-ci il sentyabrın 10-da Tərtər rayonunun Borsunlu kəndində anadan olub. 1992-ci il iyunun 16-da Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində itkin düşüb. Nəşinin qalıqları kənd Azərbaycan Ordusunun nəzarətinə keçdikdən sonra aşkarlanıb, aparılan müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

**Xocalı**

Xocalı faciəsi zamanı itkin düşmüş hesab edilən və şəxsiyyəti dəqiqləşdirilmiş mülki vətəndaş - şəhid Zibeydə Bədəl qızı Əhmədovanın nəşinin qalıqları 34 ildən sonra aşkar edilərək, bu gün Xocalı şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, 1938-ci il təvəllüdlü Zibeydə Əhmədova Xankəndi şəhərində doğulub. 1988-ci ildə Xankəndi şəhərindən məcburi köçkün düşərək Xocalı rayonunda məskunlaşıb. O, 1992-ci il fevralın 26-da Xocalı faciəsi zamanı itkin düşüb.

İşğaldan azad olunmuş ərazilərdə aparılan araşdırmalar zamanı onun meyitinin qalıqları Ağdərə rayonu ərazisində aşkar edilib. Müvafiq dövlət qurumları tərəfindən aparılan genetik ekspertiza və identifikasiya prosesindən sonra qalıqlar ailəsinə təhvil verilib.

Qeyd edək ki, şəhid Zibeydə Əhmədovanın dəfn mərasimində Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, şəhər sakinləri, hüquq-mühafizə orqanlarının əməkdaşları və şəhidin yaxınları iştirak ediblər.

Şəhidin tabutuna bükülən Azərbaycan bayrağı onun tək övladı olan oğlu Fəxrəddin Əhmədova təqdim edilib.

**Ağdam**

Birinci Qarabağ müharibəsi zamanı itkin düşən şəhid Qurban Ramazan oğlu Göyüşovun nəşinin qalıqları Ağdam rayonunda dəfn olunub.

Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında keçirilən vida mərasimində rayon sakinləri, icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra Qurban Göyüşovun nəşinin qalıqları torpağa tapşırılıb. Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Mərasim iştirakçıları şəhidin ruhuna dualar oxuyub, məzarının üzərinə əklil, gül dəstələri düzüblər. Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin qardaşına təqdim edilib.

Qeyd edək ki, Qurban Ramazan oğlu Göyüşov 1974-cü ildə Ağdərə rayonunun Baş Güneypəyə kəndində anadan olub. Birinci Qarabağ müharibəsi zamanı özünümüdafiə batalyonunun tərkibində döyüşən Q.Göyüşov 1992-ci il martın 12-də Sırxavənd kəndi istiqamətlərində ermənilərin hücumunun qarşısının alınması zamanı pusquya düşərək yaralanıb. Atası onu yaralı halda döyüş meydanından çıxarmağa çalışsa da, erməni silahlıları intensiv atəş açaraq buna mane olublar. Göyüşov Qurbanın nəşinin qalıqları elə həmin ərazidə aşkar edilib.

**Bərdə**

32 il əvvəl - Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş hesab olunan Qılman Surxay oğlu Hacıyev Bərdə rayonunda dəfn edilib.

Bərdə rayonunun Kələntərli kəndində rayon sakinlərinin, şəhidin ailə üzvlərinin, Bərdə Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəhidlə vida mərasimi keçirilib.

Vida mərasimindən sonra şəhidin nəşinin qalıqları kənd qəbiristanlığında dəfn edilib, ruhuna dualar oxunub.

Qeyd edək ki, 1972-ci ildə Bərdə rayonunun Kələntərli kəndində anadan olan Q.Hacıyev Birinci Qarabağ müharibəsində torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, 1994-cü ilin fevralında Kəlbəcər rayonunun Yanşaq kəndində itkin düşmüşdü.

Uzun illər itkin hesab olunan hərbçimizin nəşinin qalıqları müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

* * *

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan və 32 ildən sonra kimliyi müəyyən edilən Hidayət İsa oğlu Vəliyev Bərdə rayonunda torpağa tapşırılıb.

Şəhidlə vida mərasimində Bərdə Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər, müharibə veteranları, ictimaiyyət nümayəndələri, rayon sakinləri iştirak ediblər.

Cənazə namazından sonra Hidayət Vəliyev Zümürxan kənd qəbiristanlığında dəfn edilib. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil və gül dəstələri qoyulub.

Qeyd edilib ki, Hidayət Vəliyev 1971-ci ildə Bərdə rayonunun Zümürxan kəndində anadan olub. Birinci Qarabağ müharibəsi zamanı Vətənimizin müdafiəsində iştirak edən H.Vəliyev 1994-cü il fevralında Kəlbəcər rayonunun Murovdağ silsiləsində itkin düşüb.

Uzun illər itkin hesab olunan hərbçimizin nəşinin qalıqları müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

* * *

Birinci Qarabağ müharibəsi dövründə - 32 il əvvəl itkin düşmüş hesab edilən şəhid Dadaş Şərif oğlu Dadaşovun nəşinin qalıqları Bərdə rayonunda dəfn olunub.

Bərdə rayonunun Mollaisalar kənd qəbiristanlığında keçirilən vida mərasimində Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə veteranları, rayon sakinləri iştirak ediblər.

Vida mərasimindən sonra Dadaş Dadaşovun nəşi torpağa tapşırılıb.

Qeyd edək ki, Dadaş Şərif oğlu Dadaşov 1972-ci ildə Ağdərə rayonunun İmarət Qərvənd kəndində anadan olub. O, 1994-cü il fevralın 11-də Kəlbəcər rayonunun Yanşaq kəndində itkin düşüb.

**Şəmkir**

Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən şəhid Yolçu Sarı oğlu Məmmədov Şəmkir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Şəhidlə vida mərasimi keçirilib, cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Sonra şəhidin nəşinin qalıqları Şəmkir şəhərindəki Şəhidlər xiyabanına gətirilib. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə Yolçu Məmmədovun qəhrəmanlığından söz açılıb, əziz xatirəsinin heç zaman unudulmayacağı vurğulanıb.

Şəhidin nəşinin qalıqları yaylım atəşi altında torpağa tapşırılıb. Tabutun üzərinə örtülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin oğluna verilib.

Qeyd edək ki, Yolçu Sarı oğlu Məmmədov 1966-cı il martın 8-də Şəmkir rayonunun Seyfəli kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsində iştirak edib, 1992-ci ilin iyununda Ağdərə rayonunun Sırxavənd kəndində ağır döyüşlər zamanı itkin düşüb. Nəşinin qalıqları kənd Azərbaycan Ordusunun nəzarətinə keçdikdən sonra aşkarlanıb, aparılan müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

*AZƏRTAC*

## *Şəhid dayısı:* "Rafiq Hüseynov ali təhsilini yarımçıq qoyaraq könüllü şəkildə ordu sıralarına yazılmışdı"



**"Rafiq Hüseynov gənc yaşlarında universitetdə təhsil alırdı. Torpağımızın, Vətənimizin bütövlüyü uğrunda universiteti yarımçıq qoyaraq könüllü şəkildə ordu sıralarına yazıldı və 1990-cı illərdə torpaqlarımızın qorunması uğrunda gedən döyüşlərdə iştirak etdi. O, cəsur, igid, Vətən qayğısı çəkən bir oğul idi".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında şəhid Rafiq Hüseynovun dayısı Allahverdi Zeynalov söyləyib.

O, 30-32 ilə yaxın bir müddətdə həsrət içində yaşadıqlarını vurğulayıb: "Gedib dua edəcəyimiz, təsəlli tapacağımız bir ünvanımız belə yox idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu günümüzə şükür edirik. Bu gün həm kədərli, həm də sevinclidir. Bu sevinci bizə bəxş edən Prezident İlham Əliyevə minnətdarıq. Onun rəhbərliyi ilə və müzəffər ordumuzun qəhrəmanlığı sayəsində xalqımız böyük Zəfər qazandı. Dövlətimizin başçısına, müzəffər ordumuza və bu zəfərdə əməyi olan hər kəsə dərin təşəkkürümüzü bildiririk".

A.Zeynalov əlavə edib ki, bu gün torpaqlarımız azaddır və firavan yaşayırıq. Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin, ruhları şad olsun, məkanları cənnət olsun.

Qeyd edək ki, Rafiq Hüseynov 1974-cü il aprelin 16-da Ağdam rayonunun Qiyaslı kəndində anadan olub. 1992-ci il iyunun 15-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində itkin düşüb. Onun nəşinin qalıqları tapılaraq 34 ildən sonra Lökbatan Şəhidlər xiyabanında torpağa tapşırılıb.

## Xocavəndlilərə evlərinin açarları təqdim edilib




**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. AZƏRTAC xəbər verir ki, Xocavənd şəhəri və Xocavənd kəndinə ilk köç karvanı yola salınıb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.**

İlk mərhələdə Xocavənd şəhərinə 50 ailə - 194 nəfər, Xocavənd kəndinə isə 20 ailə - 94 nəfər köçürülüb. Xocavənd şəhəri və Xocavənd kəndinə ilk köç prosesi gerçəkləşib, yola salınan ailələr öz yurdlarına qovuşublar. Şəhər və kənddə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Dünən ilk köç karvanı ilə Xocavənd şəhəri və Xocavənd kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Ailələr qarşılandıqdan sonra onlar ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumatlandırılıblar. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə, ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün Xocavənddə başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

# Cənubi Koreyanın keçmiş prezidenti ömürlük həbs cəzasına məhkum edilib

**Cənubi Koreya məhkəməsi keçmiş prezident Yun Sok-yulu üsyan təşkil etməyə cəhd göstərdiyinə görə ömürlük həbs cəzasına məhkum edib. Prokurorlar ona ölüm cəzası tələb etmişdilər.**




Xatırladaq ki, 2024-cü ilin dekabr ayında o, ölkədə hərbi vəziyyət tətbiq etməyə uğursuz cəhd etmiş, bundan sonra onun barəsində impiçment elan olunaraq həbs edilmişdir.

Hakim bildirib ki, keçmiş prezident Cənubi Koreyanın demokratiyasına kökündən zərbə vurub və o, ağır cəzaya layiqdir. Yun isə hərbi vəziyyət tətbiq etmək cəhdinin, sadəcə, müxalifət partiyasının pozuntularına diqqət çəkmək üçün nəzərdə tutulmuş zərərsiz bir jest olduğunu iddia edib. Lakin hakim buna inanmayıb və onun hərəkətlərinin konstitusiya quruluşunun təməllərini sarsıtdığını bildirib. Bundan əlavə, məhkəmə müəyyən edib ki, hərbi vəziyyət dövründə Yun bir neçə şəxsin, o cümlədən hazırda ölkə Prezidenti olan müxalifət lideri Li Cemyunun həbsinə əmr verib.

Yun çox güman ki, apelyasiya şikayəti verəcək və iş hətta ölkənin Ali Məhkəməsinə də çata bilər.

Keçmiş prezidentlə yanaşı, çevrilişdə iştirak etdiyi güman olunan digər yüksəkvəzifəli şəxslər də cəzalandırılıb. Keçmiş müdafiə naziri Kim Yonq-hyun 30 il, keçmiş kəşfiyyat rəisi Roh Sanq-von 18 il, keçmiş polis rəisi Ço Ci-ho 12 il, Seulun sabiq polis rəisi Kim Bonq-sık 10 il və Milli Assambleyanın (parlament) keçmiş təhlükəsizlik bölməsinin komandiri Mok Hyunq-te 3 il müddətinə azadlıqdan məhrum ediliblər.

İki təqsirləndirilən şəxs - Müdafiə Nazirliyinin keçmiş İstintaq Bürosunun rəisi Kim Yonq-qon və keçmiş polis istintaq bürosunun rəsmisi Yun Sonq-yon günahsız hesab olunublar.

Dövlət çevrilişi ittihamları ilə yanaşı, Yun Sonq-yul vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə də günahkar bilinib. Yanvar ayında o, evində həbsə mane olmaq ittihamı ilə 5 il müddətinə azadlıqdan məhrum edilmişdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Yunanıstan şirkəti Azərbaycan bayrağı altında üzən gəmilərə xidmət göstərəcək

**Dövlət Dəniz və Liman Agentliyi yeni təsnifat cəmiyyətinə səlahiyyət verib. Belə ki, agentliklə Yunanıstanın "Libero Hellenic Register" təsnifat cəmiyyəti arasında "Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzən gəmilər üçün qanunla müəyyən edilən sertifikatlaşdırılma və təsnifat xidmətlərinin həyata keçirilməsinin tənzimlənməsi haqqında" saziş imzalanıb.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sənədə əsasən, "Libero Hellenic Register" Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzən gəmilərdə beynəlxalq standartlara uyğunluğun təmin edilməsi və keyfiyyətli sertifikatlaşdırma sisteminin tətbiqi ilə bağlı müvafiq xidmətlər həyata keçirəcək.

İmzalanan saziş ölkəmizin təsnifat cəmiyyətləri ilə strateji əməkdaşlığını genişləndirəcək. Bununla yanaşı, dəniz nəqliyyatının inkişafı təhlükəsizlik standartlarının yüksəldilməsi və Azərbaycan bayrağı altında üzən gəmilərin istər yerli, istərsə də dünya bazarında rəqabət qabiliyyətinin artırılmasına töhfə verəcək.

Qeyd edək ki, Dövlət Dəniz və Liman Agentliyi ümumilikdə 12 təsnifat cəmiyyətinin fəaliyyət göstərməsinə dair razılıq verib.

Gəmi sahibləri sözügedən təsnifat cəmiyyətlərinin müvafiq siyahısı ilə linkə **https://ddla.gov.az/tesnifat** keçid edərək tanış ola bilərlər.

# Bilmək istəyirəm

*- 46 yaşım var. Həyat yoldaşım və övladım illər əvvəl yol-nəqliyyat hadisəsi nəticəsində vəfat ediblər. Hazırda övladlığa uşaq götürmək istəyirəm. Bunun üçün hara və kimə müraciət etməliyəm? Şərtlər nədən ibarətdir?*

*Sona NƏSİBOVA,*
*Sumqayıt şəhəri*

✓ Sualınıza cavab olaraq bildiririk ki, övladlığagötürmə 3 mərhələdə həyata keçirilir:

1. övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması;
2. övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi;
3. övladlığagötürmə barədə məhkəmə qərarının qəbul edilməsi.

İlkin olaraq övladlığa götürmək istəyən şəxs uçota alınmalıdır. Uçota alınma Ailə Məcəlləsinin 119-cu maddəsinə uyğun olaraq həyata keçirilir. Belə ki, Ailə Məcəlləsinin 119.1-ci maddəsinə əsasən, müvafiq icra hakimiyyəti (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) orqanı valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və övladlığa götürmək istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparır.

Uçota alınma mərhələsindən sonra övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğu məsələsinin müəyyən edilməsi mərhələsi başlanır və bu, müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 (bir) ildən çox olmayan müddətdə aşağıdakı qaydada müəyyən edilir:

1. övladlığa götürmək istəyən şəxslə müsahibə aparılması;
2. övladlığa götürmək istəyən şəxsin təlimlərə cəlb edilməsi;
3. övladlığa götürmək istəyən şəxsə uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;
4. övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;
5. övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin evində yerləşdirilməsi.

Müsahibədən keçmiş övladlığa götürmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən övladlığagötürmə ilə bağlı 30 (otuz) gündən çox olmayan müddətdə təlimlərə cəlb edilir. Təlimin nəticələri Ailə Məcəlləsinin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən meyarlara əsasən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən qiymətləndirilir. Təlimin nəticələri müsbət qiymətləndirildikdə, müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmək istəyən şəxsin və valideyn himayəsindən məhrum olmuş uşağın istək və mənafeyini nəzərə almaqla, övladlığa götürülən uşağa uyğun valideyn və övladlığa götürmək istəyən şəxsə uyğun uşaq seçir və uşağın yerləşdiyi müəssisədə sosial işçinin iştirakı ilə onların görüşünü (görüşlərini) təşkil edir. Görüşün (görüşlərin) nəticəsinə dair sosial işçinin hesabatı nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı uşağın övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddəti ilə yerləşdirilib-yerləşdirilməməsi barədə qərar qəbul edir. Uşaq övladlığa götürmək istəyən şəxsin ailəsində müvafiq icra hakimiyyəti orqanı və övladlığa götürmək istəyən şəxs arasında bağlanmış müqavilə əsasında yerləşdirilir.

Sosial işçi uşağın övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddətində yerləşdirilməsinin monitorinqini aparır. Müvafiq icra hakimiyyəti orqanı uşağın övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddətində yerləşdirilməsinin nəticələrinə əsasən, övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğu barədə rəy verir.

Bundan sonra üçüncü mərhələ - övladlığagötürmə ilə bağlı məhkəmə qərarının qəbul edilməsi mərhələsi başlanır. Belə ki, müvafiq icra hakimiyyəti orqanının uşağın övladlığa götürülməsi ilə bağlı rəyi müsbət olduqda, uşağı övladlığa götürmək istəyən şəxs həmin rəylə birlikdə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq ərizə ilə məhkəməyə müraciət edir. Məhkəmənin müvafiq qərarı qəbul edilənədək, habelə məhkəmə tərəfindən uşağın övladlığa verilməsi barədə müsbət qərar qəbul edildikdə, Ailə Məcəlləsinin 118.9-cu maddəsi ilə müəyyən edilmiş sınaq müddəti həmin qərarın qanuni qüvvəyə mindiyi günədək uzadılır. Müvafiq icra hakimiyyəti orqanının uşağın övladlığa verilməsi ilə bağlı rəyi mənfi olduqda və ya məhkəmə uşağın övladlığa verilməsindən imtina olunması barədə qərar qəbul etdikdə uşaq yerləşdiyi müəssisəyə qaytarılır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən Ailə Məcəlləsinin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq reabilitasiya tədbirləri görülür.

Müvafiq icra hakimiyyəti orqanının övladlığagötürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəyi mənfi olduqda, uşağı övladlığa götürmək istəyən şəxs Ailə Məcəlləsinin 118.3-cü (118.3.1-ci maddə istisna olmaqla) maddəsi ilə müəyyən edilmiş prosedurları təkrar keçməlidir.

Övladlığa götürmək istəyən şəxsin və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən yaranır. Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır.

Övladlığagötürmə barədə qərar məhkəmə tərəfindən uşağı övladlığa götürmək istəyən şəxsin ərizəsi əsasında qəbul edilir. Övladlığagötürmə barədə ərizəyə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

RƏQƏMSAL DÜNYA

# Bəşəriyyətin ilk sənət əsəri

**İndoneziyanın Sulavesi adasında yerləşən Liang Metanduno mağarasında ən azı 67800 il yaşı olan əl trafaretləri aşkarlanıb. Araşdırmanın nəticələri müasir insanların bədii ifadəyə düşündüyümüzdən daha erkən başladığını göstərir.**



Alimlər boya üzərində formalaşmış kalsit qatının yaşını uran-torium metodu ilə müəyyən ediblər. Analizlər mineral təbəqənin 67800 il yaşı olduğunu göstərib. Bu isə rəsmlərin daha da qədim ola biləcəyini ehtimal etməyə əsas verir. Bu sivri barmaqlı əl fiqurları, sadəcə, rəsm deyil, onlar on minlərlə il əvvəl müasir insanların böyük köçünün ən maddi və qədim sübutudur. Mütəxəssislər bildirirlər ki, geniş yayılmış inancın əksinə olaraq, bu bölgə erkən insanların yaşadığı, səyahət etdiyi və fikirlərini incəsənət vasitəsilə ifadə etdiyi əsl mədəniyyət mərkəzi olub.

Əvvəllər bu mağaralardakı rəsmlərin dəqiq yaşını müəyyən etmək mümkün deyildi. Texnologiyanın inkişafı sayəsində indi boya üzərindəki kalsit təbəqəsinin yaşını ölçmək mümkündür. Alimlər uranın toriuma çevrilmə sürətini hesablayaraq boya üzərindəki mineral təbəqənin 67800 yaşı olduğunu müəyyən ediblər.

Bu kəşf bəşər tarixi haqqında bildiklərimizi kökündən dəyişdirir. Arxeoloqlar bu bədii ifadələrin sosial zərurətdən yarandığına inanırlar. Müasir şəhərlərdə nəqliyyatın hərəkətini tənzimləmək üçün işıqforlara ehtiyacımız olduğu kimi, qədim insanlar da öz kimliklərini və mənsubiyyətlərini ifadə etmək üçün simvollara və sənətə müraciət edirdilər. Sulavesidə tapılan bu əsərlər insanların Asiyadan Avstraliyaya qədər buz dövrü marşrutu boyunca səyahətini işıqlandırır və müasir insanların Sahul qitəsinə çatma tarixini on minlərlə il geri çəkir. Bu kəşf bəşər tarixinin sonu deyil, bizi daha dərindən araşdırmağa çağıran tamamilə yeni bir başlanğıcdır. Tədqiqatçılar hesab edirlər ki, bu tapıntı erkən insanların mədəni ənənələrinin və simvolik düşüncə qabiliyyətinin geniş yayılmış və davamlı olduğunu sübut edir.

## Argentina sahilində nəhəng meduza növü aşkar edilib



Argentina sahillərində aparılan dərin dəniz tədqiqatları zamanı avtobus uzunluğunda nadir "xəyalət meduza" növü aşkar edilib. Kəşf Şmidt Okean İnstitutunun "Falkor" tədqiqat gəmisi ilə həyata keçirilən ekspedisiya çərçivəsində baş tutub.

Alimlər Buenos-Ayresdən Tierra del Fuegoya qədər uzanan ərazilərdə zəngin dərin dəniz ekosistemi qeydə alıblar. Ekspedisiya zamanı nəhəng "Bathelia candida" mərcan rifi, əlavə rif kompleksləri və yeni növ ola biləcəyi ehtimal edilən 28 orqanizm sənədləşdirilib.

Mütəxəssislər bildirirlər ki, Argentinanın dərin dənizlərində bu səviyyədə biomüxtəliflik görəcəklərini təxmin etməyiblər. Biomüxtəlifliyin, ekosistem funksiyalarının və növlərarası əlaqələrin qarşılıqlı təsirini görmək heyrətamiz olub.

Yeni xəritələşdirilmiş Bateliya mərcan rifinin səth sahəsinə görə Vatikan şəhərinə bənzər bir ərazini əhatə etdiyi deyilir. Rifdə meduzalar, xərçəngkimilər və çoxsaylı digər dəniz canlıları yaşayır. Bundan əlavə, bu mərcan növünün əvvəllər məlum olan ərazisindən daha cənubda kəşf edilməsi onun Cənubi Atlantikadakı əvvəlki yayılmasından daha da uzaqlaşdığını göstərir.

Alimlər əldə edilən məlumatların Argentinanın dərin dəniz ekosistemlərinin qorunması və daha yaxşı başa düşülməsi üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayırlar.

## 2250 illik fil sümüyü



İspaniyanın Kordova şəhəri yaxınlığında aparılan qazıntılar zamanı təxminən 2250 il əvvələ aid olduğu ehtimal edilən fil sümüyü fraqmenti tapılıb. Beysbol topu böyüklüyündə olan sümüyün filin ayağının bir hissəsi olduğu müəyyən edilsə də, növün hələ tam dəqiqliklə müəyyən edilmədiyi bildirilir.

Kordova Universitetinin professoru Rafael Martinez Sançezin rəhbərlik etdiyi alimlər qrupu bu qalığın eramızdan əvvəl 218-ci ildən 201-ci ilə qədər davam edən Roma və Karfagen arasındakı münaqişə zamanı istifadə edilən müharibə fili ola biləcəyi fərziyyəsini irəli sürür.

Eyni ərazidə katapult mərmilərinin olduğu ehtimal edilən daş nümunələr də aşkarlanıb. Alimlər sümüyün qorunmasını uçmuş divarın altında qalması ilə izah edirlər. Martinez Sançez qeyd edib ki, yalnız bir sümüyün tapılması onun uçmuş divarla qorunması ilə izah edilə bilər. Alim fraqmentin sonradan bir növ müharibə qəniməti kimi buraya gətirilməsi ehtimalını da istisna etmir.

## Yerin ömrü daha qısadır

Alimlər planetlərin ömrünü müəyyən edən amilləri araşdırıblar. Nəticələr göstərib ki, Yer kürəsinin ömrü əvvəllər düşünüləndən daha qısa ola bilər. Bununla belə kainatın uzaq guşələrində yerləşən bəzi dünyalar trilyonlarla il mövcudluğunu davam etdirə bilər. Planetlər gənc ulduzların ətrafındakı toz və qaz dənəciklərinin toqquşaraq birləşməsi nəticəsində formalaşır. Lakin bir planetin sonunu müəyyən etmək onun yaranma prosesini anlamaqdan daha mürəkkəbdir.

Elmi ictimaiyyət planetin "ölüm"ünü adətən onun fiziki cəhətdən tam parçalanması və ya yaşayış üçün əlverişli şəraitin geridönməz şəkildə dəyişməsi ilə izah edir. Yerin taleyi isə birbaşa Günəşin təkamülü ilə bağlıdır. Təxminən 5 milyard il sonra Günəş nüvəsindəki yanacağı tükəndirərək qırmızı nəhəng mərhələsinə keçəcək. Bu proses zamanı əvvəlcə okeanlar buxarlanacaq və Yer yaşayış üçün yararsız hala düşəcək. Daha sonra isə planetin genişlənən Günəş tərəfindən udulması və ya orbitdən çıxarılaraq kosmosa atılması ehtimalı mövcuddur.

Kainatın ümumi yaşı ilə müqayisədə planetimizin ömrü, əslində, olduqca qısadır. Kosmosdakı ulduzların böyük hissəsini təşkil edən qırmızı cırtdanlar Günəşdən daha yavaş yanacaq sərf etdikləri üçün trilyonlarla il yaşaya bilirlər. Bu ulduzların ətrafındakı qayalı planetlər isə daxili istiliyini və geoloji aktivliyini on milyardlarla il qoruyub saxlaya bilər. Bu fakt kainatda Yer kürəsindən daha uzunömürlü dünyaların mövcud olduğunu göstərir.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz keçəcək



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 21-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 4-7, gündüz 14-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 771 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7, gündüz 16-21, dağlarda gecə 0-4, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.


## "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının nəzərinə!

31 mart 2026-cı il saat 15:00-da "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Ünvan: Abşeron rayonu, Göradil kəndi, "Göradil Quşçuluq" ASC-nin inzibati binası.

**Yığıncağın gündəliyi:**
1. "Göradil Quşçuluq" ASC-nin idarə heyəti və sədrinin seçilməsi.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

*"Göradil Quşçuluq" ASC*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3319
Sifariş 238

Qiyməti 60 qəpik